# GÜLLƏLƏNMİŞ UŞAQLIQ



**MÜƏLLİF**
Əsli XƏLİLQIZI
**REDAKTOR**
Məmməd NAZİMOĞLU
**KOORDİNATORLAR**
Süsən NƏBİYEVA, Cəmilə BABAYEVA, Teymur MUSAYEV
**TƏRCÜMƏÇİLƏR**
Alevtina QORİNA (ingilis), Nicat MƏMMƏDOV (rus)
**KORREKTORLAR**
Reyhan BABAYEVA, Cəmilə BABAYEVA, Anar ORUCOĞLU
**DİZAYNER**
Tehran GƏNCƏLİYEV

**Maliyyə dəstəyinə görə Qafar Xəliloğlu Əliyevə minnətdarlığımı bildirirəm.**

**Azərbayjan Yolu Siyasi Hərəkatının Koordinasiya Şurasının sədri İlqar Qasımova və «Çaşıoğlu» nəşriyyat poliqrafiya müəssisəsinin rəhbərliyinə kitabın nəşrinə göstərdikləri xüsusi diqqətə görə minnətdarlığımı bildirirəm.**

# ÖN SÖZ

…Tale bizim xalqa kinli və məkrli qonşu bəxş edib. Yüz illərdir ki, mənim xalqım bu qonşuluqdan əziyyət çəkir, torpaqlarını və övladlarını itirir, məhrumiyyətlərə düçar olur, sitəmlər yaşayır, soyqırıma məruz qalır, faciələr girdabında çabalayır. Amma nədənsə, dünya bu həqiqətləri sanki görmür, eşitmir, düşüncəsində yalnız «zavallı erməni xalqı» və «kədərli erməni gözləri» fikrini daşıyır. Halbuki, Azərbaycanda elə bir ailə yoxdur ki, erməni fitnəsinə tuş gəlməsin. Həm də onların törətdiyi faciələr tarixin demək olar ki, bütün mərhələlərində baş verib. Amma biz bir millət olaraq həmin hadisələri ya unutmuşuq, ya da onları bizə unutdurmağa çalışıblar. Bu günkü erməni dövləti Azərbaycan torpaqlarının hesabına yaranıb. İndi Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmayıb. Qarabağ tamamilə erməni işğalı altındadır. Onlar indi də Naxçıvana iddialıdırlar.

Mənim babam Qafar Əliyev 1918-1921-ci illərdə erməni daşnaklarına qarşı Abbasqulu bəy Şadlinskinin başçılıq etdiyi mübarizənin fəal iştirakçılarından olub. Qardaşlarım Mübariz Xəlil oğlu Əliyev 1992-ci ildə Laçın-Kəlbəcər uğrunda gedən döyüşlərdə ağır yaralanıb və indi I qrup əlilidir. Digər qardaşım Qafar Xəlil oğlu Əliyev 1992-ci ildə Səbail rayonunda yaradılan könüllülər batalyonunun təşkilatçısı və komandiri olub, Tovuzda, Ağdərədə, Tərtərdə, Ağdamda, Füzulidə, Əsgəran yaxınlığında döyüşüb.

Bu faktları diqqətə çatdırmaqda məqsədim odur ki, oxuculara bildirəm: mənim bu kitabı qələmə almağa mənəvi haqqım var və mən bu işi həm də mənəvi borc hesab edirəm. Bu çox ağır bir yükdür və mən kitabı yazmağa hazırlaşarkən çox fikirləşdim: nə etməli, necə yazmalı ki, Xocalı soyqırımının şahidlərinin səsini insanlara çatdıra bilim? Son olaraq bu qərara gəldim ki, hər şeyi bər-bəzəksiz, təşbehsiz və obrazsız, şahidlərin danışdığı kimi qələmə almaq ən məqbul yoldur.

Etiraf edim ki, çox ağır mövzudur. Hələ mən həmin gecənin dəhşətlərini gözləri ilə görmüş, canında yaşamış uşaqların hamısı ilə görüşə bilmədim. Çünki, xocalılar Azərbaycanın müxtəlif yerlərinə səpələniblər. Bir qismi Vətəndən uzaqlardadır. Bir qismi isə sadəcə, danışmaqdan imtina etdi. Onları qınamıram. XXI əsrin

qaynar vaxtında insanlardan faciələrdən keçmiş uşaqlığı barədə söz soruşmaq, onları danışdırmaq, dinləmək olduqca çətindir. Onların hər biri ölümün bir addımlığında olub. Ölüm onların başlarının üzərində fırlanıb. Amma onlar sağ qalıblar. Bu da bir faciədir: uşaqlıqları ölüb, özləri yaşayırlar. Onların bioqrafiyasındakı «uşaqlıq» qrafası həmişə boş qalacaq. İndi boylu-buxunlu bir növ cavan olmuş həmin o uşaqlığı ölmüş adamlar 15 il əvvəlin məşum gecəsini xatırlamağa əziyyət çəkirlər. Bu, onlara dərd gətirir, sitəm verir, mənəvi cəhətdən sarsıdır. Hərdən də onlar bir şaman kimi o gecəyə cəzb olurlar, danışdıqca danışırlar: sanki dedikləri şaman duasıdır. Bu, bizim faciələrimizin səlnaməsidir. Onu yazmaq, gələcək nəslə çatdırmaq bizim borcumuzdur. Mən o borcu verə biləcəyəmmi? Bu sualın qarşısında həyəcanımı boğa bilmirəm. Tanrıdan, doğmalarımdan və dostlardan mənə arxa olmağı, mənəvi dəstək durmağı diləyirəm. 1992-ci il fevralın 26-da ölümün ağzından qurtulmuş Xocalı uşaqlarının qisməti Allahın alın yazısıdır. O yazıdan qaçmaq olmur. Mənim yazdıqlarım bəndənin qələmə aldıqlarıdır. Nə bilmək olar, bəlkə elə bəndənin də yazısından qaçmaq mümkünsüzdür? Demirəm ki, əlimə dəmir əsa alıb, ayağıma dəmir çarıq geyib qapı-qapı düşdüm, bu kitabı ərsəyə gətirənəcən dərviş həyatı yaşadım. Onsuz da, Yunus İmrə demişkən, mən dərviş olamam, çün dərviş könülsüz olur. Mən isə bu işə könüllü girişdim. Qırıq könüllərə təskinlik vermək üçün. Uşaqlığı ölmüş insanların faciəsini hamıya çatdırmaq üçün. Ona görə də bu kitabda nə haray axtarın, nə də üsyan… Sadəcə oxuyub düşünün.

## QAN QOXUYAN RƏQƏMLƏR

On beş il əvvəl, 1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoalayının bilavasitə iştirakı ilə Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımını törətmişdir. Ermənilər Xocalı şəhərinin əhalisinə divan tutmuş, həmin hadisə zamanı yüzlərlə insan, o cümlədən qocalar, qadınlar və uşaqlar xüsusi amansızlıqla qətlə yetirilmiş, əsir və girov götürülmüş, şəhər yerlə-yeksan edilmişdir. Xocalı işğal olunarkən dinc əhaliyə şəhərdən çıxmaq üçün dəhliz qoymayan cinayətkarlar heç

kimə aman verməmişdir. Hadisədən bir neçə gün sonra telereportyor Çingiz Mustafayev tərəfindən lentə alınan dəhşətli kadrlar bütün dünyanı sarsıtdı. Əsas etibarilə qocalar, qadınlar və uşaqlardan ibarət olan onlarla meyidin alın dərisi soyulmuş, sifətləri güllələrlə və avtomat qundaqları ilə dağıdılmışdı. İnsanlığa utanc gətirəcək bu hadisə ermənilərin «öz müqəddəratını təyin etmə hüququnun» əsil mahiyyətini göstərir. 613 nəfər həmyerlimiz öldürülmüşdür ki, onlardan da 63 nəfəri uşaq və yeniyetmə, 106 nəfəri qadın, 70 nəfəri isə ahıl yaşlı adamlardır. 8 ailə tamamilə məhv edilmiş, 25 nəfər uşaq valideynlərinin hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 150 nəfərin taleyi bu günə kimi məlum deyil. 487 nəfər əlil olmuş, 1275 nəfər girov götürülmüşdür.

Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəfə almış məqsədyönlü irticaçı siyasətinin yeni bir mərhələsi olmaqla, ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində misilsiz vəhşilik və qara ləkə kimi qalacaqdır.

# DON VURMUŞ AYAQLAR



**MUSAYEV TEYMUR SƏLİM OĞLU**

Təvəllüdü: 4 aprel 1981-ci il
Doğulduğu yer: Xocalı

«Fevralın 13-ü axşama yaxın Xocalı aeroportunda axırıncı vertolyot uşaq və qadınları çıxarırdı. Həmin vertolyotu qoruyan ikinci vertolyot da yerə endi. Anam, balaca qardaşım qucağında vertolyota zorla mindi. Balaca bacım da ağlayıb özünü vertolyota saldı. Qapı örtülmürdü. Təyyarəçi bacımı itələyib qapını örtdü. Vertolyot havaya qalxdı. Məni vahimə basdı. Elə bilirdim ki, qapı açılacaq bacım yıxılacaq. Sonra biz – atam, qardaşım və mən evə döndük. Çoxdan bəri Xocalıda atışma getdiyindən atam həyətimizdə tunel qazmışdı. Atışmanın şiddətləndiyini görüb, tunelə düşdük. Qonşular da bizim tunelə doluşdu. Qonşularımız Zinyət xala ilə həyat yoldaşı Hüseyn dayı da tuneldə idi. Dəhşətli uğultu vardı. Adamın qulaqlarında əks-səda verirdi. Atışmanın səngimədiyini, daha da şiddətləndiyini görüb tuneldən çıxdıq. Əhali hasarların dibi ilə əyilə-əyilə, sürünə-sürünə hərəkət edirdi. Biz də onlara qoşulduq. Zinyət xala ilə Hüseyn dayı tuneldən çıxmağa qorxdular. Tuneldə qaldılar… Bir daha onları görən olmadı. İri bir dəstə şəhər kənarındakı çayı keçirdi. Atam ayaqlarını soyunub, əvvəl nənəmi – anasını, sonra balaca qardaşımı, əmioğlumu keçirib mənim arxamca getmək istəyəndə qışqırdım ki, ata, artıq mən çayı keçmişəm bu taydayam. Çayı keçib bir xeyli getdik. Gecə idi. Hər yan ağappaqdı. Şaxta adamı kəsirdi. Atam meşə ağaclarının budaqlarını sındırıb bir neçə ocaq qaladı. Hər ocağın başına bir yığın adam toplaşırdı. Bizim kolonda adam çox idi. Gecə-gündüz yol gedirdik. İkinci gün Vüsal adlı bir uşaq - Səttar dayının oğlu acından öldü. O, hey atasından çörək istəyirdi. Mən itburnu, qar yeyirdim. İtburnu kolları əllərimizi cırıq-cırıq

eləmişdi. Hamı taqətsiz idi. Dizəcən qarda yerimək çətin idi. Dəhşətli yuxum gəlirdi. Gözlərim öz-özünə qapanırdı. Atama yalvarırdım ki, icazə versin, beşcə dəqiqə yatım. Atam icazə vermirdi. Başımı qatırdı ki, çatmağımıza lap az qalıb. Sən demə, yatmış adamı don vuracağından qorxurmuş. Heç məni qucağına da almırdı ki, birdən yataram. Əlimdən tutub dartırdı. Kolonnamızda yaşlı bir ər-arvad vardı. Onlar gedə bilmirdilər. Camaat növbə ilə onlara kömək edirdi. Artıq hamı taqətdən düşmüşdü. Özləri güclə hərəkət edirdi. Adlarını xatırlaya bilmədiyim o qadın və o kişi də meşədə qaldı. Atam onlara iri ocaq qaladı ki, isinsinlər… Kolonnamız çox böyük idi. Qabaqdan baxanda arxa görünmürdü. Atam təşkilatçılardan biri olduğundan biz qabaqda gedirdik. Dik təpələri, yoxuşları qalxmaq adamı haldan salırdı. Ağdamın Abdalgülablı kəndinə sarı səmt almışdıq. Yoxuşu təzəcə qalxmağa başlamışdıq ki, güllələbarana düşdük. İstiqaməti dəyişib üzü dərəyə qaçdıq. Hər yan qar, bir də ağac gövdələri idi. Sıx ağac gövdələri çoxumuzun həyatını qurtarsa da, orada xeyli ölən oldu. Pərən-pərən olmuş camaat dərənin dibində bir yerə toplaşdı. Adamlar azalmışdı… İnsanlar bir-birlərini səsləyirdilər. Abdalgülablı zənn etdiyimiz kəndə yaxınlaşırdıq. Kənd camaatı Azərbaycan dilində erməniləri söyə-söyə bizi səsləyirdi. Və birdən yenə güllələbaran başladı. Tələyə düşmüşdük. Kolonnanın arxasında olan camaat geri dönüb qaça bildi. Dayım da qaçmışdı. Biz qabaqda getdiyimizdən əsir düşdük. Bu ermənilərin yaşadığı Dəhraz kəndi idi… Bizi kəndin içərisindəki fermaya gətirdildər. Zəhra adlı bir qadını fermanın həyətindəcə güllələdilər. Güllə onun ağzından girib boynunun ardından çıxdı. Lap yanımda sakitcə keçindi… Səsi də çıxmadı. Unutmadığım səhnələrdən biri də Zəhra xalanın səssizcə ölümüdür…

Bizi mal-qara tövləsinə doldurdular. Yeməyə çiy kartof verdilər. Bir az keçdi, iri bir ləyən gətirib dedilər ki, nəyiniz var tökün. Üstünüzdə bir şey qalsa, güllələnəcəksiniz. Kimin nəyi vardısa - qızıl, pul, sənəd həmin ləyənə tökürdü. O ləyən üç dəfə dolub boşaldı. Ora atılan qızıl əşyaların taqqıltısı da qulağımdadır. Həmin tövlədən üç oğlu əlindən alınıb güllənənən Matan xalanın naləsi də…

Matan xala nə qədər ağlayıb yalvardısa, oğullarından birini də ona vermədilər. Üçü də Milli Ordu paltarında idi. Birinci gün 10-11 nəfər Milli Ordu paltarında olan kişini çölə çıxardılar. Çöldə pulemyot biçini eşidildi…

Bizi bir-iki gün də Dəhraz kəndi yaxınlığında fermada saxladılar. Sonra seçdilər. Tövlədən çıxanda qoca, qadın və uşaqları bir tərəfə, əli silah tuta biləcək cavan və orta yaşlı kişiləri digər tərəfə cərgələdilər. Atam bizdən ayrı düşdü. Ata nənəm məni və qardaşım Ramini öyrətdi ki, gedin atanızın ayaqlarından yapışıb ağlayın və yaraqlılara deyin ki, anamız meşədə ölüb, heç olmasa, atamızı buraxın. Elə də elədik. Yaraqlılardan biri – o, Yerevandan gələn deyildi, yerli erməni idi - atamı tüfəngin qundağı ilə qoca, qadın olan sıraya itələdi. Bizim sıraya Ağdamın Abdalgülablı kəndinə sarı hərəkət etmək tapşırıldı. Bizi bir neçə erməni yaraqlısı yarı yolacan yola saldı. Yolda bizə deyirdilər, əgər siz tərəfdən atsalar, hamınızı biçəcəyik. Gedirdim, dönüb arxaya baxırdım. Elə bilirdim bizi arxadan biçəcəklər…

O biri cərgədən isə xəbərim olmadı. Abdalgülablı kəndində bizi Milli Ordunun əsgərləri qarşıladı. Oradan da Ağdama gətirdilər. Bizi ölmüş bilmiş anam bir neçə gün Ağdam məscidində meyitləri axtarıbmış… İnana bilmirdim sağ qaldığıma… Don vurmuş ayaqlarımı soyuq suya qoydular».

***Onun don vurmuş ayaqlarını soyuq suya qoydular ki, donu açılsın, isinsin… Bəs qəlbi?! Sarsılmış bu körpə qəlbinin aldığı yaralar ovunacaqmı?***

---



Musayev Teymur Səlim oğlu
indi Bakı şəhəri, Nəsibbəy
Hüseynbəyli küçəsi, 58 saylı
mənzildə yaşayır.
Tel: 441-29-94 (ev);
(050) 660-30-39 (mob)

## ATASI GÖZLƏRİ QARŞISINDA YANDIRILAN QIZ



**ƏMİROVA XƏZANGÜL TƏVƏKKÜL QIZI**

Təvəllüdü: 25 sentyabr 1983-cü il
Doğulduğu yer: Xocalı

«Fevralın 25-i gecə saat təxminən on birə qalmış evdən çıxdıq. Hər yandan partlayış səsi gəlirdi. Gurultudan qulaq tutulurdu. Qorxurdum. Anam balaca qardaşım Vüqarı qucağına almışdı. Atam bacım Nigarı. Mən və dörd yaşlı bacım Yeganə özümüz gedirdik. Xocalıdan çıxanda ana nənəm Əntiqə gəlib bizi tapdı. O, anamdan qardaşım Vüsalı aldı. Atam bizi çaydan keçirdi. Meşəyə girdik. Hər yan qar idi. Üşüyürdüm. Gecə meşədə qaldıq. Səhər açıldı. Ermənilər camaatımızı qırdı. Hər tərəf meyit idi. Atam ayağından yaralandı, sonra da çiynindən. Atam meşədən qırdığı yoğun ağac budağına söykənə-söykənə gedirdi. Anam Nigarı atamdan almışdı. Dərəyə enmişdik. Oturmuşduq. Bizi ermənilər gülləyə tutdular. Anam başını əyib bacım Nigarı qucaqladı ki, güllə ona dəyməsin. Güllə anamın başından dəydi… Anam yerindəcə keçindi. Nənəm haray çəkirdi, qışqırırdı, ağlayırdı. Balaca bacılarım Yeganə, Nigar donuq-donuq baxırdılar. Anamı qucaqlayıb ağlayırdım. İstəmirdim anam orada qalsın. Atam qolumdan tutub dartdı. Anamın üstünü başına bağladığı şalla örtdü… Biz gedirdik. Hey dönüb anama baxırdım. İstəyirdim anam da gəlsin… Bir az getmişdik ki, altı yaşlı bacım Yeganəni vurdular, o da yerindəcə keçindi. O da meşədə qaldı. Sonra bilmirəm, ermənilər bizi tutdu. Bir kəndə gətirdilər. Atamı tüfəngə tuşlayıb öldürmək istəyirdilər. Erməni yaraqlısının ayağını qucaqlayıb yalvarırdım ki, anam ölüb, bacım ölüb, atamı öldürməyin. Məni itələdilər. Atamı güllə ilə vurmadılar. Sonra onu simlə ağaca sarıdılar. Dedilər: «De ki, Qarabağ Ermənistan torpağıdır!». Atam demədi.

Ayaqlarına benzin töküb yandırdılar. Atamın ayaqları yananda mən də, nənəm də qışqırırdıq. Bir də dedilər: «De ki, Qarabağ Ermənistan torpağıdır! Buraxaq get, balalarını saxla». Atam yenə demədi. Bu dəfə onun boğazından aşağı benzin tökdülər. Yandırdılar atamı…»

Qışqırırdım… Atama kömək etmək istəyirdim… Hər qolumdan bir erməni saqqallısı tutmuşdu. Onlar gülürdülər! «Türk köpəy oğluna göz dağı olsunlar!» deyirdilər. Orada çoxlu meyit vardı… Boyunlarına məftil bağlayıb sürüyürdülər. İnsan əzabından zövq alıb gülürdülər! Bilmirəm biz oradan necə qurtardıq. Artıq heç nə hiss etmirdim. Heç nə xatırlaya bilmirəm. Nənəm deyir ki, Milli Ordunun əsgərləri bizi qurtardı. Ağdama gəlmişdik».

***Bir aforizmdə deyilir: Keçmiş həmişə insanı yeyir. Amma keçmişi xatırlamadan sabaha getmək də olmur. Xəzangülü yaşadan isə xatirələr deyil, ümiddi… Puç olmuş arzuların göyərəcəyinə olan ümid.***

---



Əmirova Xəzangül Təvəkkül qızı indi Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsi, Qızılqum sanatoriyasında qalır.
Tel: 551-43-54

# YADDAŞI SİSLİNMİŞ QIZCIĞAZ



**ƏMİROVA NİGAR**
**TƏVƏKKÜL QIZI**

Təvəllüdü: 1 yanvar 1988-ci il
Doğulduğu yer: Xocalı

Heç nə xatırlaya bilmir. İki güllə yarası alıb. Topuğundan və ombasından 1992-ci il Bakı şəhər Sabunçu rayon xəstəxanasında müalicə alıb. Sabunçu rayon 10 saylı peşə litseyində oxuyur.

***Yox, onun yaddaşı korlaşmayıb, sadəcə şahidi olduğu dəhşətlərin ağırlığı onun xatirələrini silib atıb.***



Əmirova Nigar
Təvəkkül qızı
Bakı şəhəri, Sabunçu rayonu,
Pirşağı qəsəbəsi, Qızılqum
sanatoriyasında qalır
Tel: 551-43-54

# QİSMƏTİNDƏ YAŞAMAQ OLUB



**ƏMİROV VÜSAL TƏVƏKKÜL OĞLU**

Təvəllüdü: 14 aprel 1991-ci il
Doğulduğu yer: Xocalı

Heç nə xatırlamır. Nənəsi Əntiqənin qucağında gəlib Ağdama çatıb. Ölməsin deyə, nənəsi ağac yarpaqlarını çeynəyib onun ağzına qoyurmuş. Uşağın ağzına hərdən qar da atırmış ki, kirisin. Hərdən də ağzını dəsmalla bağlayırmış ki, səs salıb yerlərini ermənilərə bildirməsin. Qismətində yaşamaq olub bu səkkiz aylıq körpənin. Atasız, anasız… Qoca nənənin himayəsində… Şaxtalı fevralda üç gün, üç gecə çöldə qalan bu körpə düz dörd il müalicə götürüb. Əvvəl Sabunçu rayon xəstəxanasında, sonra da Respublika Klinik Xəstəxanasında. Qulağından cərahiyyə əməliyyatına məruz qalıb.

***O, uşaqlığını şaxta vurmuş insan misallıdı. Görəsən, onun ömrünün bu başında Günəş boylanacaqmı?***



Əmirov Vüsal Təvəkkül oğlu
indi Bakı şəhəri, Sabunçu rayonu,
Pirşağı qəsəbəsi, Qızılqum
sanatoriyasında qalır. Xocalı şəhər
2 saylı orta məktəbin 9-cu sinfində
oxuyur.
Tel: 551-43-54

# ÇİNGİZ HÖNKÜRƏ-HÖNKÜRƏ MEYİTLƏRİ ÇƏKİRDİ



**MEHBALIYEV FÜZULİ ƏLİ OĞLU**

Təvəllüdü: 12 avqust 1975-ci il
Doğulduğu yer: Xocalı

«Xocalı sakini İsrail İsmayılovla «Vaşim şestoy» postunda durmuşduq. Səhərdən bir tikə yemək yeməmişdik. Axşam saat on radələrində evə yeməyə gəldik. Hər an atışma vardı. Ancaq birdən atışma şiddətləndi. Milli Ordunun əsgəri İsrail məni posta qayıtmağa qoymadı. Özü getdi. Dəhşətli partlayış, gurultu səsləri aləmi bürüdü. Biz üç mərtəbəli binada yaşayırdıq. Bayıra çıxmaq mümkün deyildi. Blok güllələbaran edilirdi. Birinci mərtəbədə olduğumuzdan blok sakinləri bizim evə doldu. Blokun əks tərəfindəki nisbətən güllə tutmayan otağın pəncərəsini açdıq. Birinci mən endim. Sonra belimi dayaq verdim ki, evdə olan qız-gəlinlər, qocalar pəncərədən düşə bilsin. Binanın kişilərinin hamısı Xocalının müdafiəsinə qalxmışdı. Gördük ki, Əlif Hacıyev və Tofiq Hüseynov Milli Ordu əsgərlərini bizim köməyimizə göndərib. Xocalı şəhəri aşağıdan, yuxarıdan – aeroport və Əsgəran, bir də Bozdağı tərəfdən hücüma məruz qalmışdı. Alazan, snaryad, qranat yağış kimi yağırdı. Təkcə Çaylaq yolu tərəfdən hücüm yox idi. Milli Ordu əsgərləri düşmənlə atışa-atışa bu yolla bizi Ağdama keçirmək istəyirdilər. Fin evlərinin yanından daldalana-daldalana gedirdik. Getdikcə camaat çoxalırdı. Qışqıran kim, bağıran kim. Qarqar çayına çatdıq. Qardaşım Nizami ilə anamı çaydan keçirdik. Su buz kimi soyuq idi. Çayı keçib Kətik meşəsinə üz tutduq. Dəstə o qədər böyümüşdü ki, artıq idarə etmək çətin idi. Rəhmətlik Əlif Hacıyev, Milli Ordunun əsgəri Füzuli və başqaları təhlükəsiz istiqaməti müəyyənləşdirib dəstəni istiqamətləndirirdilər. Anam, qardaşım, qonşumuz Mamed dayı, həyat yoldaşı Rəhilə – biz lap yanaşı gedirdik. Tanıdığım insanların çoxunu yadımda saxlaya bilmirdim. Soyuq, qorxu, vahimə, islanmış ayaqlarım da buz kəsmişdi.

Kətik meşəsində təpəni qalxdıq. Dönüb Xocalıya baxdım. Xocalı od tutub yanırdı. Hər yan al-əlvan çıraqban idi. Sanki yeni il yolkasının sıx işıqları yandırılmışdı. Xocalıdan xeyli uzaqlaşsaq da, şəhərdə şiddətli atışma səsi gəlirdi. Döyüşən Milli Ordunun əsgərləri idi. Onlar ölümlə üz-üzə qalmışdılar ki…. Qalmışdılar ki, dinc əhali mühasirədən çıxa bilsin.

Təpədən dərəyə endik. Rəhmətlik Əlif Hacıyev dedi ki, buranı güllə tutmaz, bir az oturub dincələk. Qarın üstündə oturdum. Ağzıma qar qoydum. Camaat su əvəzinə qar yeyirdi. Əlif Hacıyev qışqırırdı ki, qar az yeyin. Bir az dincəlmişdik ki, o, durmaq əmri verdi. Qalxdıq. Bir xeyli gedib meşənin tala yerində şumluğa düşdük. Qar basmış, şumlanmış yerdə hərəkət lap zülm idi. Ayağının birini atır, sanki o birini kimsə tutub saxlayırmış kimi gəlirdi adama. Üstəlik də çayı keçərkən islanmış ayaqlarım zülm verirdi mənə. Yüngülləşmək üçün əynimdəki gödəkçəni çıxarıb atdım. O, məni lap gücdən salırdı. Bir az getmişdim ki, ayağım tələyə keçdi. Nə qədər etdik tələni aça bilmədik. Ayaqqabının bağını açıb ayaqqabıdan ayağımı sürüşdürüb çıxardım. Ayaqqabımın bir tayı tələdə qaldı. Gedirdik. Səhərə yaxın idi. Kətik meşəsi ilə Əsgəranı birləşdirən asfalt yolu keçsə idik, Şelli kəndinə çatacaqdıq. Asfalta çataçatda gülləbaran başladı. Başımızı qaldıra bilmirdik. Heç kimin heç kimdən xəbəri yox idi. Bizi mühafizə edən Milli Ordu əsgərləri cavab atəşi açırdılar. Orada xeyli ölən, yaralanan oldu. Camaat sürünə-sürünə gedirdi ki, gülləyə tuş gəlməsin. Heç yadımdan çıxmaz. Xocalıda fin evlərində yaşayan Rəşid adlı oğlanın ovçarkası gülləbaran başlayanda irəli cumdu. Sonra o da sanki hər şeyi başa düşürmüş kimi sürünməyə başladı. Şelliyə qədər süründü. Şelliyə çatmamış dərədə yenə də gülləbarana düşdük. Orada atışma daha şiddətli idi. Milli Ordunun əsgəri İsrailin pulemyotunun maqazinini doldururdum. Maqazini götürmək istəyəndə geri baxanda gördü ki, mənəm. Üstümə qışqırdı. «Rədd ol, get burdan! Oradan bura sağ-salamat gəlmisən ki, burada öləsən?». Böyür-başım meyitlə dolu idi. Yıxılan kim, zarıyan kim, imdad diləyən kim, inildəyən kim. Heç kim heç kimi tanımırdı. Güllə yağışı altında bir saniyə belə dayanıb kiməsə kömək etmək mümkün deyildi. Hamı can hayında idi.

Həmin gülləbaranda sonralar Azərbaycanın Milli Qəhrəmanı olmuş Əlif Hacıyevin mənə bağışladığı papağı itirdim. Papaq başımdan düşdü. Qayıdıb götürməyə qorxdum. Şelliyə sarı qaçırdım. Hələ Kətik meşəsində Əlif Hacıyevin papağı kola ilişib dərəyə

yuvarlanmışdı. Gedib gətirmişdim. Papağı başıma basıb demişdi: «Soyuqdu, qoy başına»… Naxçıvanikdəki donuz fermasının yanındakı gülləbarandan canını qurtaran Şelli kəndinə çatdı. Mən də onlarla idim. Bizi bir evə apardılar. Əvvəlcə su verdilər.

1992-ci il fevralın 27-də meyitləri yığmaq üçün güllləbarana düşdüyümüz yerə - Naxçıvanik yaxınlığına gəldik. Ata-anasının meyitini tapmaq ümidilə Həsənbalanın uşaqları da mənimlə idi. Başqa xocalılar da vardı. Milli Ordunun əsgərlərindən də. Meyit axtarırdıq. Bir hərbi vertolyot yerə endi. Bir neçəsi də onu mühafizə edirdi. Çingiz Mustafayev kamera ilə bu törədilmiş vəhşiliyi çəkirdi. Həm də hönkürürdü. Sonralar Azərbaycanın Milli Qəhrəmanı olmuş Çingiz Mustafayevin çəkdiyi kadrlar dünyanı lərzəyə gətirdi. Həmin kadrlardan qat-qat dəhşətlilərini gözlərimlə görmüşəm. Yandırılmış, başı, qulağı, burnu kəsilmiş, dərisi soyulmuş meyitlər. Meyitləri yığmağa da qoymadılar. Yenə atışma başladı. Artıq şiddətlənirdi. Yerə enmiş vertolyot 15-20 meyit götürdükdən sonra qalxdı. Biz Şelliyə sarı qaçdıq. Meyitləri götürə bilmədik. Həsənbalanın uşaqları nə anasının, nə də atasının meyitini çıxara bilmədilər. Həsənbalanın arvadı dərədə idi. Boğazından yaralanmışdı. Kəndçimiz Talehin meyiti bir az dikdə donmuşdu… Ondan bir az aşağıda tanımadığım iki uşaq meyiti vardı… Dərə dolu meyit idi. Qaxaca dönmüş meyitlər… Fevralın 26-dakı güllləbaranda camaat dərəyə doluşdu ki, başını gülllədən gizləyə bilsin… Elə dərədəcə hamısı üst-üstə qalaqlanmışdı… Çoxsunu tanımırdım. Xocalıda fermada işləyən bir kişinin meyitini yandırmışdılar. Doğmaları onu ayaqqabısından tanıdı. Dilonun oğlunun beyin hissəsi oyulmuşdu…

Gecələr yata bilmirəm. İnanmıram sağam. İnana bilmirəm yaşayıram».

***Bu da Xocalı faciəsinin dəhşətli bir məqamıdır: insanlarla birlikdə onların inamını da qırıblar. Sağ ola-ola öldüyünü güman edən insanın üzü gülərmi heç?***

---



Mehbalıyev Füzuli Əli oğlu indi
Bakı şəhər Baş Tikinti İdarəsinin
2 saylı evtikmə kombinatının
Pirşağıdakı pansionatında qalır.
Tel:551-48-89
(055) 733-05-96

# HƏRDƏN YAŞAMAQ EŞQİ DƏ GÜCSÜZ OLUR



**QULİYEV AZAD
ZAHİD OĞLU**

Təvəllüdü: 9 iyul 1974-cü il
Doğulduğu yer: Xocalı

Anasının yanında müsahibə vermək istəmədi. «Keçək o biri otağa» dedi. Keçdik. Siqaret yandırmaq üçün icazə istəyir. «Əlbət ki, olar» deyirəm. Azad danışır. Danışırmı?! Dolmuş gözlər, uzağa getmiş baxışlar, əsən əllər, gərilmiş sinir, gizləmək istədiyi göz yaşları. Azad faciəni yenidən yaşayır.

«Böyüklər döyüşdüyündən şəhəri çörəklə təmin etmək üçün biz «pekarnıda» kömək edirdik. «Pekarnı»daydım. Gecə evə gəldim. Olardı saat 10, ya da ona qalmış. 11-ə beş dəqiqə qalmış evimizin yanındakı posta düşdüm. Hər tərəfdə evlər yanırdı. Xocalı, Xankəndi, Noraguh tərəfdən atəşə tutulmuşdu. Tez evə qayıtdım. Balaca qardaşım Mikayıl və gəlinimiz Dilşadı götürüb üç mərtəbəli panel evlərin zirzəmisinə girdik. Qonşularımız da zirzəmidə idi. Şəhərin müdafiəsinə qalxmış böyük qardaşlarım Nadir, Qadir və Adildən xəbər tutmaq üçün zirzəmidən bayıra çıxdım. Şəhər dəhşətli partlayış, gurultu içərisində idi. Mühasirədə olduğumuzu öyrənib təzədən zirzəmiyə qayıtdım. Zirzəmidə 20-30 nəfərə yaxın adam var idi. Səhərə yaxın, dördə iyirmi beş dəqiqə qalmış, saata baxmışdım, zirzəmini tərk edib Çaylağa sarı səmt aldıq. Çaylağa çatdıq. Şaxtalı qış, bumbuz su. Gəlinimizi belimə alıb çayı keçirəndə müvazinətimi saxlaya bilmədim. İkimiz də çaya düşdük. Camaat kömək edib bizi qaldırdı. Cumcuma su olmuşduq. Bir-iki saat hərəkətsiz qalsaydıq, donacaqdıq. Çaylağı keçib Kətik meşəsinə girdik. Qar dizəcən idi. Hərəkət etmək çətin idi. Üstəlik də əyin-başımız yaş. Meşə ilə bir az getmişdik ki, qarşıdan ermənilərin gülləbaranına tuş gəldik. Qabaqda gedənlərdən qırılanlar oldu. İstiqaməti Abdalgülablıya sarı dəyişdik. Bir gün yol getmişdik ki, yenə də meşədə ermənilərin pusqusuna düşdük. Geri döndük. Yenə istiqaməti dəyişmək məcburiyyətində

qaldıq. Güllə yağdırılmayan istiqaməti seçdik. (Sonra biləcəkdik ki, ermənilər qəsdən bu istiqamətdən hücum etmirdilər). Nə qədər, neçə gün yol getmişdik yaxşı xatırlamıram. Dördüncü gün Naxçıvanikə gəlib çatdıq. Naxçıvanikdə mühasirəyə düşəcəyimizi bilmirdik. Kənd kənarındakı qəbirstanlığın qəbir daşları arasında gizlənmiş ermənilərin vəhşi gülləbaranına düşdük. Qəbirstanlıq atışmasında gəlinimiz Dilşadı, xalam oğlu Vasifi itirdim. Bilirsiniz, ən dəhşətlisi nə idi? Doğman yanındaca keçinir, sən ona yanaşa da bilmirsən. Qardaşım Mikayılla qəbirstanlıqdakı bir daşın dalında gizləndik. Güllələr oranı tutmurdu. Gecənin qaranlığı bizi gizlətmişdi. Qardaşımla arxası üstə uzanmışdıq. Səhər açılanda birdən qəribə bir vahimə basdı məni. Çox yorğun olduğumdan gecə uzananda görünür, bir müddət huşa getmişəm. Qardaşım Mikayıla evdə biz Vüqar deyirdik. Ona sarı çönüb Vüqar, Vüqar deyə çağırdım. Gördüm inildəyir. Baxdım ki, ov tüfəngi ilə özünü vurub… Çığırdım… Niyə?! Niyə?! Niyə?! Vüqar! Nə qədər çalışdım ki, qucağıma alıb özümlə aparım, gücüm çatmadı. Erməniyə əsir düşməsin deyə, qardaşım özünü vurmuşdu. Elə güllə səsinə mən huşdan ayılmışdım. Qardaşımdan ayrılıb getməli idim. Dedim ki, gəlib səni aparacağam. Qardaşımın çöldə qurd-quşa yem olacağını düşünəndə dəhşətə gəlirdim. Kim bilir, bəlkə ermənilər onun meyitini təhqir edəcəkdi. Onu basdırmaq üçün qayıdacağıma söz vermişdim. Qardaşımdan 500-600 metr aralanmışdım ki, 28-30 yaşlı iki erməni saqqallısına rast gəldim. Uzaqdan əl işarəsi ilə məni yanlarına çağırdılar. Şoka düşmüşdüm. Bir addım da ata bilmirdim. Dimdik dayanmışdım. Ermənilərdən biri əlindəki avtomatla sağ-soluma atəş açırdı. Mənim qorxmağımdan ləzzət alıb gülürdülər. Digəri yaxınlaşıb avtomatın qundağı ilə boynumdan vurdu. Üzü üstə yerə sərildim. Əsir düşdüm. Orada eşitdiyim söyüşləri heç vaxt eşitməmişdim. Əsirlərə necə gəldi işgəncə verirdilər. Avtomatla, təpiklə, yumruqla döymək ən mədəni forma sayılırdı. Təkcə erməni yaraqlıları vəhşiləşməmişdi. Məni Naxçıvanik kəndinin içi ilə aparırdılar. Yolda rastlaşdığım əllərində əsa, saç-saqqalı ağarmış erməni qocaları əsalarını başıma çırpırdılar. Pəncərədən bir erməni qadını qışqırırdı: «Türk köpəy oğlu, o türkü gəbərdin!». Məni Naxçıvanikdəki donuz fermasına gətirdilər. Qapını açıb içəri itələdilər. İçəridə Xocalı camaatını görəndə özümdən getmişəm. Ayılanda gördüm ki, 30-40 nəfərik. Bizi sıraya düzür, yerə uzandırır, təpikləyirdilər. Ayaqları yorulduqda isə ağacla

kötəkləyirdilər. Üç gün orada qaldıq. Sonra bizi Əsgəran rayon polis şöbəsinə apardılar. Əsgəranda artıq xəbər tutmuşdular ki, türk əsirləri gətirilir. Polis bölməsinin qarşısına yığışmış ermənilər bizə özümüzün maşından düşməmizə imkan vermədilər. Bizi bir-bir maşından dartıb asfalt yola salıb növbə ilə təpikləyirdilər. Polis bölməsində bizi iki-iki, üç-üç böldülər. Mən 35-40 yaşında bir kişi ilə bir otağa qatıldım. Onu otaqda yanımdaca güllələdilər. Qorxurdum. Çox qorxurdum. Qorxudan güllələnmiş Xocalı sakininin meyitinə belə baxmırdım…

Bir gün bir erməni saqqallısı saxlandığım otağa gəldi. Onun təxminən qırx yaşı olardı. Dedi: «Mən Yerevandan gəlmişəm. Sənin başını şəxsən özüm kəsib Yerevana aparacam». Sonra da hırıldamağa başladı. Vəhşicəsinə məni yumruqladı. Orada neçə gün qaldığımı bilmirəm. Başqa bir kəndə apardılar məni. Burada da iyirmiyə qədər kişi vardı. Vəhşicəsinə işgəncə verirdilər əsirlərə. Qonşu kameralarda girov götürülmüş qız-gəlinlərimizin naləsini eşidirdim. Orada da neçə gün qaldığım yadımda deyil. Bizi Noraguh kəndinə gətirdilər. Noraguhda istixana kimi bir yerdə saxladılar. Artıq 19 nəfər idik. Hər gün səhər, günorta, axşam və istədikləri vaxt müxtəlif işgəncə payı verirdilər. Orada da neçə gün qaldığımı xatırlaya bilmirəm. Martın 14-də məni Ağdam qəbirstanlığında dəyişdilər. Onlar tərəfdən Karen, biz tərəfdən rəhmətlik Allahverdi Bağırov idi. Üç gün inanmadım ki, valideynlərimin yanındayam. Elə bilirdim yuxudur. İndi də sağ qalmağıma təəccüblənirəm. Mənə yaşadılmış işgəncə hər gecə yuxuma girir».

***….Xəzərin sahillərinə pənah gətirmiş kədərin duman kimi bürüdüyü Azadın dalğın gözlərinə baxmaq və çox sevdiyim dənizin bu dəfəki amansız, soyuq küləyindən tir-tir əsən, taleyin onlarla oyun oynadığı bu Xocalı sakininə yenidən acı yaşatmağımdan sarsılmışdım. Məni və səni sarsıdanlar Tanrının cəzasına varsın, Azad.***

---



Quliyev Azad Zahid oğlu indi Bakı Baş Tikinti İdarəsinin 2 saylı evtikmə kombinatının Pirşağıdakı pansionatında qalır. Tel: (050) 329-23-12

## GÖYDƏN GÜLLƏ YAĞIŞI YAĞIRDI



**ƏBDÜLOV CEYHUN KAMİL OĞLU**

Təvəllüdü: 12 aprel 1978-ci il
Doğulduğu yer: Xocalı

«... Saat 9 olardı. Anam çörək bişirirdi. Atam istehkamların birində döyüşdə idi. Atam tez-tələsik evə gəldi, dedi ki, əvvəlki vaxt deyil, evdə oturmaq olmaz. Yığışın Təvəkkülgilin tunelinə! Xocalı çoxdan bəri atəşə tutulduğundan qonşumuz rəhmətlik Təvəkkül əmigilin həyətində tunel qazmışdılar. Anamla tunelə getdik. Qonşularımız Sahibə xala – oğlanları Zahid, Mahir; Fazilə xala - oğlu; Səxlət xala - oğlu Amil, qızı Matı – əsil adı başqa idi, ancaq Matı deyirdilər. 5-6 yaşı olardı. Və başqa qonşularımız tuneldə idi. Ağdamdan gəlmiş bir neçə könüllü də vardı. Gecə saat 12-1 radələrində Ağdamdan gəlmiş könüllülərin köməyi ilə rəhmətlik – Ələsgər müəllimgilə getdik. (Azərbaycanın Milli Qəhrəmanı Ələsgər Novruzov – Ə.X.) Onların evini atəş az tuturdu. Həm də tuneldən isti idi. Ələsgər müəllimgilin evi Bozdağ tərəfə yaxın idi. O tərəfdə dəhşətli uğultu var idi. Sən demə, tanklar şəhərə soxulurmuş. Biz də xəbərsizik. Döyüşün lap şiddətli vaxtı qardaşım Eldəniz gəldi ki, nə oturmusunuz, artıq şəhəri ermənilər mühasirəyə alıb. O, açarı anamdan alıb, evdən sənədlərimizi götürməyə qaçdı. Gələndə qapımızı bağlamamışdı. Artıq qapını bağlamağın əhəmiyyəti yox idi. Ələsgər müəllimgilin evini tərk etdik. Gecəyarı idi. Yəqin ki, saat iki olardı. Daldalana – daldalana üç mərtəbəli binanın zirzəmisində 1-2 saat gözləməli olduq. Çünki atışma o qədər şiddətli idi ki, hərəkət etmək mümkün deyildi. Göydən güllə yağışı yağırdı. Qranatların partlayışından adam dəhşətə gəlirdi. Snaryadın uğultusu vahimə yaradırdı. Xocalı od püskürürdü. Gecə təxminən saat dörd radələrində zirzəmini tərk edib yeganə açıq yol olan Qarqar çayına yaxınlaşdıq. Sonralar məlum oldu ki,

ermənilər bu yolu qəsdən açıq qoymuşdular. Çayı keçib Naxçıvanikə sarı üz tutduq. Orada da bizi pusqu gözləyirmiş. Bu barədə sonra. Çayın kənarında əmimgillə rastlaşdıq. Eldəniz ayaqlarını soyunub atamı, anamı, bir də məni çaydan keçirdi ki, ayağımız su olmasın. Axı şaxta idi… Meşəyə girdik. Kətik meşəsinə. Bilmirəm saat neçə olardı. Meşədən qaz borusu çəkilmişdi. Ona snaryad dəymişdi, yanırdı. Çayda suya batmış çox adam o qazın istisinə qızınırdı. Elələri var idi ki, yollarını davam etdirmədilər. O qaz borusundan yanan alovun başında qaldılar. Oranı təzəcə adlamışdıq ki, Allahverdi kişi öldü. Hələ yolda oğlu ilə nəvəsi onu zorla aparırdı. Getmək istəmirdi. Deyirdi ki, siz gedin, onsuz da bu zülmdən qurtara bilməyəcəm. Hirslənirdi, qışqırırdı, amma oğlu ondan əl çəkmirdi. Allahverdi kişinin ürəyi partladı. Çəliyi də əlində Kətik meşəsində qaldı…

Bir az hava işıqlananda müəyyən adamları tanıdım. Sinif yoldaşım Ramini gördüm. Montyor İbrahimin oğlu idi. Gedə-gedə bir az söhbət eləmişdik ki, şiddətli atışma başladı. Ramildən ayrı düşdüm. Atamdan, qardaşımdan da. Anam yanımda idi. Bir BTR camaatın içərisinə girib sanki qabağına qatıb qovmaq istəyirdi. Üstündəki saqqallılar pulemyotla camaatımızı biçirdi. O vahiməni, sarsıntını təsvir etmək olmur. Hamı qaçır, hamı qışqırır, hər yan meyit, insanların çoxunun üzü qan, heç nə düşünə bilmirsən. Nə etdiyini, hara qaçdığını belə bilmirsən, təkcə canını qurtarmaq istəyirsən. Yaxın məsafədən qurulmuş BMP-lərdən atılan snaryadlar birdən-birə 15-20 nəfəri yerə sərirdi. Bu atışmada anamdan da ayrı düşdüm… İndi Sumqayıt polisində işləyən Bəxtiyar, qardaşı İqbal, Bayram düşmənə müqavimət göstərirdi. Mən onların yanında yerə uzanmışdım. Aramsız döyüş gedirdi. Onlar buşlatlarını çıxarıb atmışdılar ki, çevik hərəkət edə bilsinlər. Buşlatın cibindəki patronları çıxarıb hazır tuturdum ki, kimin pulemyotunun maqazini boşalsa tez doldurum. Bir az aralıda Ağdamdan gəlmiş könüllülər – Məzahir, Zamin, çekist Bəhmən, onlardan da bir az o tərəfdə rəhmətlik Aqil Quliyev (Azərbaycan Respublikasının Milli Qəhrəmanı – Ə.X.) dəstəsinin uşaqları döyüşürdü. Bu müqavimət olmasaydı, heç bir nəfər Xocalı sakini o qırğından xilas ola bilməzdi. İqbalı vurdular.

Güllə elə dəydi ki, heç səsi çıxmadı. Onun buşlatını və avtomatını özümlə götürdüm. Onun avtomatı AK-72 idi. Xocalıda çoxdan döyüş getdiyindən qardaşım Eldəniz silahla davranmağı mənə öyrətmişdi. Fikirləşdim lazım olar. O döyüşdə Bəxtiyar da yaralandı. Mən artıq asfalt yolu keçmişdim. Heç yadımdan çıxmır. Xocalı sakini balaca qızını belinə bağlamışdı. Özü də yaralanb yerə sərilmişdi. Yalvarırdı ki, onun qızına kömək edək, özümüzlə aparaq. Elə orada çiynimdən yaralandım. Bir az getmişdim ki, sağ biləyimdən də yaralandım. Artıq hərəkət edə bilmirdim. İqbalın buşlatının üzərində uzanmışdım. Səhər saat 8-9 olardı. Atışma səngimişdi. Anam axtarıb məni tapdı. Əvvəl yaralarıma qar qoyub qanı kəsdi. Sonra da başındakı yaylığı açıb yaralarımı sarıdı. Anama nə qədər eləyirdim çıx get, getmədi. Yanımızda Xankəndindən qaçqın düşmüş ana-bala – Güllü xala və oğlu Şöhrət də yaralanaraq yerə uzanmışdı. Güllü xala çiynindən, oğlu qarın nahiyəsindən yaralanmışdı. Güllü xala öləcəyini bilib yanında olan pul torbasını yandırdı. Həyatımda birinci dəfə pul yanarkən görürdüm. Puldan nə qədər qara tüstü çıxarmış… Artıq axşam idi. Saat 5-6 olardı. Ağdamla aramız heç bir kilometr də olmazdı, 700-800 metr olardı. Ancaq bu yolu qət edəcəyimizə ümid yox idi. Anama yenə yalvardım ki, sən get, qurtul! Bu dəm sarı forma geyinmiş iki erməni bizə yaxınlaşdı. Rusca qışqırdılar ki, avtomatını bizə sarı tulla. Avtomatı özümdən bir az kənara atdım. Onlardan biri istədi ki, bizi güllələsin. O biri qoymadı. Ermənicə dedi: «Onsuz da öləcəklər, patronuna heyfin gəlsin». Avtomatı götürüb getdilər. Bir az keçmiş qara formada dörd erməni bizə yaxınlaşdı. Güllü xala onlara ermənicə söydü. O, erməni dilini bilirdi. Güllü xalaya da, oğluna da hərəsinə sayıb 15 güllə vurdular… Anam nə qədər pul, qızıl vardısa, hamısını onlara verib yalvardı ki, bizə toxunmasınlar. Pulu götürdülər, bizə toxunmadılar. Dedilər, sizdən pul götürdüyümüzü heç kimə deməyin. Bizi gətirib Naxçıvanikdə başqa dörd erməni yaraqlısına təhvil verdilər. Biz uzanıb qaldığımız yerdən 300-400 metr aralanmışdıq, xocalılı Tofiq kişinin qızı Sevincə rast gəldik. Onun 15 yaşı vardı. Anam yalandan dedi ki, mənim qızımdır. Naxçıvanikdən bizi kamaz maşınında Əsgərana apardılar. Meşədən hələ də atışma səsi gəlirdi…

Əsgəran polis bölməsinə gətirildik. Su istədim. Erməni gözətçisi şüşə butılkada su gətirdi. Susuzluqdan ciyərim yansa da, suyu içməyə qorxdum. O, özü içdi və dedi qorxma, iç. Bizi Əsgərandan Xankəndinə Norik adlı bir erməni apardı. Onun atası Karlen əsir düşmüşdü. O, bizi aparırdı ki, atası ilə dəyişdirə bilsin. Norik bizimlə pis rəftar etmirdi. Babası Sərgiz kişi də bizimlə mehriban davranırdı. Bu erməni qocası deyirdi ki, ermənilər hər dəfə torpaq üstündə qırılır. Mənasız müharibədən bezmişik. Sərgiz kişi sonra bildi ki, anam Cəmillidə otur-dur elədiyi Mürsəl kişinin qızıdır. O, hey erməni silahlılarını söyürdü. Arvadı Roza isə çox murdar idi. Bizə nifrətlə «törk» deyirdi. Orada anam  yaramı yodla təmizləmək istədi. Gödəkçəm əynimdən çıxmırdı. Qolum şişmişdi. Gödəkçəni əynimdə doğradılar. Sonra anam yaralarımı təmizləyib bağladı. Sərgiz kişigildə bizdən başqa da bir əsir var idi. Adı Qafar idi.  Malıbəyli kəndindən.

Bir neçə gündən sonra Sərgiz kişigil yaraqlılarla danışıq aparıb anamı buraxdırdılar ki, anam da Bakıda həbsdə olan Karleni bizimlə dəyişməyə kömək etsin. Anamı Əsgərana gətirdik. İki özbək əsgəri və bir neçə erməni saqqallısı anamı neytral zonaya  - Ağdama ötürdülər. Anamı yola salmağa mən də getmişdim. O, hey dönüb mənə baxırdı.

Bizim – Sevinc, Qafar kişi və mənim əsirlikdən qurtarmağımızda anam müstəsna rol oynadı. Gecə-gündüz döymədiyi, açmadığı qapı qalmayıb. Nəhayət, Karleni tapıb bizimlə dəyişdirə bildi. O günü heç unuda bilmərəm. Erməni uşaqlarına qoşulub meşəyə getmişdim. Məqsədim 1-2 dəfə meşəyə getdikdən sonra uşaqları azdırıb qaçmaq idi. O meşələri, dərələri əla tanıyırdım. Təxminən bir neçə gündən sonra Sərgiz kişinin tüfəngini götürüb qaçmağı planlaşdırmışdım ki, anam Bakıdan zəng vurub. Həmin vaxt mən meşədə olmuşam. Anam yaman narahat olubmuş. Deyib əgər oğlum Ceyhun sağ olmasa, oğlunuz Karleni verməyəcəm. Karlen 7-8 ay əvvəl tutulmuşdu.

Nəhayət, martın 28-i Norik bizi Əsgərana gətirdi. Ştabda danışıqlar aparıldı. Evdən səhər tezdən çıxmışdıq. Artıq gün-günortanı çoxdan keçmişdi. Biz Norikin dostunun kamaz maşınının yük yerində oturmuşduq. Norik bizim ac olduğumuzu bilirdi. O, ştabdan iri bir çörək parçası və əl içi boyda donuz salı götürmüşdü

ki, bizə versin. Dörd tərəfdən üstünə cumdular ki, sən türklərə çörək verirsən? Norik qorxusundan dedi ki, yox, özüm yeyəcəm. O, çörək əlində maşının kabinəsinə oturdu. Maşın Ağdama – neytral zonaya sarı səmt aldı. Orada bizi dəyişdilər».

***...İnsan heç vaxt alın yazısından qaça bilmir. Və bu yazının əski əlifba kimi əvvəli sonundan oxunursa, deməli bəla Tanrıdan yox, onun bəndəsindən gəlib.***

---



Əbdülov Geyhun Kamil oğlu
indi Bakı şəhəri, Baş Tikinti
idarəsinin 2 saylı evtikmə
kombinatının pansionatında
qalır.
Tel: 551-56-51
(050) 379-03-79 (mob)

## SƏN DEMƏ, QORXU HƏR ŞEYƏ ÜSTÜN GƏLİRMİŞ



**MUSAYEV RAMİN**
**SƏLİM OĞLU**

Təvəllüdü: 30 avqust 1977-ci il
Doğulduğu yer: Xocalı

---

«Həmin gün səhərdən bir xeyli atışma oldu. Həmişəki kimi. Axşama yaxın səngidi. Axşam 9-da atışma yenidən şiddətləndi. Atam həyətimizdə iri panelləri düzüb, torpağı da altdan qazıb tunel fason yer düzəltmişdi. Şiddətli atışma olanda həmişə o tunelə girirdik. İndi də tunelə doluşduq. Qonşularımız Zinyət xala, Hüseyn dayı, Qaraş dayıgilin ailəsi də tuneldə idi. Gecə saat 12-yə kimi tuneldə qaldıq.

Atışma kəsmirdi. Uğultu var idi. Dayım Tahir gəldi ki, ermənilər hər tərəfdən hücuma keçib. Tuneldə qorunmaq artıq mənasız idi. Zinyət xala ilə Hüseyn dayı tuneldə qaldılar. Biz tuneldən çıxdıq. Elə bil səhər idi. Ermənilər fişəng atırdılar ki, fişəngin işığında Xocalı sakinlərini qırsınlar. Düz asfalta çıxdıq. Gizlənməyə yer də yox idi. Divarların dibi ilə daldalana-daldalana gedirdik. Yağış kimi yağan güllənin altında üz tutduq Qarqar çayına. Çayı keçdik. Kətik meşəsinə girdik. Hündür dağ vardı. O dağı qalxırdıq. Dağın təpəsinə çatmağa az qalmış ermənilər təpədən bizi atəşə tutdular. Camaat üzü aşağı qaçmağa başladı. Özümü saxlaya bilmirdim. Ağaca çırpıldım. Elə orada güllə ayağıma dəydi. Ayağımdan yüngül yara aldım. Ağrı hiss etmirdim. Axan qanı da hiss etmirdim. Sən demə, qorxu hər şeyə üstün gəlirmiş. Bir məqamı da heç unuda bilmirəm. Özünü güllədən qorumaq üçün 13 yaşlı bir uşaq qadın meyitinin altında gizlənir. O uşaq mən idim. Meyitdən də qorxmurdum. Bizə tək-tək güllə atmırdılar. Pulemyotlarla biçirdilər. Xeyli ölən, itən oldu. Camaat dərənin dibinə yuvarlanırdı, tökülürdü. Çünki müvazinətlərini saxlaya bilmirdilər. Dərənin dibini güllə tutmurdu. Orada bir saata yaxın dincəlib yola düşdük. Duman idi. Bir xeyli gedəndən sonra məlum oldu ki, Ağdam əvəzinə, Xankəndi istiqamətinə getmişik. Geri dönəsi olduq. Hamı yorulmuşdu. Qarın üstünə çökdük. Atam 3 yerdə tonqal qaladı. Camaat bir az qızındı. Tonqalda ayağımı isidəndə çəkməmin altı əriyib dərimə yapışıbmış. Hiss etməmişəm. Səhərə yaxın yola düzəldik. Qarşıda bir dağ vardı. O dağı keçib bütün günü yol getdik. Gəlib br kəndə çatdıq. Kənd camaatı bizi Azərbaycan dilində çağırdı. Erməniləri də söydülər. Sevinirdik. Elə bilirdik canımız qurtardı. Birdən atışma başladı. Aslanov Telman yanımdaca öldü. Həmin kənddə Zəhra xalanın da ölümü yadımdan çıxmır. Güllə ağzından dəymişdi. Cınqırı da çıxmadı. Bizi orada əsir götürdülər. Dağın ətəyində hamımızı yerə uzadıb başımızın üstündən atəş açmağa başladılar. Sonra bizi fermaya gətirdilər. 60-70 nəfər olardıq. Bizə səhər-axşam 1 vedrə su, 1 vedrə də çiy kartof verirdilər. Bir dəfə bir erməni arvadı paltarının altında bir çörək gizlədib gətirmişdi. 2-3 gün meşə ilə yol gəlmişdik. 3-4 gün də fermada əsirlikdə idik. Həftə

ərzində yediyim çörək elə o oldu. Meşədə qar, kollarda quruyub qalmiş itburnu yeyirdim.

Fermada olanda iri bir ləyən gətirdilər. Dedilər ki, kimin nəyi varsa, töksün. Əgər kiminsə üstündən nəsə çıxsa, güllələnəcək. Hamı pulunu, qızılını, sənədlərini ora tökdü. Sonra ermənilər 12 və ya 13 nəfər Milli Ordu paltarında olan kişiləri bayıra çıxardı. Orada bir qadın vardı. Adını unutmuşam. Ağlayıb yalvarırdı ki, 5 oğlum olub. İkisi ölüb, üçünü də siz aparırsınız. Heç olmasa, birini mənə verin. Tüfəngin qundağı ilə o qadını itələdilər. Milli Ordu paltarında olanlar çölə çıxarılandan bir az sonra dayanmadan atəş açıldı. Bəlkə də 10 dəqiqə çəkərdi. İçəridəki əsirlər qışqırırdı. O ana bilmirdi nə eləsin. Ermənilər içəri girib dedilər ki, qışqırığı kəsməsəniz, hamınız güllələnəcəksiniz. Səhv etmirəmsə, fermada 2 ya 3 gün qaldıq. Orada baş verən bir əhvalatı da unuda bilmirəm. Bir qız vardı. 13-14 yaşı olardı. Qızın adını çəkməyəcəm. Onu ermənilər zorla çölə çıxardılar. Atası nə qədər yalvardısa, əllərindən ala bilmədi. Qızı bir azdan geri qaytardılar.... 13 yaşlı qızı vəhşicəsinə zorlamışdılar.

Bir neçə gündən sonra bizi fermadan çölə çıxardılar. Kişiləri bir cərgəyə, qadın və uşaqları da digər cərgəyə düzdülər. Atam bizdən ayrı düşdü. Məhluqə nənə qardaşım Teymurla məni öyrətdi ki, atanızın ayaqlarını qucaqlayıb onu buraxmayın. Ermənilərə deyin ki, ananız meşədə ölüb, heç olmasa atamızı buraxın. Elə də etdik. Atamı bizə tərəf itələdilər. 15 nəfər kişini isə saxladılar. Bizi sıraya düzüb Abdalgülablı tərəfə gətirdilər. Yolda quruyub, qaxaca dönmüş meyitlər görürdüm. Bir qadın yanında da bir uşaq meyiti vardı. Yəqin o qadının uşağı idi. Abdalgülablı kəndinə çataçatda bizi müşayiət edən erməni yaraqlıları geri döndü. İnanmırdıq. Elə bilirdik ki, arxadan atəş açacaqlar. Açmadılar. Gəldik Abdalgülablıya, oradan da Ağdama. Ayaqlarım tutulmuşdu. Bizi Bakıya gətirdilər. 3-4 ay yeriyə bilmədim. Memar Əcəmi metrostansiyası yanında bir xəstəxana vardı. (hərbi hospital – Ə.X.) Orada ayaqlarımı dizdən aşağı sarıdılar. Əvvəl ayağımı kəsmək istədilər. Sonra bu fikirlərindən daşındılar. Xeyli müalicə aldım. Dizlərim üstə gəzirdim. Gördüklərimi heç zaman unutmayacam. Hamını Allah yaradıb. Allahın yaratdığı

insana qarşı ermənilərin törətdikləri vəhşiliklərə nə ad vermək olar? Gunahımız nə idi? Nifrət edirəm ermənilərə!”

***...Bəzən insanı sevginin əksi - nifrət yaşadır. Görəsən, Tanrı kimi günahkar sayır: nifrət toxumunu səpəni, yoxsa nifrət edəni?***



Musayev Ramin Səlim oğlu indi Bakı şəhəri, Şərifzadə 196-da, eksperimental xəstəxananın həyətində yaşayır.
Tel: 434-16-62 (ev)
(055) 776-38-68 (mob)

## ...HƏLƏ DƏ YUXULARIMDA MEŞƏ GÖRÜRƏM



**PAŞAYEVA TƏRANƏ SEVİNDİK QIZI**

Təvəllüdü: 1978-ci il 31 dekabr
Doğulduğu yer:Xocalı

«...Həyətimizdəki quyuda atam, anam, bacılarım Tünzalə, Yeganə və qardaşım Elşadla gizlənmişdik. Gözləyirdik atışma bir az azalsın, evə gedək. Atışma daha da möhkəmləndi. Meşəyə tərəf qaçdıq. Əvvəl çayı keçdik. Məni əmim Ələddin keçirdi. İkimiz də suya yıxıldıq. Boğazdan aşağı suyun içində idim. Ayaqqabılarımı da çay aparmışdı. Ayaqlarım yalın qaldı. Sonra corablarım da buz bağladı. Cırıldı, ayaqlarımdan çıxdı. İki gün yol getdik. Dağın başına qalxırdıq. Orada bizi atəşə tutdular. Təzədən dağın dibinə töküldük.

Bibim oğlu Mehdi ilə əl-ələ tutmuşduq. Oturmuşduq. Otura-otura sürüşürdük. Hamı otura-otura sürüşürdü. Ayaq üstə durmaq olmurdu. Yoxsa, üzü aşağı yuvarlanırdıq. Gecə dərənin dibində ocaq qaladılar. Yalın ayaqlarımı az qala ocağa soxurdum. İsti hiss etmirdim. Səhər tezdən yolumuza davam elədik. Acından ölürdüm. Üçüncü gün Dəhraz kəndi yaxınlığında girov düşdük. Girov düşəndə 19 yaşlı bibim oğlu Mehdini vurdular… Yerindəcə keçindi. Bizi iri bir evə gətirdildər. Bilmirəm pəyə idi, yoxsa xeyir-şər evi. Orada 11-12 nəfər cavan kişini, əmim Ələddini də seçib apardılar. Çöldə atəş səsləri eşidildi. Sabahkı gün nisbətən yaşlı kişiləri də seçdilər. 50-yə yaxın yaşı olan atam Sevindiyi də apardılar.

Bizi – qadınları, uşaqları Abdalgülablı kəndinə ötürdülər. Bizə əsirlikdə çiy kartof, bir də buğda verirdilər. Məni orada heç kim döymədi. Orada bir teşt gətirdilər. Əsirlərin qızıllarını, pullarını, sənədlərini ora yığdılar. Qadınların qulaqlarından sırğaları da açırdılar.

Yevlax xəstəxanasında bir-iki ay müalicə aldım. Yuxuda hey meşə ilə gedirəm… Ayılıram ki, yuxudu. Sevinirəm».

***…Bəzən sənə elə gəlir ki, «Bu dağların başı bir vaxt qar idi, ətəyində atam-anam var idi» misraları sənin üçün yazılıb.***

---

Paşayeva Təranə Sevindik qızı indi
Goranboy rayonu, Aşağı Ağcakənd
qəsəbəsi, mənzil 338-də qalır. İki
uşaq anasıdır.
Tel: (+02-234) 74-4-72

# ƏLLƏRİM DONMUŞDU



**ƏLİYEVA ARZU VİTALİ QIZI**

Təvəllüdü: 28 iyul 1987-ci il
Doğulduğu yer: Xocalı

«… Anama güllə dəyəndə qorxdum. Ağladım. Anamın ayağından qan axırdı. Onun ətəyindən yapışmışdım. Anama kimsə kömək edirdi. Sonra meşədə sürünməyimiz yadıma gəlir. Atam da sürünürdü. Qardaşlarım Ramil, Amil, Raman da sürünürdü. Ermənilərdən qorxurduq. Əllərim donmuşdu.

Atamın belində olmağım da yadımdadır. Qollarımla onun boynuna möhkəm sarılmışdım ki, yıxılmayım».

***Hamının ayaqları, bapbalaca Arzunun əlləri dondu o gecə… Yadında donmuş əlləri qalıb…***



Əliyeva Arzu Vitali qızı indi Naftalan rayonu, Qarabağ sanatoriyası,10-cu korpus, otaq 310-da qalır. Natamam orta təhsillidir.
Tel: (+02-55) 2-16-85

# «MEŞƏYƏ İNSAN GƏLİB»



**ƏHMƏDOVA ARİFƏ ARİF QIZI**

Təvəllüdü: 15 avqust 1987-ci il
Doğulduğu yer: Xocalı

«…Anamın belində olmağım yadımdadır. Sevinirdim. Elə bilirdim meşədə gəzirik. Qışqırmağa başladım: «Meşəyə insan gəlib». Atam tez ağzımı tutdu. Yenə qışqırmaq istəyəndə vurdu. Ağladım. Dedi ki, sən səs salsan, ermənilər gəlib bizi tutacaq. Əsir düşməyimiz yuxu kimi yadıma gəlir. Hamı bir evdə oturmuşdu. Orada pul kisəsi oğurlamağım isə elə bil indi bu saat baş verib. Hər şey olduğu kimi yadımdadır. Hamının pulunu alırdılar. Bir erməni arvadı, o həm də əsgər paltarı geyinmişdi. O, əsirlərdən pul kisəsini alıb, pulu içərisindən çıxarıb sonra tulladı. Kiminsə ayaqlarının altına düşən həmin kisəni sürünə-sürünə gedib götürüb paltarımın altına soxdum. Özümlə onu Ağdama da gətirmişdim. Bir də anam elə hey ağlayırdı. Başa düşmürdüm niyə».

***Qana susamışlar!!! Xocalı soyqırımını «meşəyə insan gəlib» sevinci ilə qarşılayan Arifədən utanın!!!***



Əhmədova Arifə Arif qızı indi Naftalan rayonu, Qarabağ sanatoriyası,10-cu korpus, otaq 32-də qalır. Natamam orta təhsillidir.
Tel: (+02-55) 2-11-28

# ELƏ BİL HƏR ŞEYİ YUXUDA GÖRMÜŞƏM



**SƏLİMOVA AYGÜN
ARAZ QIZI**

Təvəllüdü:1987-ci il 3 may
Doğulduğu yer: Xocalı

«Hər şey mənə yuxu kimi gəlir. Quru çörək yeyirdim. Buğda yeyirdim. O buğdadan cibimdə qalmışdı. Ata nənəmlə əsir düşmüşdük. Bilmirdim əsirik. Hamımız bir evdə otururduq. Yatmağa yer yox idi. Bibim uşaqları Lalə, Leyla, Elçin, Emil də orada idi. Onlarla oynamağım yadımda. Adam çox idi. Şəhla bibimin yaralanması elə bil kino kimi yadıma düşür. Bir də baxırsan, yuxuda görürəm bibim yaralandı. Tez ayılıram. Qorxuram. Ayrı adamların yaralanmağı yadıma gəlmir. Bir də bizi tankın üstünə çıxarıb gətirməkləri yadımda qalıb (əsirlikdən Ağdama tank üstündə aparılıb-Ə.X.). Xalam oğlu Elman da tankın üstündə idi. Bir də bir uşaq vardı. Xatırlaya bilmirəm kim idi. Orada əsirlikdə gəlib bizi döyəndə qorxurdum. Nənəmi də döyürdülər. Hamını döyürdülər. Hər şey mənə xəyal kimi gəlir. Elə bilirəm yuxuda görmüşəm».

***…«Gördüyüm yuxular girir yuxuma» misrasını sənə bağışlayıram, Aygün.***




Səlimova Aygün Araz qızı
indi Naftalan rayonu, Şirvan
sanatoriyası, otaq 463-də qalır.
1 saylı Xocalı şəhər məktəbinin
11-ci sinif şagirdidir.
Tel: (+02-55) 2-25-53

# MEYİT YÜKLƏYƏN OĞLAN



**ABIŞOV SƏMƏD BƏHMƏN OĞLU**

Təvəllüdü:1978-ci il 11iyun
Doğulduğu yer: Xocalı

«25 fevralda mən Qara Qaya postunda idim. Xocalı çoxdan mühasirədə idi. Ora vertolyotla da gediş-gəliş mümkün deyildi. Doğmalarım - ailəmiz Xocalıda idi. Ürəyim partlayırdı. Neçə vaxtdan bəri posta qaçırdım ki, evimizə gedim. Mümkün olmurdu. 25 fevralda Xocalı od tutub yanırdı. Bilmirdik nə edək. Səhərə yaxın qaçan adamlar gəldi. Bilirdik ki, Xocalıda qırğın olub. Camaata kömək etmək üçün Ağdamdan könüllülər, Milli Ordu əsgərləri, Xocalıdan Əli, Rasim, Turan, Zakir, Qara və başqa yadımda qalmayan adamlarla köməyə getmişdik. 27-si fevral bütün günü meyit yığdıq. Meyitləri maşınlara yükləyirdik. Tanıdığım meyitlər vardı. Şirxan dayımın beynini dağıtmışdılar. Kamilin qızı donmuşdu. Tahirin meyitini yandırmışdılar. Sinif yoldaşım Tapdığın ata-anasının meyiti dəhşətli idi. Baş-beyinləri dağılmışdı. Onları da maşına yüklədik».

***...İnsanlar, siz deyin, dünyada belə bir peşə varmı? Yoxsa, bu «peşəni» bizə «öyrədənləri» niyə mühakimə etmirsiniz?***



Abışov Səməd Bəhmən oğlu
indi Naftalan rayonu, Qarabağ
sanatoriyası, 10-cu korpus,
otaq 217-də qalır. Xocalı polis
bölməsində işləyir.
Tel: (+02-55) 2-27-04

# «MƏN HAMINI İTİRDİM»



**ƏLİYEV MEHDİ FİRDOVSİ OĞLU**

Təvəllüdü: 1988-ci il 4 fevral
Doğulduğu yer: Xocalı

«...İsmayıl babamın belində getməyimizi xatırlayıram. Hey gedirdik. Babam deyir ki, atışma düşəndə məni belindən açıb kolun dibində gizlədib. Sonra babamgili əsir götürüblər. Mən elə kolun dibində qalmışam. Baba, baba deyə qışqırmışam. Ermənilər babamı güllələmək istəyirlərmiş. Babam deyib: «O qışqıran nəvəmdi, qoyun gətirim, sonra məni güllələyin». Erməni deyib: «Əgər o, sənin nəvən olsa, hamınızı buraxacayıq, yoxsa hamınız güllələcəksiniz». Məni gətiriblər. Əsirlərin hamısını buraxıblar. Bunun şahidləri çoxdur.

Yadıma gəlir ki, orada mənə süd verirdilər. Babam qoymadı içəm. Erməni südü özü içdi, sonra mənə verdi. Onda babam qoydu südü içməyə.

Xocalı soyqırımında atam Firdovsi, anam Heyranı, qardaşlarım Elçin, Eldəgizi və başqa qohumlarımı itirmişəm. Ailəmizdən qalan yeganə nümayəndəyəm. Təkəm. Bibim Rəhiləgildə yaşayıram».

***Ermənilərin Tanrı payından – ailəsiz yaşamağa məhkum etdiyi bu körpəyə edilən günahları dünyanın bütün suları yumaz, qardaşım, bacım...***



Əliyev Mehdi Firdovsi oğlu
İndi Goranboy rayonu,
Aşağı Ağcakənd qəsəbəsində qalır.

Tel: (+02-234) 74-7-20 (ev)
(055) 728-76-26 (mob)

## ANASININ SAÇLARINDAN QAN SÜZÜLƏN COCUQ

**ƏZİZOV SEYMUR İBRAHİM OĞLU**

Təvəllüdü: 1977-ci il 31 dekabr
Doğulduğu yer: Xocalı

«... Evdən gecə çıxdıq. Çaya tərəf gedən dəstəyə qoşulduq. Çayı keçdik. Meşə ilə bütün gecəni yol getdik. Səhər açıldı. Birdən şiddətli atışma başladı. Mənzurə xalanı öldürdülər. Bir qadın da vardı, tanımırdım, o da öldü. Bacım Vəsilə, mən, bir də bir qadın yerə uzanmışdıq. O qadın bacımla mənim aramda idi. Onu da başından vurdular. Yerindəcə keçindi. Anam da orada yaralandı. Uzanmışdı. Baxdım ki, saçlarının arasından qan süzülür... Heç nə demədi. Anamı qucaqlayıb ağlayırdıq. Kimsə bizi araladı. Vəsilədən də ayrı düşdüm. Asfalt yola çıxanda qardaşım Elmanla rastlaşdım. Yolu birgə keçdik. Bu zaman bir BTR düşdü dalımıza. Qardaşım Elmanla qaçıb canımızı qurtardıq. BTR-dən çoxlu adam olan yerə atəş açıldı. 8-9 nəfər birdən yerə sərələndi. Bir azdan qardaşım Elmandan da ayrı düşdüm. Kolların altında gizləndim. Səhər tezdən axşam saat 4-5-ə kimi kolların altında qaldım. Sonra Ağdamdan Milli Ordu əsgərləri gəlib məni tapdı. Milli Ordunun əsgərləri şərflərini açıb Xumar xalanın ayaqlarını sarıdılar ki, çoxlu qan itirməsin. Onu iki nəfər qucağına aldı. Bizi Şelliyə, oradan da Ağdama gətirdilər. Elə bilirdim ki, anamı da gətirəcəklər. Başının qanını qurudacaqlar...».

***Tankla iki körpəni qovanlar, Tanrının cəza payından tankla qaça biləcəksinizmi?***



Əzizov Seymur İbrahim oğlu indi Naftalan rayonu, Qarabağ sanatoriyası, korpus 14, otaq 23-də qalır.
Tel: (+02-55) 2-31-12 (ev)
(050) 665-06-88 (mob)

# QİSASI ALINNMAMIŞ KÖRPƏ



**ƏLƏSGƏROV AMİD TƏVƏKKÜL OĞLU**

Təvəllüdü: 1982-ci il 10 iyul
Doğluduğu yer: Xocalı

«…Yatmışdım. Gecə saat 11 olardı. Atışma başladı. Elə bildik həmişəki kimidir. Atışma güclənəndə həyətimizdəki «bombabejə» doluşduq. 1-2 saat orada qaldıq. Atışma səngimirdi. Sığınacaqdan çıxıb Ələsgər müəllimgilə getdik. Bir saata yaxın da onların zirzəmisində gizləndik. Atam Milli Ordunun könüllü üzvü idi. O, gəlib dedi ki, Xocalının mühasirəsi yarılıb. Ələsgər müəllimgildən beş mərtəbəli evə getdik. Orada da bir az qaldıqdan sonra tam aydın oldu ki, bu atışma o birisilərinə bənzəmir. Qarqar çayına üz tutduq. Məni çaydan atam keçirdi. Evdən çıxanda heç ayaqqabımı geyinə bilməmişdim. Yalın ayaq idim. Meşəyə girdik. Dikdən çönüb Xocalıya baxdım. Kənd məşələ dönmüşdü. Hər yan alov saçırdı.

Yolumuza davam etdik. Hər yan qar idi. Yerimək mümkün deyildi. Bələdçimiz xeyli yol gedəndən sonra bildirdi ki, səhv gəlmişik. Geri dönəsi olduq. Bu zaman Vaqif dayının ürəyi partladı. Yerə yıxıldı. Ailəsi - Afilə müəllimə və uşaqları – Azər, Ceyhun, Niyamaddin Vaqifin meyitinin üstünə yıxıldılar. Dəstə bir az onları gözlədi. Onları meyitdən ayıra bilmədilər. Afilə müəlliməgil ailəlikcə orada qaldı. Onlardan hələ də xəbər yoxdu.

Yolumuza davam etdik. Səkkiz yaşlı Səadətə anam kömək edirdi. Mən özüm gedirdim. Səhər tezdən idi. Naxçıvanik yaxınlığındakı yola yaxınlaşırdıq. Yola 30-40 metr qalmış bir UAZ maşını keçdi. Heç üstündən 15 dəqiqə keçməmişdi ki, bir BMP asfalt yola çıxdı. BMP-nin üstündən, həm də Naxçıvanik istiqamətdən bizi pulemyot atəşinə tutdular. Atam kallonnanı mühafizə edənlərdən biri idi. O, bizim üstümüzə qışqırdı ki, siz qaçın. Biz Şelliyə sarı qaçdıq. O isə geri – dəstədəkilərə köməyə getdi. Yolda xəndək vardı. Çoxlu meyit qalaqlanmışdı. Qonşumuz Taleh iki

yaşlı uşağı qucağında yerə yıxılmışdı. Uşağın da qulağını qəlpə aparmışdı. Hamıya yalvarırdı ki, onun uşağını aparsınlar. Hərə öz hayında idi. Aslanov Telman əyilib uşağı götürmək istəyəndə elə oradaca vuruldu. O da yıxıldı onların yanına. 2-3 metr getmişdik ki, qonşumuz Həsənbala yaralandı. Həsənbalanın həyat yoldaşı özünü onun üstünə atdı. Onu da ağzından vurdular. Qadının ağzından qan fışqırırdı. Keçindi. Heç nə hiss etmirdim. Gördüklərimin dəhşət olduğunu dərk edəcək halda deyildim. Corablarım buz bağlamışdı. Ayağımın altından buzları kənar edib özümü rahatladım. Orada Sonavar xalanın qızı Hicranı, anası Zeynəbi vurdular. Sonavar özü də yaralandı. Anam, bacım Sədaqət, 12 yaşlı qardaşım Səxavətlə qaçırdı. Şiddətli atışmada Səxavət yaralandı. Yıxıldı. Yanından keçmişdim. Məni çağırmağa heyi olmamışdı. Anam onun yanından keçəndə var gücünü toplayıb onu səsləyib. Anam onu kürəyinə şəllədi. Səxavət al qan içində idi. O, anamın kürəyində, biz də yanında qaçırdıq. Güllələr az qala bizim saçlarımıza dəyib yerə tökülürdü. Dayım Qarakişi gəlib bizə çatdı. O, mənim kürəyimdən vurub əydi. Dik hərəkət etmək qorxulu idi. Anam Səxavət belində bir az süründü. Bacım Səadət də sürünürdü. Orada Məhruzə xalanı da öldürdülər. Şelliyə lap az qalmışdı. Oradan 5-6 nəfər silahlı köməyimizə gəldi. Onların da patronu qurtardı. Yol boyu ağ məktəbli köynəyimin döş cibində yığıb saxladığım patronları onlara verdim. Onlar bu patronla ermənilərin başını bir az qatdılar ki, dinc əhali Şelliyə adlaya bilsin. Bir neçə nəfər yolu keçmişdi artıq. Dayım Qarakişi də keçdi. Mən keçə bilərdim. Amma getmədim. Ürəyim arxada idi. Axı anamgil hələ gəlməmişdi. Onları gözləməyə başladım. İri bir ağ daş vardı. O daşın altında gizlənib ağlayırdım. Gördüm Fatma arvad dimdik gəlir. O, eşitmirdi. İki qız da gülə-gülə dimdik gəlirdi. İndi başa düşürəm ki, onlar o zaman havalanmışdı. Anam da qardaşım kürəyində bir az sürünəndən sonra dimdik ayaqüstə gəlməyə başladı. Anam Nuridə qardaşım Səxavətin meyitini kürəyində gətirib Şelliyə çatdırdı. Mənim anam qəhrəman anadı. Oğlunun meyitini belə atmadı. Şelliyə çataçatda Aqil Quliyevin dəstəsindən olan Çekist (bu, onun ləqəbi idi - Ə.X.) maşınla gəldi. Anamın kürəyindən Səxavəti ağlaya-ağlaya açdı. Dedi: «Bacı, bu körpənin qanını alacağam!!!».

Aqil Quliyevin dəstəsindən olan Məzahiri də tanıyırdım. Onun başını kəsmişdilər. Bədənini Ağdama gətirmişdilər. Ağdamda gördüm. Çekist, Məzahir, bir də Sahib üç dost idi. Onlar Xocalıda həmişə eyni

mövqedə döyüşürdülər. Hərdən biz uşaqlar da yanlarına gedirdik. Çekist də döyüşlərin birində şəhid oldu. Sonralar polisdə işləyən Sahib Xocalı soyqırımının 5-ci ildönümündə özünü tapança ilə vurdu. Üç dostun da nağılı belə bitdi. Hərdən elə bilirəm başımıza gələnlərin hamısı ya yalandır, ya da yuxuda görmüşəm».

***…Bəzən başa gələnlər ağıla gəlmir. Bəlkə bunun üçün xocalılar hər şeyi yuxu kimi yozurlar?***

---



Ələsgərov Amid Təvəkkül oğlu
indi Naftalan rayonu, Şirvan
sanatoriyası, mənzil 440-da yaşayır.
Tel: (+ 02-55) 2-12-21 (ev)
(055) 683-60-32 (mob)

## UŞAQLAR YATDIQLARI YERDƏ DONDULAR



**QULİYEVA ŞƏHLA**
**QARYAĞDI QIZI**

Təvəllüdü: 1976-cı il 13 may
Doğulduğu yer: Xocalı

---

«Gecə saat 11 idi. Evimizdə idik. Atam anamı və bizi - 13 yaşlı bacım Rəvanəni, 12 yaşlı bacım Nuranəni, 6 yaşlı qardaşım Şükürü və məni götürüb meşəyə qaçdıq. Səadət xalam və uşaqları – Nəbi, Sevinc, Roman da bizdə idi. Onlar da bizimlə meşəyə getdi. Meşədə azmışdıq. Ağdam əvəzinə Xankəndi tərəfə getmişdik. Səhərisi gün meşədə Sona xalanın, Həcər xalanın ailəsi ilə rastlaşdıq. Onlarla birgə getməyə başladıq. Yolda əmim Tahirin qılçaları tutuldu. Atam qardaşımın yanında qaldı. Biz dəstəyə qoşulub getdik. Bir az

getmişdik ki, Halay dayının arvadı Şərqiyyə xalanın ürəyi partladı. Öldü. 12 yaşlı bacım Rəvanə ondan qorxdu. Bacımın da ürəyi partladı. Rəvanəni də Şərqiyyə xala ilə yanaşı qoyub üstünü ağac şaxları ilə örtdülər… Anam bacımı qucaqlamışdı… Ayrılmaq istəmirdi… ….Yolumuza davam etdik. Anamın ayaqları tutuldu. Biz dəstədən ayrıldıq. 8 nəfər qaldıq. Xalam, uşaqları - Nəbi, Sevinc, Roman, mən, anam, bir də bacım Nuranə ilə qardaşım Şükür. Anamın ayaqlarının tutulduğu yerdə iki gün oturduq. Kibrit də yox idi ocaq yandıraq. Xalam uşaqları – Nəbi, Roman, Sevinc və qardaşım Şükür, bacım Nuranə qarın üstə yatdılar. Mən yata bilmirdim. Gözümə bir damcı yuxu gəlmirdi. Uşaqlar yatdıqları yerdə dondular… Xalam nə qədər eləyirdi onları oyada bilmirdi… Anam güclə nəfəs alırdı… Hələ sağ idi. Xalama yalvarırdı ki, Şəhlanı götür, get. Heç olmasa, siz xilas olun. Xalam razılaşmırdı. Donmuş uşaqlarını bir-bir qucağına alır, götürmək istəyir, gücü çatmırdı… Nəhayət o, başa düşdü ki, getmək lazımdır. Uşaqlarını, anamı dönə-dönə qucaqlayıb öpdü. Mən də anamı öpürdüm… Anam heysiz arxası üstündə uzanmışdı… Gözləri iri açılmışdı… Məni qucaqlaya da bilmirdi. Həm getmək istəyirdim, həm də istəmirdim. Anama dedim, getmirəm. Dedi: «Get qızım, böyük qardaşın Şakir tək qalmasın!» Hadisə vaxtı Şakir Xocalıda deyildi. Xalamla oradan uzaqlaşdıq. Tez-tez dönüb geri baxırdım. İki təpə aşdıq. Baxdıq adamlar var. Qorxduq. Kolun altında gizləndik. Milli Ordunun əsgərləri idi. Kətik meşəsində Xocalı camaatını axtarır, kömək edirdilər. Bizi Abdalgülablıya gətirdilər. Oradan da Ağdama apardılar. Vaqon xəstəxanada qaldıq. Sonra Bakıya – Mərkəzi Respublika Xəstəxanasına gətirildik. Mən 1-2 ay müalicə aldım. Xalamın ayaqlarını kəsdilər».

***Bu hadisəni övladlarınıza oxuyun. Onlar heç vaxt bu cür qorxulu nağıl eşitməyiblər.***



Quliyeva Şəhla Qaryağdı qızı
indi Naftalan rayon, Goran
sanatoriyası, korpus 16-da qalır. Üç
övladı var.
Tel: (+02-55) 2-15-63

# ÖLÜMDƏN TONQAL İŞIĞINA QURTARAN OĞLAN



**HƏMİDOV MÜBARİZ SABİR OĞLU**

Təvəllüdü: 1978-ci il 6 oktyabr
Doğulduğu yer: Xocalı

«… Evdə idim. Anam, qardaşlarım Müşviq, Eldəniz də evdə idi. Əmim, bibimgil də biz də idi. Saat 11-12 olardı evi tərk etdik. Qaçırdıq. Qarqar çayını keçəndən sonra anamla mən ayrı düşdük. Meşədə azdıq. 2-3 gün anamla meşədə qaldım. Sonra anamı itirdim… Meşədə tək tənha qaldım. 1-2 gün gecələr qorxurdum. Gecələr gecənin qaranlığından qorxurdum. Sonra heç qaranlıqdan da qorxmadım. Meşədə tək gəzib dolaşırdım. Bəzi yerlərdə topa meyitlərə rast gəlirdim. Meyitlərin bəzilərinin üz dərisini soymuşdular. Eləsi var idi, başını, qolunu kəsmişdilər. Döşü kəsilmiş qadın meyitləri görmüşəm. Qan izləri, ayaqqabı tayları, kol-kosa ilişmiş baş örtükləri, papaqlar – çox şeyə rast gəlirdim. Meyitlərin çoxunu tanımırdım. Qaçıb canımı qurtarmaq istəyirdim. Yolu tapa bilmirdim. Yorulanda qarın üstə ağzı üstə uzanırdım. Yarpaq da tapmırdım yeməyə. Qar yeyirdim. Susuzluğum keçmirdi. Günəşin şüası düşən yerdə qarı üzdən yığırdım ki, bir az sulu olsun. Meşədə neçə gün qaldığımı bilmirdim. Sonra bildim ki, meşədə 13 gün dolaşmışam. Bir dəfə paltoya bükülmüş uşaq meyitini açıb baxdım. Gördüm ki, bibim oğlu Vüsaldır. Firdovsi dayının, oğlu Elçinin də meyitinə rast gəldim. Elçinin əlində qurumuş çörək vardı. Çörəyi Elçinin donmuş əlindən zorla çıxarıb yedim…

Meşədən tonqal işığına sarı getməklə qurtara bildim. Baxdım uzaqdan tonqal yanır. O tərəfə getdim. Tonqalın yanına çatanda huşumu itirib yıxılmışam. Məni Ağdam xəstəxanasına apardılar. Ermənilər Ağdam xəstəxanasını gülləbaran etdikdən sonra iki gün vaqonda qaldım. Sonra məni ölmüş bilib, meyitlər olan vertolyota yükləyib Bakıya göndəriblər. Bakıda Semaşko xəstəxanasının meyitxanasında oyandım. Gördüm hər yanım meyitdir. Özüm də

onların arasında uzanmışam. Dəmiri taqqıldatdım. Gözətçi qapını açdı. Məni uşaq şöbəsinə köçürdülər. 2-3 ay müalicə aldım. Sağ ayağımın barmaqları kəsildi… Qapqara qaralmışdı».

***…Dirilən adam… Mübariz öldüyünü də, dirildiyini də öz gözləri ilə görmüş bir adamdır.***



Həmidov Mübariz Sabir oğlu
indi Naftalan rayonu, Şirvan
sanatoriyası, otaq 305-də qalır.
Tel: (+02-55) 2-22-26

## SAĞ QALAN YARALILARI BİR DƏ GÜLLƏLƏYİRDİLƏR



**ƏZİZOV ELMAN İBRAHİM OĞLU**

Təvəllüdü: 1974-cü il 27 iyul
Doğulduğu yer: Xocalı

«Evdə idim. Anam, 17 yaşlı bacım Nərgiz, 11 yaşlı bacım Rahidə, 13 yaşlı qardaşım Ramin, 16 yaşlı qardaşım Ramin, 15 yaşlı bacım Vəsilə də evdə idi. Əmim yoldaşı Nərgiz, əmim oğlu Qalib də bizdə idi. Atışma güclənəndə təxminən saat 11 radələrində evdən çıxıb Təvəkkül dayıgilə getdik. Evdə heç kim yox idi. Qonşuları Ələsgər müəllimgilə addadıq. Orada çoxlu adam vardı. Onların evi daldada idi. Güllə az tuturdu. Gecə saat 1 və 2 olardı oradan çıxdıq. Xocalıya artıq top

atılırdı. Beş mərtbəli evə getdik. Bir saata yaxın orada qaldıq. Oranı da tərk edəsi olduq. Fin evlərinin yanından keçib Qarqar çayına çatdıq. 11 yaşlı bacım Rahidəni kürəyimə alıb çayı keçirdim. Qardaşlarım, böyük bacım özləri keçdilər. Ayaqlarım dizə qədər islanmışdı. Donurdum. Meşədə də elə yer vardı ki, qurşağa qədər qarın içinə düşürdük. Səhərə qədər yol getdik. Naxçıvanik yaxınlığında atışma başladı. Mən dəstənin axırında idim. Dəstənin qabağında gedənlər pərən-pərən oldu. Qardaşım Seymurun əlindən tutub qaçırdıq. Asfalt yolu keçib Şelliyə çatmaq istəyirdik. Asfalt yolda bir BTR dalımıza düşdü. Bizi vurmurdular. İki uşağın qorxmağından sanki həzz alırdılar. Tez qaçıb yolu keçdik. 15-20 metr o tərəfdə bir dikə çıxdıq. Geri baxım gördüm ki, bacım Vəsilə ayaqüstə durub qaçmaq istəyir. Qışqırdım durma, sürün! Bu zaman atəş şiddətləndi. Vəsiləni gözdən itirdik. Seymur da yanmda yox idi. Tamam ayrı düşdüm. Hər yan meyit idi. Heç qorxmurdum da. Yəqin keyimişdim. Yanımda Tapdığı vurdular. Güllə başından dəymişdi. Can verirdi… Mən də durub üzünə baxırdım… Heç nə düşünə bilmirdim… Bayaq dediyim kimi heç qorxmurdum da. Həsənbalanın da meyiti yerdə idi. Arvadı Pərvanənin də. Xəndək meyitlə dolu idi. Ora meyit əlindən girmək mümkün deyildi ki, gizlənəsən. Meyitlərin üstü ilə getmək istəmirdim. Xəndəyə girmədim. Xəndəyin üstü ilə sürünürdüm. Dayım yoldaşı Nuridə də orada idi. Oğlu Səxavəti vurmuşdular. Belinə bağlamışdı. Bir azdan Zamini vurdular. Yerindəcə keçindi. 26-sı fevral axşama yaxın gəlib Şelliyə çatdıq.

Həmin döyüşdə anam Zərifə, dayım Təvəkkül, əmim Hüseyn, bibim qızı Rəsmiyyə, bibim oğlu Emin, dayım oğlu Səxavət, xalamın yoldaşı Araz öldürüldü.

Hərdən dəli kimi yerimdən qalxıram. Elə bilirəm yenə o gecədir. Yanımda bacım, qardaşım, anam, doğmalarım, göydən də güllə yağışı yağır. Adam cəhənnəm əzabı çəkir. Heç kimə arzulamıram bu əzabı. Salamat qaldığıma indi də inanmıram. 300 metr dikə çıxıb qırğın gedən meydana baxırdım. Meyit əlindən yer yox idi. Ermənilər meyitlərin arasında gəzirdilər. Pulemyotları da aşağı sallaqlı vəziyyətdə idi. Tez-tez atəş açırdılar. Sağ qalan yaralıları dübarə atəşə tuturdular… Ürəyim partlayırdı. Görünməmiş vəhşilik idi. Kömək

də edə bilmirdim».

***…Görünməmiş vəhşiliyin şahidləri! Nə qədər ki, bu şahidlər sağdır, onları dindirin, siz, ey insanlıqdan və humanizmdən danışanlar!***



Əzizov Elman İbrahim oğlu
indi Naftalan rayonu, Şirvan
sanatoriyası, otaq 150-də qalır.
Tel: (+02-55) 2-13-52 (ev)
(055) 671-57-25 (mob)
(050) 525-69-31 (mob)

## ATAMI ÖLMÜŞ BİLİRDİK, AMMA O QAYITDI…



**PAŞAYEVA TÜNZALƏ SEVİNDİK QIZI**

Təvəllüdü: 1975-ci il 11 mart
Doğulduğu yer: Xocalı

«… Xocalı çoxdan mühasirədə idi. Heç vertolyotla da əlaqə saxlamaq mümkün deyildi. Xocalı şəhərinin kənarlarında qurulmuş istehkamlarda könüllülər və Milli Ordunun əsgərləri gecə-gündüz keşik çəkirdi. Ancaq xocalılar öz evlərini tərk etmək istəmirdi. Paltarda yatıb, paltarda dururduq. Həmin gün atışma başlayanda həyətimizdəki quyuya düşdük. Atam öyrəndi ki, ermənilər şəhərə girib. Meşəyə qaçmalı idik. Əynimiz yalın idi. Evə qaçıb isti paltarlar götürmək istədim. Anam qoymurdu, çünki oranı güllə tuturdu. 17 yaşım vardı. Başa düşürdüm ki, bu əyin-başla qışın şaxtasında yol getmək olmaz. Anamın əlindən dartınıb evə cumdum. İsti çəkmələrimi geydim. Onlara da isti paltarlar götürüb aşağı düşdüm. Hətta atamın siqaretini də götürmüşdüm. Üz tutub meşəyə bütün gecəni yol getdik. Qışın şaxtası, gecə, meşənin vahiməsi, ölüm qorxusu,

təsəvvürə gətirilməyən dəhşətli bir gün idi. Dağı aşıb Ağdama tərəf getmək istəyirdik. İrəlidəki dəstə dağın başına çatanda onları atəşə tutdular. Dərə aşağı tökülməyə başladıq. Gülxar xalanın ayaqları donmuşdu, ayaqqabısız idi. Dabanlarından qan axırdı. Ona xeyli kömək etdim. Dərənin dibində ocaq qaladılar. Bir az isindik. Sonra yolumuza davam etdik. Telefonçu Gülşən heydən düşmüşdü. Gedə bilmirdi. Yəqin ki, ayağımda isti çəkmə olduğundan gücüm vardı. Onun qoltuğuna girdim. Hey deyirdi: «Tünzalə, qadan mənə gəlsin». Dəhraz kəndi yaxınlığında əsir düşdük. Bizi girov götürdülər. Əmim oğlu Mehdi orada öldürüldü. Kişiləri seçib apardılar. Əmim Ələddini, atam Sevindiyi də apardılar. Atam 54 gün əsirlikdən sonra qayıtdı. Biz onu ölmüş bilirdik. Əmim Ələddindən indiyəcən xəbər yoxdu. Ermənilər dayılarım Həmidi, Tariyeli də öldürdülər. Unuda bilmirəm o gecənin vahiməsini. İnsanların gözünə diqqətlə baxın. Xocalı faciəsini yaşamış hər bir kəs sarsıntı içindədir. Niyə görə indiyə qədər günahkarlar cəzalanmır?»

***…Bu sualı eşidirsinizmi: Niyə günahkarlar indiyə qədər cəzalandırılmayıb? Niyə?***

---



Paşayeva Tünzalə Sevindik qızı
indi Naftalan rayon, Goran
sanatoriyası, korpus 12, ev 8-də
qalır. İki övlad anasıdır.
Tel: (+02-55) 2-14-55

# EKRANDA ÖZ FACİƏMİZƏ BAXANDA ÜRƏYİM PARTLAYIR…



**PAŞAYEVA YEGANƏ SEVİNDİK QIZI**

Təvəllüdü: 3 yanvar 1982-ci il
Doğulduğu yer: Xocalı

«… Ailəmiz həyətimizdəki quyuda gizlənmişdi. Atəş kəsilmirdi. Atam xəbər gətirdi ki, ermənilər Xocalını alıb. Meşəyə getməli idik. Evimizi atəş tuturdu. Biz də yüngül paltarda quyuya doluşmuşduq. Böyük bacım Tünzalə qaçıb evdən paltarlarımızı gətirdi. Çayı keçdik. Atam məni çaydan keçirdi. Meşədə ayaqqabılarıma qar dolmuşdu. Ayaqlarım elə ağırlaşmışdı ki, yeriyə bilmirdim. Ayaqqabılarım ayağımdan çıxdı. Corabla qaldım. Bir azdan corabım da cırıldı. Növbə ilə gah atam, gah anam ayaqlarımı ovurdu. Atışma olan yerdə bibim oğlu Mehdi öldü. Anam əlimdən möhkəm-möhkəm yapışmışdı. Bizi əsir götürdülər. Kişiləri seçdilər. Əmim Ələddini birinci apardılar. Səhərisi gün atamı da apardılar. Atam 54 gündən sonra qayıtdı. Əmim gəlmədi. Xocalı faciəsinə televizorla baxanda ürəyim partlayır».

***…O ürək indiyədək duruş gətiribsə, deməli qisas gününü gözləyir.***



Paşayeva Yeganə Sevindik qızı indi Naftalan rayon, Goran sanatoriyası, korpus 12, otaq 8-də qalır.
Tel: (+02-55) 2-14-55

## NƏDƏNSƏ, ƏVVƏL BİZƏ HEÇ KİM İNANMIRDI



**ÇOBANOV SEYMUR TAPDIQ OĞLU**

Təvəllüdü: 18 dekabr 1980-ci il
Doğulduğu yer: Xocalı

«... Yuxarı evləri güllə tutduğundan çoxdan alt evdə yaşayırdıq. Həmin gecə də alt evdə yatmışdıq. Xocalının müdafiəsində olan atam qapını həyəcanla döydü. Ermənilərin Xocalıya girdiyini dedi. Elə ev paltarında hamımız çölə qaçdıq. Anam, 8 yaşlı bacım Nəzakət, 13 yaşlı qardaşım Teymur əvvəl məktəbin həyətinə gəldik. Qonşularımız da ora yığışmışdı. Məsləhət olundu ki, Ağdama qaçaq. Adamların çoxu nazik ev paltarında idi. Bütün gecəni yol getdik. Özüm gedirdim. Hərdən atam, hərdən anam, hərdən də dayım əlimdən tuturdu. Atam daha çox Nəzakəti qucağında aparırdı. Yerimək zülm idi. Naxçıvanikə yaxınlaşanda ermənilər bizi atəşə tutdu. Camaat pərən-pərən oldu. Atam Tapdıq, 8 yaşlı bacım Nəzakət öldürüldü. Mən xalam uşaqları Amin, Rahidlə qaçıb Şelliyə çatdıq. Şelliyə çatan ilk xocalılar idik. Əvvəl bizə inanmadılar. Sonra Xocalı faciəsindən əvvəl Şelli, bir azdan da Ağdam camaatı xəbər tutdu. İnsanlar dəstə-dəstə xocalılara köməyə gəlirdi. Arxadakı dəstədə dəhşətli qırğın olmuşdu».

***...Atası və bacısı gözləri qarşısında öldürülən cocuq, vətənin, elin, oban, uşaqlığın niyə viran oldu?***



Çobanov Seymur Tapdıq oğlu
indi Naftalan rayonu, Azərbaycan
sanatoriyası, otaq 232-də qalır.
Tel: (+02-55) 2-13-37
(055) 681-60-80 (mob)

# QUCAĞINDA KÖRPƏ TUTAN KİŞİ HEÇ YADIMDAN ÇIXMIR



**ƏSƏDOV ANAR YALÇIN OĞLU**

Təvəllüdü: 1981-ci il 4 sentyabr
Doğulduğu yer: Xocalı

«… Yatmışdıq. Dayım İntiqam qapını yumruqladı. Dedi ki, ermənilər şəhərə girib. Biz fin evlərində yaşayırdıq. Güllə dəyən saatı içəri keçirdi. Dayım 3 yaşlı bacım Nərgizi qucağına alıb bizi qonşuluqdakı daş evə apardı. Həmin evin alt mərtəbəsində 40-dan çox adam vardı. Xocalı alışıb yanırdı. Gözləməyin mənası yox idi. Hamı meşəyə tərəf yollandı. Bütün gecəni yol getdik. Əsgəran tərəfə çatanda gördük yolda tanklar var. Bizdən qabaqkı dəstəni qırmışdılar. Geri döndük. Dərəyə enib gizləndik. Dəstəmiz əsasən qadın və uşaqlardan ibarət idi. Bir neçə nəfər kişi vardı. Dərədə bizi mühasirəyə aldılar. Kişiləri seçib apardılar. Dayım İntiqamı da apardılar. Hələ ondan xəbər yoxdu. Sonra bizi gətirib Əsgəran körpüsündə bir saata yaxın qarın üstə uzandırdılar. Oradan da Əsgəran türməsinə apardılar. Təkcə bizim kamerada 40 adam vardı. Otağın pəncərəsini sındırdılar ki, soyuq olsun, türklər üşüsün. Hamı yerdə – betonun üstə oturmuşdu. Acından ölürdük. Bizdən 1 nəfəri aparıb, kəndin zibilliyindən ona çörək yığdırıb gətirdilər. Heç kim yemədi… Amma qapının ağzına qoyulmuş içində də pol əskisi olan vedrədən su verəndə içdik. Orada 5-6 gün qaldıq. Bir gün dedilər ki, Xocalının müdafiəsində qəhrəmanlıq göstərmiş Milli Ordunun əsgəri Vidadinin meyitini bizim kameranın qabağına atıblar. Başını kəsiblərmiş. Gecələr fanarla qadınların üzünə işıq salıb baxırdılar. Seçib aparmaq istəyəndə qadınlar getmirdi. Saçlarından tutub sürüyə-sürüyə aparırdılar.

Bizim kamerada bir kişi də vardı. Adı Dombay idi. Onun qucağında körpə uşaq olduğundan qadınların kamerasına salmışdılar.

Onu lap çox döyürdülər. Bir gün axşam gəldilər ki, dəstə 10 nəfərə bölünsün. Mən, anam, balaca bacım Nərgiz birinci onluqda UAZ maşınına mindirildik. Bizi iki zənci meyiti ilə dəyişdilər. Bizdən sonra daha 3 maşın kamerada qalan 30 nəfəri də Ağdam yaxınlığında əsir dəyişdirilən qəbirstanlığa gətirdilər».

***…Bəzən həyatı qəbristanlıqda dəyişirlər…sağ qalmaq üçün. İnsanlar uzun illər yaşayır, amma onların gözləri önündən qəbristanlıq getmir…***

---



Əsədov Anar Yalçın oğlu indi Naftalan rayonu, Azərbaycan sanatoriyası, korpus 12, otaq 23-də yaşayır.

## BƏLƏKDƏKİ «ŞAHİD»



**QURBANOV ZAUR ŞAİQ OĞLU**

Təvəllüdü: 1991-ci il 2 dekabr
Doğulduğu yer: Xocalı

---

Təbii heç nə xatırlamır. … Anası Qurbanova Bəstinin dedikləri: «Gecəyə yaxın idi. Atışma çox şiddətləndi. Evin zirzəmisinə düşdük. Zaur da qucağımda idi. Kimsə bir qadın gəldi ki, Xocalı artıq alınıb. İnanmadıq. Qadın söhbəti sandıq. O qadının qucağında iki körpə uşağı vardı. Heç bilmədim necə oldu. Bacım oğlu Yaşar bizim arxamızca gəlmişdi. Zirzəmidən çıxdıq. O, bizə kömək edib Qarqar çayını keçirdi. Millət dolu idi. Meşə ilə gecəni yol getdik.

Sübh tezdən atışma düşdü. Bacım oğlu Yaşarı atışma zamanı itirdim. Zaur qucağımda, böyük oğlum – 6 yaşlı Ruslan da yanımda idi. Biz dəstənin axırında idik. Uşaqlarla bir yarğanda uzandıq. Oranı güllə tutmurdu. Axşam qaş qaralana qədər yarğanda qaldıq. Zaur ağlayırdı. Kiridə bilmirdim. Ağzını yumurdum ki, səsi çıxmasın. Həm də qorxurdum ki, boğaram. Ac idi. Əmziyinə tüpürüb ağzına qoyurdum. Bir az əmib sonra yenə başlayırdı ağlamağa. Onun səsini ermənilərin eşidəcəyindən çox qorxurdum. İncəvara cibimdə bir qənd parçası vardı. Ağzımda isladıb əmziyi qəndə sürtdüm. Zaurun ağzına qoydum. Uşaq yatdı. Allah saxlayanda, saxlayır».

***…Amma Allahın verdiyini və qoruduğunu bəndə qorumursa, bu Tanrıya qarşı çıxmaq deyilmi?***



Qurbanov Zaur Şaiq oğlu
indi Naftalan rayonu, Şirvan
sanatoriyası, otaq 112-də qalır.
Tel: (+02-55) 2-24-25

## ƏKİZ ŞAHİDLƏR



**ABIŞOV İLKİN BƏBİR OĞLU**
Təvəllüdü: 1 may 1990-cı il

**ABIŞOV ELVİN BƏBİR OĞLU**
Təvəllüdü: 1 may 1990-cı il
Doğulduğları yer: Xocalı

Bu ekiz qardaşlar nəsə xatırlaya bilərmi? Anaları Abışova Zülfiyyə Baxış qızı deyir: «… Fevralın 25-də evdə idik. Atışma şiddətlənəndə qonşumuz Yelmargilin zirzəmisində gizləndik. Zirzəmidən səhərə yaxın çıxdıq. Kətik meşəsi ilə Ağdama getmək

istəyirdik. İmkan olmadı. Beşmərtəbəyə doluşduq. Axşam oradan çıxa bildik. Ermənilər binanı aramsız atəşə tuturdular. Bizim müdafiəçilər beşmərtəbənin damında mövqe tutduğundan ermənilər binaya girib bizi tuta bilmirdilər. 150-200 nəfər, bəlkə də daha çox idik. Əksəriyyət qadın, uşaq, qoca idi. Axşama yaxın ermənilərin atəşi səngidi. Elə bu zaman beşmərtəbəni tərk edib meşəyə sarı qaçdıq. Çayı keçdik. Ekiz körpələrimdən İlkini mənim, Elvini isə 66 yaşlı ata nənəsi Səkinənin kürəyinə şəlləmişdik. Həyat yoldaşım Bəbir 76 yaşlı qaynatam Əlini gətirirdi. Meşədə olduğumuz birinci gecə qaynatama güllə dəydi. Yoldaşım üstünə ağac şaxları yığdı. Qaynatamın meyitini martın 19-da ala bildik. Yadımdadır, Bəbir qaynatamla bərabər martın 19-da 36 meyit gətirmişdi. Hamısı da yaman gündə. Qaynatam şəhid olandan sonra yoldaşım Elvini qaynanamdan aldı. Yazıq arvad güclə yeriyirdi. Uşaqlar ağlayırdı. Kiridə bilmirdim. Hərdən ağızlarına qar qoyurdum. Yedizdirə də bilməzdim. Əvvəlla, dəstə bizi gözləməzdi, ikincisi də onları kürəyimizə ancaq sarımışdıq…

Şelliyə çataçatda yolu keçmək istəyəndə bizi pulemyot atəşinə tutdular. Əyilə-əyilə, sürünə-sürünə keçirdik ki, yağış kimi yağan gülılədən canımızı qurtaraq. Orada yoldaşım dinc əhalinin Şelliyə keçməsini təşkil etdiyindən Elvini bir anlıq qucağından yerə uzatdı. Bir də baxdım uşaq ayaq üstə durub. Qışqırdım. Yoldaşım tez tüfəngin qundağı ilə onun sinəsindən vurub yerə sərdi ki, ermənilər uşağı nişan almasın.

Həmin döyüşdə qaynım Kamil, qohumumuz Bəxtiyar, Şöhlət ağır yaralandı. İlkin yox, Elvin ağır xəstələndi. Onu düz 3 il müalicə edəsi olduq. Körpələrin sağ qalması möcüzə oldu».

***…Bizim millətin də möcüzələri belə olur. Bizim möcüzələrimiz də faciə içərisindən çıxır.***

---



Abışov İlkin Bəbir oğlu, Abışov Elvin Bəbir oğlu indi Goranboy rayonu, Aşağı Ağcakənd qəsəbəsi mənzil 159-da qalırlar. Xocalı şəhər 4 saylı orta məktəbin 11-ci sinfində oxuyurlar. Tel: (+02-234)74-7-37, (050) 353-97-98

# HƏTTA MEYİTLƏRİN BAŞLARINI DA SOYMUŞDULAR



**ƏZİZOV TACİR MƏHƏR OĞLU**

Təvəllüdü: 3 sentyabr 1982-ci il
Doğulduğu yer: Xocalı

«… 25 fevral saat 11 olardı. Möhkəm atışma başladı. Əvvəl elə bildik həmişəki atışma kimi olacaq. Evin zirzəmisinə düşdük. Ana babam Məhiyəddin gəldi ki, ermənilər Xocalıya giriblər. Qaçmaq lazımdır. Gecə saat 1 və ya 2 olardı. Bizim ailə, bir də qonşumuz Qüdrət müəllimgil beşmərtəbənin zirzəmisinə getdik. Bütün gecəni fevralın 26-sı axşama kimi orada qaldıq. Ermənilərin başı Xocalının qarətinə qarışmışdı. Binanın damından baxıb görürdük ki, xocalıların evlərindən mebelləri, xalçaları, soyuducuları və başqa ev əşyalarını daşıyıb maşınlara yükləyirdilər. Beşmərtəbədən çıxdıq. Qarqar çayını keçdik. Kətik meşəsinə girdik. Məni çaydan ata babam Əkbər keçirdi. Onun ayağı islanmışdı. Yeriyə bilmirdi. O, çox yorğun idi. Dəstənin axırında gəlirdi. Bir də çöndük ki, artıq babam yoxdur. Görünmür… Gedirdik. Qardaşım Elməddin ağlayıb çörək istəyirdi. Atam ona hey acıqlansa da, susmurdu. Mən böyükdüm. Başa düşürdüm ki, biz qaçırıq. Çörəyi haradan tapmaq olar? Ancaq istəyirdim ki, Ağdamdan bizə köməyə gəlsinlər. Yol boyu meyitlərə rast gəlirdik. Elə yer var meyitlər topa, elə yer vardı ki, seyrək idi. Şumluq deyilən yerdə meyitlər elə bil səpələnmişdi. Meyitlərin çoxunun başında bəlkə də 10-15 güllə yarası vardı. Bəzilərinin baş dərisini soymuşdular. Babamın bacısı Zeynəb nənənin meyitini tanıdım. Şelli kəndinə yaxınlaşanda Milli Ordunun əsgərləri köməyimizə gəldi. 5 yaşlı qardaşım Elməddini, 8 yaşlı bacım Laləni qucaqlarına

alıb apardılar. Çünki nə anam, nə atam onlara kömək edə bilmirdi».

**…Bu, artıq faciə deyil , qardaş, bunun adı bir ayrı şeydir!**



Əzizov Tacir Məhər oğlu indi Naftalan rayonu, Azərbaycan sanatoriyası otaq 303-də qalır.
Tel: (+02-55) 2-17-75 (ev)
(050) 648-81-40 (mob)

## SİZ BAŞSIZ ATLINI FİLMDƏ GÖRMÜSÜNÜZ, MƏN BAŞSIZ MEYİTİ GÖZÜMLƏ GÖRMÜŞƏM



**MUSAYEV EMİN RƏFAEL OĞLU**

Təvəllüdü: 2 fevral 1980-ci il
Doğulduğu yer: Xocalı

«Həmin gün Səlim əmimgildə idim. Təxminən saat 10-11 olardı. Əmimgilin həyətində tunelə girmişdik. Şəhərin alındığını dedilər. Tuneldən çıxdıq. Hər yan alışıb yanırdı. Dağa tərəf gedirdik. Qarqarı keçəndə Səlim əmi məni belinə aldı. Kətik meşəsinə girdik. Adam çox idi. Bütün gecəni yol getdik. Dağa dırmaşırdıq. Dağın başına çatanda dikdən bizə atəş açdılar. Güllə yağış kimi yağırdı. Camaat üzü aşağı qaçmağa başladı. Quliyev Əliş çiynindən yaralandı. Qadınlar qışqırışırdılar. Camaat dərənin dibinə yığışdı. Bir az dincəldik. Sonra yolumuza davam etdik. Səhər saat 10-11 olardı. Dağın ətəyi ilə qalxırdıq. Oradan Xocalı görünürdü. Evimizi gördüm. Ermənilər iri yük maşınlarına əşyalarımızı yükləyirdilər. Bütün

günü yenə yol getdik. Artıq gecə idi. Yorulmuşduq. Ocaq qaladılar. Bir az dincəlib yolumuza davam etdik. Deyəsən, səhv getmişdik. Xankəndinə tərəf. Geri qayıdası olduq. Yolda kol-kosa ilişmiş pal-paltar, papaq, ayaqqabılar görürdüm. Gecə-gündüz yol gedirdik. Meşədə qırmızı-qırmışı şeylər vardı. Ondan çay dəmləyirdilər. Yığıb yeyirdim. Bizim dəstədə Mahir adlı bir kişi vardı. Qucağında da təzəcə doğulmuş ekiz qızının biri. O biri qız anasının qucağında idi. Başqa dəstəyə düşmüşdü. O qızlar sağ-salamat gəlib çıxdılar. Üç gün, üç gecə boranda Allah onları saxladı. Məktəbimizin yanında bir kişi yaşayırdı. Sarı da «Zaporojets» maşını vardı. Ayağının birini çəkirdi. Onunla həyat yoldaşı meşədə ocağın başında qaldılar. Dəstə yola düşəndə dönüb onlara baxdım. Heç bilmirəm niyə?! İndiyəcən onlardan xəbər yoxdur.

Biz getdik. Meşənin ortasında açıq tala vardı. Dəstənin qabaq hissəsi talaya çatanda arxa hələ meşədə idi. Talanın tən ortasında iri xəndək qazılmışdı. Bir az uzaqda isə kənd görünürdü. Oradan bizi Azərbaycan dilində çağırdılar. Sevindik. Xəndəyə çataçatda kənd qəbirstanlığından bizi pulemyot atəşinə tutdular. Telman Aslanov, Məhəmməd dayının arvadı Zəhra xala, bir də bir kişi yanımda öldü. Bizi əsir götürdülər. Dağın ətəyində yerə uzadıb, başımızın üstündən atəş açdılar. Bizi fermaya gətirdilər. Kimin nəyi vardısa – pul, qızıl, sənəd əlindən aldılar. Bizə çiy kartof, su verdilər. Hərdən də toyuq dəni verirdilər. Fermada olanda Milli Ordu paltarı geymiş Xəqanini - o 10-cu sinifdə oxuyurdu - apardılar. İndiyəcən ondan xəbər yoxdu. Sonra daha başqa Milli Ordu paltarında olanları apardılar. Matan xalanın 3 oğlunu aparanda arvad ağlayıb özünü öldürdü ki, heç olmasa birini verin. Vermədilər. Bir qız vardı dəstəmizdə. 13-14 yaşı olardı. Onu atasının əlindən zorla alıb apardılar… Təxminən bir saatdan sonra gətirdilər. Yaman gündə idi…

Bir neçə gün fermada qalandan sonra bizi cərgələdilər. Qadın və uşaqları bir, kişiləri isə başqa cərgəyə düzdülər. Qonşumuz Məhəmməd dayının 60-a yaxın yaşı olsa da, onu da apardılar. İndi də ondan xəbər yoxdu. Biz fermadan çıxıb qəbirstanlığın yanından keçəndə bir kişi meyiti gördüm, başını kəsmişdilər… Başı yox idi… Boynundan aşağı bədən idi… Bizim dəstəni əli silahlı ermənilər aparırdı Ağdamın Abdalgülablı kəndinə. Onlar geri qayıtdılar. Kəndə yaxınlaşanda

atamı gördüm. O, mənə sarı bir-iki addım atıb, yıxıldı. Sən demə, həyəcandan ayaqları tutulubmuş. Fazil dayım gəlib məni qucağına almaq istədi. Dayıma dedim ki, mən özüm gedəcəm. Sən arxadan gələnlərə kömək et. Arxada çox heysiz insanlar vardı. Abdalgülablı kəndindən bizi Ağdama gətirdilər. Anam məni görəndə huşunu itirdi. Meşədə fikirləşirdim ki, anama çatan saatı deyəcəm toyuq bişirsin, dolma bişirsin. Stolun üstü dolu yemək idi. Heç nə yeyə bilmədim. 2-3 gündən sonra ayaqlarım tutuldu. Bakıya hərbi hospitala gətirdilər. Xeyli müalicə aldım. Sağ ayağımın baş barmağını kəsmək istədilər. Hiss etmirdim. Atam qoymadı. Əmim Ulan-Ude şəhərində yaşayırdı. Məni ora apardılar. Orada 3 ay xəstəxanada yatdım. İki aydan sonra tibb bacıları qoltuğuma girib məni gəzdirməyə başladı. Sonra yavaş-yavaş ayaqlarım açıldı. Ancaq sol ayağımın baş barmağını indi də hiss etmirəm. İynə batırıram fərq etmir.

Gördüklərimi heç zaman yaddan çıxarmayacam. İndi fevralın 26-da televizorda Xocalı faciəsini göstərəndə özümü ələ ala bilmirəm. Bilmirəm nə edim, hara qaçım».

**…Yer üzü şar kimidi, qardaş, hara getsən, yenə gəlib bura çıxacaqsan. Ən yaxşısı silahlanıb qisas almaq, doğma torpaqları qaytarmaqdı…**



Musayev Emin Rəfael oğlu indi Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 196, eksperimental xəstəxananın həyətində qalır.
Tel: 434-26-08

# YALNIZ AĞLAMAĞIM YADIMDADI



**ƏZİZOV ELMƏDDİN
MƏHƏR OĞLU**

Təvəllüdü: 20aprel 1987-ci il
Doğulduğu yer: Xocalı

«… Ancaq ağlamağım yadıma gəlir. Hamı ağlayırdı… Biz də hey yol gedirdik… Başqa heç nə xatırlaya bilmirəm. Yol getdiyimizi də elə bilirəm ki, yuxuda görmüşəm».

***…Bu yolun sonu olacaqmı görəsən?***



Əzizov Elməddin Məhər oğlu
indi Naftalan rayonu, Qarabağ
sanatoriyası, otaq 303-də qalır.
Tel: (+02-55) 2-17-75

# ÖLÜMƏ GÜLƏN HAVALANMIŞ QADIN



**ABIŞOVA AYNURƏ
EYVAZ QIZI**

Təvəllüdü: 13 iyun 1984-cü il
Doğulduğu yer: Xocalı

«Qapımız döyüldu. Qonşumuz Yelmar dayı idi. Onların zirzəmisində gizlənmişdik. Səhərə yaxın beşmərtəbəyə getdik.

Orada adam çox idi. 26-sı axşam oranı tərk etdik. Qarqar çayından qonşumuz Natiq məni keçirdi. 2-ci sinifdə oxuyurdum onda. Atışmaya düşdük. Notariusda işləyən bir kişi vardı. Adı Şöhlət idi. Ayağından yaralandı. Gedə bilmədi. Qaldı orada. Elə istəyirdim ki, ona böyüklər kömək etsin, o da gəlsin. Gecəni yol getdik… Baxış, bir də Aydın dayı Ağdama hansı yolla getmək üstə mübahisə etdilər. Dəstə iki yerə ayrıldı. Biz, Baxış dayının arxasınca getdik. Düz getdik. 28 fevralda sübh tezdən Şelliyə çatdıq. Şelli kəndindən bizə köməyə gəldilər. O günlərdən unutmadığım iki məqam var. Bir əmim qızı ilə meşədə itməyimiz. Təsəvvürünüzə gətirin, iki uşaq meşədə tək-tənha. Qışqırmağa da qorxurduq ki, səsimizi ermənilər eşidər. Bir neçə saatdan sonra anamgil bizi tapdı.

Bir də Xəzangül adlı bir qadının heç nə vecinə deyildi. Hey gülürdü. Qışqırırdı. Oğlanlarını çağırırdı. Deyəsən, onun oğlunun adı Kamil idi. Onda başa düşürdüm ki, o, havalanıb».

***…Havalanan bu faciəni törədən ermənilərdi. Onların havası hələ də alınmayıb.***



Abışova Aynurə Eyvaz qızı indi Naftalan rayonu, Qarabağ sanatoriyası, otaq 231-də qalır. Xocalı şəhər 1 saylı orta məktəbdə müəllimə işləyir.
Tel: (+02-55) 2-31-59 (ev)
(050) 568-00-58 (mob)

# BALASININ QANINI YALAYAN ANA GÖRDÜM…

**ABIŞOVA AYNURƏ**
**VƏZİR QIZI**

Təvəllüdü: 30 iyun 1979-cu il
Doğulduğu yer: Xocalı

«… 26 fevralda gecə qonşumuz Qardaşxan dayıgilin evində idik. Məhəllənin camaatı onlara yığışmışdı. Evləri daş idi. Həm də zirzəmiləri vardı. Orada atəşdən yayınmaq olurdu. Xəbər gəldi ki, ermənilər Xocalıya girib. Meşəyə sarı qaçdıq. Bütün gecəni yol getdik. Cəmilə xalanın körpəsi Vüsal ağlayırdı. Xalam ağzını yumurdu ki, səs salmasın. Bizim dəstədə Məmməd adında bir kişi vardı. Qarmon müəllimi idi. O, dəstədəki qadınlara dedi ki, əgər ermənilər bizi əsir götürsə, qrantamyotla bizi partladacaq. Hamı razılaşdı. Ancaq mən çox qorxurdum. İstəmirdim qrantamyotla bizi partlatsınlar. Ermənilərin vəhşiliyindən, əsirliyin dəhşətlərindən xəbərim yox idi axı.

Heç yadımdan çıxmır. Biz yol gələndə kolun dibində bir az oturmuşduq ki, dincələk. Bu zaman əsir götürülmüş başqa bir dəstədən Ramilə adlı bir qadın qaçıb gəlib bizə qoşuldu. Onun qucağında körpə uşağı Samiri vurmuşdular. Uşaq qan içində idi. Anası bağrına basıb yalayırdı.

Bir az dincəlib yolumuza davam etdik. Səhər Naxçıvanik yaxınlığında bizi gülləyə tutdular. Güllə yağış kimi yağırdı. Adam az qalırdı dəli olsun. Qonşumuz Zərif xala uşaqlarını harayladı. Güllə düz beynindən dəydi. Yerindəcə keçindi. Əbülfət vardı. Polisdə işləyirdi. Onun da meyiti yerə sərili idi. Elə harasa qaçıb canını qurtarmaq istəyirdin. Xalam qızı Xumar meyitlərin arasında yaralı uzanmışdı. Zarıyırdı. Sonra onu Milli Ordu əsgərləri çıxarmışdı. Sonra baldırıma qəlpə dəydi. Cəmilə xalam məni sürünə-sürünə apardı. Çox qan itirmişdim. Ağdam xəstəxanasına apardılar. Fevralın 26-da gecə ermənilər Ağdam xəstəxanasını güclü atəşə tuturdular. Məni Ağdam xəstəxanasından Bərdə xəstəxanasına apardılar. Atam Vəzir, 16 yaşlı

bacım Samirə də Naxçıvanikdə yaralanmışdı. Biz 1-2 ay xəstəxanada yatdıq».

***…Bu qaniçənliyin ən müdhiş mənzərəsidir: ana qucağında qan içərisində olan körpəsinin qanını yalayır!***



Abışova Aynurə Vəzir qızı indi Naftalan rayonu, Goran sanatoriyası, ev 34-də qalır. 2 uşaq anasıdır.

# «ONU APARMIRAM»



**HÜSEYNOVA RƏVANƏ ƏLÖVSƏT QIZI**

Təvəllüdü: 22 avqust 1989-cu il
Doğulduğu yer: Xocalı

«… 7-8 yaşına kimi çox şeyi xatırlayırdım. İndi bəzi şeylər gözümün qabağına gəlir. Anam məni belinə bağlamışdı. Gedirdik. Acından ağlayırdım. Məndən böyük «qardaşım Anar özü gedirdi. Yolda anam ağaca ilişdi. Anar nə qədər elədi aça bilmədi. Orada çox qaldıq. Sonra atam gəlib bizi ağacdan açdı. Bir də o heç yadımdan çıxmır ki, anam məni belindən açıb yerə atdı. Ayaqları donmuşdu. Yeriyə bilmirdi. Dedi: «Onu aparmıram». Anarın əlindən tutub getmək istəyirdi. Anar getmədi. Qaçıb gəlib məni qucaqladı. Ağladı. Dedi: «Bəs mənim bacım kim olacaq?» Atam məni kürəyinə şəllədi.

Bizi bir evə gətirdilər. Matan adlı arvadın oğlanlarını aparırdılar. O, qışqırırdı. Orada mənə erməni arvadı peçenye gətirmişdi. Yedim. Qucağına alıb aparmaq istəyirdi. Anam qoymadı. O, erməni arvadı mənə buğda da vermişdi».

***...Anasının kürəyinə şəllənmiş körpə… Xocalı uşaqlarından söz düşəndə yalnız bu lövhəni gözlərinizin qarşısına gətirin!***



Hüseynova Rəvanə Əlövsət qızı indi
Naftalan rayonu, Qarabağ sanatoriyası,
korpus 14, otaq 19-da qalır.
Tel: (+02-55) 2-18-02 (ev)
(050) 676-39-46 (mob)

## HƏYATINI BABASI XİLAS ETMİŞ KÖRPƏ



**QULİYEV EMİL ƏKBƏR OĞLU**

Təvəllüdü: 1988-ci il 1 sentyabr
Doğulduğu yer: Xocalı

«Heç nə xatırlamıram. Amma bilirəm ki, həyatımı babam Teymur xilas edib. Həmin gecədən söz düşəndə evdən çıxıram. Mənə çox pis təsir edir. Anamın əzablarına dözə bilmirəm».

Quliyev Emilin anası Məmmədova Mətanət Teymur qızının dedikləri: «… Anamgildə idim. 7 yaşlı qızım Sevinc, 3 yaşlı oğlum Emil yanımdaydı. Gecə saat 12-də evdən çıxdıq. Emili atam çaydan keçirdi. Meşədə də atamın qucağında idi. Qardaşım Nizami də hərdən Emili atamdan alırdı. Sübh tezdən Naxçıvanik yolunda atışmaya düşdük. O qədər dəhşətlər görmüşəm ki… Əlif Hacıyev yanımızda öldü. Zamini – çox vaxt Füzuli deyirdilər – vurdular. Bağırova Şölə, Əli kişinin gəlininin atası İslam və anası Səhər, Nuridənin oğlu Səxavət… Hansını sayım? Nuridə oğlunun meyitini kürəyindən açmadı…

Bir az sonra Şöhlətin qızını vurdular. Şöhlət qızını bağrına basıb gətirirdi. Sonra gətirə bilmədi. Əmisi Həsənbalanın, bibisi Pərvanənin meyitlərinin yanına qoydu. Emil atamla birgə, Sevinc mənim yanımda idi. Qardaşım Nizami bizdən ayrı düşmüşdü. Atam ayağından yaralandı. Güllə mənim qolumdan dəydi. Bu zaman qışqırdım. Məndən 5-6 metr irəlidə qaçan qızım Sevinc qışqırığıma geri dönüb mənə sarı qaçmağa başladı. Yıxıldı… Elə bildim ayağı meyitlərə ilişib yıxıldı… Güllə qarın nahiyəsini deşik-deşik etmişdi. Şamil müəllim vardı. O, Sevinci qucağına aldı. Qardaşım uzaqdan Sevincin yaralandığını görüb köməyə gəldi. Şelliyə çataçatda idik. O, bizi Şelli camaatına təhvil verib geriyə – yaralılara köməyə getdi. 3 yaşlı Emili atam xilas etdi… Sevinc fevralın 27-də dünyasını dəyişdi».

***…Bu dəhşətləri insan təxəyyülü heç vaxt yarada bilməz. Xocalılar***

***isə onu həyatda yaşayıblar.***



Quliyev Emil Əkbər oğlu
indi Naftalan rayonu, Goran
sanatoriyası, korpus 6, otaq
6-da qalır.
Tel: (+02-55) 2-30-92 (ev)
(055) 760-53-54 (mob)

## ÇAYI KEÇƏNDƏ AYAQQABILARIMI SU APARDI…



**ƏZİZOV RAMİN
İBRAHİM OĞLU**

Təvəllüdü: 22 mart 1978-ci il
Doğulduğu yer: Xocalı

«… Fevralın 25-i axşam evdə idim. Anam, bacılarım Vəsilə, Rahidə, qardaşlarım Elman, Seymur da evdə idi. Dayımgil də bizə gəlmişdi. Atamın dostu Muradxan bizi çağırdı. Güclü atışma baş verdi. Yığılıb Təvəkkül dayıgilə getdik. Evdə yox idilər. Məhəlləmizin yuxarısında yaşayan Ələsgər müəllimgilə getdik. Orada adam çox idi. Dedilər, meşə ilə Ağdama qaçmalıyıq. Çayı keçəndə ayaqqabılarımı su apardı. Ayaqyalın qaldım. Ayaqlarım donurdu. Sonra hiss etmədim. Alışdım. Səhərə yaxın atışma düşdü. Anamgildən ayrı düşdüm. Güllə yağış kimi yağırdı. Qaçay dayının oğlu Tahirin meyitinin altında gizləndim. Yaxınlıqda xəndək vardı. Meyitin altından çıxıb özümü xəndəyə saldım. Orada xocalılardan Səlim, Əlizamin, Səidə, Valeh – 13 nəfər adam vardı – qalanlarının adı yadımdan çıxıb. Xəndəkdə bizim başımızın üstünü 7 əli avtomatlı erməni kəsdi. Onlardan 5-i bizi avtomatın qabağına salıb Əsgərana apardı. Yolda qadınların qızıllıranı aldılar. Bizi Əsgəran körpüsünün üstündə üzüüstə 2 saata yaxın uzandırdılar. Əsgəran kənd camaatı bizə ermənicə söyür,

daş atırdı. Sonra bizi durquzub Əsgəran türməsinə gətirdilər. Məni əvvəlcə kişilərin kamerasına saldılar. Sonra uşaq olduğuma görə qadınların kamerasına keçirdilər. Əsirlərə su daşıyırdım. Bir dəfə su gətirəndə yolda ermənilər məni döydü. Sonra soruşdular: «Adında neçə hərf var?». Dedim: «Beş». İri bir çörək parçası verdilər və dedilər ki, biz beşə qədər sayınca yeməsən, səni güllələyəcəyik. Çörəyi tez yemək istədim. Boğuldum. Ermənilər gülüşdülər. Əsirləri gündə 3-4 dəfə döyürdülər. Milli Ordu əsgərlərini seçib apardılar. 2-3 dəqiqədən sonra atəş səsi gəlirdi…

Su gətirməyə gedəndə zibilliyin yanından keçirdim. Orada Səlimi, Vasifi güllələmişdilər. Hüseynin meyitini də yerdə gördüm…

Bizim kamerada 50-55 qadın-uşaq olardı. Bir dəfə bir qızı aparmaq istədilər. Həmin qızın anası, bacısı da əsirlikdə idi. Onlarn üçü bir-birinə sarındı. 3 erməni onları ayıra bilmədi. Gedib köməyə daha 2 nəfər erməni saqqallısını çağırdılar. 5 erməni kişisi bir-birinə sarınmış ana və qızlarını zorla bir-birindən ayırdı. Qızlardan birini apardılar… Anasının ürəyi getdi…

Bir gün gecə saat 4 idi. Kameramıza bir erməni girdi. Dedi: «Mən Yerevan ermənisiyəm. Səni səhər aparıb Yerevanda başını kəsəcəm…». Yerevan erməniləri lap qəddar olurdu. Qorxudan tir-tir əsirdim… Səhər tezdən məni dəyişdirdilər. Evə gələndə bildim ki, artıq martın 3-dür…».

***…Azərbaycanlıların başını kəsmək ermənilər üçün «yeni iş» deyil. Tarix boyu onlar o qədər başlar kəsiblər ki.***

---



Əzizov Ramin İbrahim oğlu
indi Naftalan rayonu, Qarabağ
sanatoriyasında, korpus 14, otaq
13-də qalır.
Tel: (055) 634-92-51 (mob)

# O GECƏ TANRININ MÖCÜZƏSİNƏ RAST GƏLDİM



**CƏFƏROVA XƏYALƏ HÜMBƏT QIZI**

Təvəllüdü: 20 aprel 1981-ci il
Doğulduğu yer: Xocalı

«Atam Hümbət, dayım İsaq Xocalının müdafiəsində idi. Həmin gecə Yunis babamgilin zirzəmisində idik. Babam, nənəm, anam, mən, qardaşım Amil, Emil, bir də şikəst xalam Züleyxa. İsaq dayı ermənilərin Xocalıya girdiyini biləndə, bizi çıxarmaq üçün evə gəlmişdi. O, qoca ata-anasına kömək edirdi. Anam qardaşlarımın əlindən tutmuşdu. Şikəst xalam yeriyə bilmirdi. O, zirzəmidə qaldı… Ondan indiyəcən xəbər yoxdu… Zirzəmidən çıxıb beş mərtəbəli evə qaçdıq. Adam çox idi. Ermənilər beşmərtəbəni atəşə tutmağa başladılar. Yuxarı mərtəbələri vuranda aşağı, aşağı mərtəbələri vuranda yuxarı qalxırdıq. O qədər qalxıb düşmüşdük ki, qıçlarımızda hey qalmamışdı. Bizimkilər beşmərtəbənin damında mövqe tutduqlarından ermənilər binaya soxula bilmirdi. Bizimkilərdən kimsə beşmərtəbənin həyətindəki Tofiq Hüseynovun «Villis» maşınından patron gətirdi. Tofiq Hüseynov özünü qrantamyotla partlatmışdı ki, əsir düşməsin.

Beşmərtəbədən səhərə yaxın çıxdıq. Bizimkilərdən 1-2 nəfər erməniləri azdırmaq üçün başqa istiqamətə gedib atəş açdı. Ermənilər o istiqaməti atəşə tutdular. Elə bu zaman biz binanı tərk edib meşəyə qaçdıq. Bizimlə 5-6 rus əsgəri də vardı. Onlar 366-cı alaydan qaçıb bizə tərəf keçmişdilər. O rus əsgərləri bir qadının ekiz uşaqlarını qucaqlarına aldılar. Naxçıvanik yaxınlığında bizim dəstə də gülləbarana düşdü. Güllə anamın paltarını deşib, Şöhlət dayıya dəydi. O, qaldı. Ata babam Müseyib də orada öldürüldü. Camaat pərən-pərən düşdü. Nənəm, dayım bizdən ayrı düşdü. Dəstəmizdə 10 nəfər vardı. Atam, anam, mən, qardaşlarım, 2 rus əsgəri, Qiyas dayı, bir də Milli Ordunun əsgərlərindən İlham və Şaiq. Dəstəmiz yola düşdü. Bir kəndə yaxınlaşanda bizi Azərbaycan dilində səslədilər. Onların ləhcələrindən erməni olduğunu bildik. Getmədik. Geri döndük. Xeyli

yol getmişdik, qardaşım Emil anamın qucağında dondu. Atam anama kömək edə bilmirdi. Onda ağır silah vardı. Anama dedi ki, Emili qoyaq gedək. Anam razılaşmadı. Dedi: «Ölüsünü kürəyimə şələyin». Atam donmuş Emili anamın kürəyinə sarıdı. Onun ağzından köpük gəlirdi. Şellidə donu açıldı.

Bütün gecəni yol getdik. Meşədə bir kişiyə rast gəldik. O, bizi tanımışdı. Qışqırırdı: «Mən, Usubov Ədalətəm». O da bizə qoşuldu. Xeyli xocalıların əsir götürüldüyünü ondan öyrəndik. Yerimək zülm idi. Şaxta adamı kəsirdi. Dağın başına çıxanda bir kənd gördük. İşıqları yanırdı. Milli Ordunun əsgərlərindən kimsə erməni kəndi olduğunu desə də, atam bu yerləri yaxşı tanıdığından «Ağdamın Şelli kəndidir» dedi.

İşıq gələn tərəfə getdik. O kənd Şelli idi. Gecə meşə ilə gələn camaatın xocalılıar olduğunu bilən Milli Ordunun əsgərləri Şellidən bizə Sarı köməyə gəldilər. Artıq heç kim yeriyə bilmirdi. Hamımızı qucaqlarına alıb apardılar. Tanrının bir möcüzəsinə də rast gəldim. Qardaşım Emilin donu açıldı».

***…Həmişə işıq gələn tərəfə gedin. Tanrı ən ağır anlarda öz işığını əsirgəmir.***

---



Cəfərova Xəyalə Hümbət qızı
indi Naftalan rayonu, Şirvan
sanatoriyası, otaq 431-də qalır.
İki övlad anasıdır.
Tel: (+02-55)2-13-18 (ev)

## XATİRƏLƏRİN ÖZ DƏHŞƏTİ VAR



**CƏFƏROV EMİL HÜMBƏT OĞLU**
Təvəllüdü: 7 may 1983-ci il
Doğulduğu yer: Xocalı

**CƏFƏROV AMİL HÜMBƏT OĞLU**
Təvəllüdü: 20 may 1982-ci il
Doğulduğu yer: Xocalı



Emilin, Amilin və Xəyalənin anası Xocalı faciəsi zamanı meşə ilə yol gələn uşaqlarının şəklini bizə versə də, Xəyalə ilə söhbətimiz alındı. Emil və Amil isə o gecənin faciəsini yenidən yaşamaq istəmədilər.

***…O gecənin dəhşətini xatırlamaqdan qaçmaq olar, amma yaddan çıxarmaq ki, mümkün deyil?!…***



Cəfərov Emil Hümbət oğlu və
Cəfərov Amil Hümbət oğlu
Naftalan rayonu, Qarabağ
sanatoriyasından qalırlar.
Tel: (+02-55)2-13-18 (ev)



## GÖRDÜKLƏRİMİ HEÇ ZAMAN UNUTMARAM

**ƏLİYEV RAMAN VİTALİ OĞLU**

Təvəllüdü: 4 dekabr 1984-cü il
Doğulduğu yer: Xocalı



«Gecə idi. Saat 10-11 radələri olardı. Cəmilə xalamgildəydik. Bizim ev Bozdağın ətəyində olduğundan Noraguhdan ermənilər tez-

tez atəşə tuturdu. Fevral ayı girəndən öz evimizdə yaşaya bilmirdik. Atam, əmim Vadim Xocalının könüllü müdafiəsində idilər. Atam əmimlə gəldi ki, yığışın, ermənilər Xocalıya girib. Evdən çıxdıq. Camaat çöldə idi. Qaçırdılar. İnsanların çoxu yüngül paltarda idi. Meşədə donanlar da elə onlar oldu. Çayı keçib Kətik meşəsinə girdik. Böyük qardaşım Ramin özü gedirdi. Əlimdən gah anam, gah atam tutsa da, mən də özüm gedirdim. Meşədə atışma zamanı anamdan ayrı düşdüm. Sonra yenə tapışdıq. Anam Ətrabə yaralanmışdı. Atam onu kürəyinə alıb sürünürdü. Əmim Vadim də atama kömək edirdi. Anam atama yalvarırdı ki, məni qoy, uşaqları götür, qaç. Atam razılaşmırdı. Mən də istəmirdim anam qalsın meşədə.

Bir kök qadın vardı. Atışma zamanı bilmirəm güllə harasından dəymişdisə, ağzından qan fışqırırdı. Bizim – mənim, anamın da üstünə töküldü. Mariya xalamın 13-14 yaşlı qızı Elnarə meşədə itdi…

Biz Ağdam tərəfə keçə bildik. Anamı xəstəxanaya apardılar. Sonra Bakıya -Semaşko xəstəxanasına apardılar. Əvvəl ayağını kəsmək istəsələr də, bir neçə ay müalicə alası oldu. Gördüklərimi heç zaman unutmaram. Qan yaddaşıma yazılıb. Xocalı faciəsi zamanı 8 yaşım vardı, indi 23 yaşım var. 83 yaşında da bizə qarşı törədilmiş vəhşiliyi unutmayacağam».

***…Unutmamaq! Bu faciədən bizə qalan dərs oldu.***

---



Əliyev Raman Vitali oğlu indi Naftalan rayonu, Qarabağ sanatoriyası, otaq 309-da qalır. Xüsusi təyinatlı polis dəstəsində polis serjantıdır.

# HAMIMIZ BİR DƏHŞƏTİN ŞAHİDİYİK



**ƏLİYEV RAMİN**
**VİTALİ OĞLU**
Təvəllüdü: 20 fevral 1983-cü il
Doğulduğu yer: Xocalı
**ƏLİYEV AMİL**
**VİTALİ OĞLU**
Təvəllüdü: 11 avqust 1981-ci il
Doğulduğu yer: Xocalı



Həmin gecə Xocalıdan çıxanda Ağdama gələnə kimi ailəmizlə bir olmuşuq. Qardaşımımız Ramanın danışdıqları elə bizim də başımıza gəlib. Eyni hadisələrin şahidiyik.



Əliyev Ramin Vitali oğlu və Əliyev Amil Vitali oğlu indi Naftalan rayonu, Qarabağ sanatoriyası, ev 309-da qalırlar.
Tel: (+02-55) 2-16-85 (ev)
(050)514-49-47 (mob)



# MEHDİDƏN BAŞQA SAĞ QALAN OLMADI



**HƏSƏNOV RAMİN QARYAĞDI OĞLU**

Təvllüdü: 25 iyul 1981-ci il
Doğulduğu yer: Xocalı

«Anamın dayısı Kazımgilin evinin zirzəmisində idik. Dayılarım Natiq, Yamən, Firdovsi, xalam qızı Nəzakət və başqa qohumlarımız da orada idi. Ana babam İsa gəldi ki, bəs ermənilər Xocalıya giriblər. Təxminən 11-i keçmiş olardı. Evdən çıxıb üzü aşağı yürüdük. Millət bir-birinə qarışmışdı. Anamı, məni, dayım uşaqları Elçin, Elgiz, Mehdini dayım kürəyində çaydan keçirdi. Firdovsi dayım yaralı idi. O, fevralın 21-də Xocalını müdafiə edərkən Noraguh istiqamətindəki postda yaralanmışdı. Ona görə də bizimlə gedə bilmirdi. Dedi: «Siz qabaqda gedin. Mən gələcəm». O biri dayılarım da bizdən ayrı düşmüşdü. Hey gedirdik. Bələdçimiz yox idi. Xocalıdan 12 gün əvvəl işğal edilmiş Quşçular kəndinə gedib çıxdıq. Meşədə azmış Quşçular camaatı da bizə qoşuldu. 4-5 gün eləcə meşədə fırlandıq. 5-ci və ya 6-cı gün Şeliyyə yaxınlaşdıq. Bizim dəstədə olan uşaqlardan çoxu acından, soyuqdan öldü. Ölən uşaqları meşədə qoydular. Onların üstünə ya ağac şaxları örtürdülər, ya da qarı aralayıb altına soxurdular. Yanımda bir qadına güllə dəydi. Kürəyinə uşağını şələmişdi. O qadının yoldaşı onun kürəyindən uşağı açıb götürdü. O qadın da orada qaldı… Bir oğlana güllə ağzından dəydi. Qan fışqırırdı. O da meşədə qaldı. Biz gedirdik. Şelli kəndinə sarı. Orada şumluq deyilən yer vardı. Çoxlu meyitlər, qarın üstündə topa-topa qırmızı ləkələr vardı. Yamən dayım artıq bizimlə idi. Burada qırğın olduğunu söylədi. Gecə idi. Şelliyə lap yaxınlaşanda, Yamən dayım atəş açdı ki, Şelli camaatı duyuq düşüb, köməyə gəlsin. Elə də oldu. Elə bil camaat bizi gözləyirmiş. Artıq tam taqətsiz idik. Şelli postuna çatanda bəlkə yarım vedrə su içdim. Beş-altı gün meşədə bir damcı da qar yeyə bilməmişdim. İstəyirdim yeyəm, boğulurdum. Şellidə bir cavan oğlan bizi evinə apardı. Orada da xeyli çay içdim. Ancaq bir tikə yemək yeyə bilmədim. İndi də

inana bilmirəm sağam. Bunu möcüzə hesab edirəm. Xocalıda – evdən çıxanda sanki gülllədən yağış yağırdı. O güllələrdən biri məni tutmadı. Güllələr qulağımın dibindən, başımın üstən vıyıldayırdı. İndi də o vıyıltı məni rahat buraxmır. Xocalı dəhşətini unutmaq mümkün deyil. Dayım Firdovsi, yoldaşı Heyran, uşaqları Elçin, Eldəgizdən hələ də xəbər yoxdu… Ailənin yeganə sağ qalan üzvü Mehdidir. Bizdə yaşayır. Hər dəfə Mehdiyə baxanda anam ölüb dirilir.

Şellidən bizi səhər açılanda Ağdama gətirdilər. Vaqon «xəstəxanaların» birində yerləşdirdilər. Oranı da ermənilər atəşə tutdu. Sonra Bakıya – Semaşko xəstəxanasına gətirildik. Ayaqlarımı don vurmuşdu. Anam Rəhilənin ayaq barmaqlarını kəsdilər».

***…Onların hamısı sağ qalmalarını möcüzə hesab edir...***

---

Həsənov Ramin Qaryağdı oğlu indi Goranboy rayonu, Aşağı Ağcakənd qəsəbəsi, mənzil 314-də qalır. Bir övladı var. Xocalı şəhər xəstəxanasında sürücü işləyir. Tel: (+0234) 74-7-20 (ev) (050) 713-36-96 (mob)



## MƏN NİFRƏT ÜSTÜNDƏ KÖKLƏNMİŞƏM

**ABIŞOV TURAL BƏHMƏN OĞLU**

Təvəllüdü: 6 iyul 1977-ci il
Doğulduğu yer: Xocalı



---

«Fevralın 25-dən 26-na keçən gecə saat 10-da evə gəldim. Heç yarım saat keçməmiş şiddətli atışma başladı. Aramsız pulemyot atəşinin ardınca Xocalı raket, top atəşlərinə tutuldu. Dərhal anladıq

ki, bu, həmişəki döyüş deyil. Ağır texnikanın uğultusu, atəş səsləri dəhşətli vahimə yaratmışdı. Evdən qaçdıq qonşumuz Rəhimgilin zirzəmisinə. Rəhim xəbər gətirdi ki, ermənilər şəhərə girib. Qaçıb beş mərtəbəyə doluşduq. Adam həddən artıq çox idi. Bəlkə də 300-dən çox idi. Əksəriyyəti qadın, uşaq, qoca idi. Ailələrini qorumaq üçün döyüş mövqeyindən gəlmiş əli avtomatlı 10-15 kişi beşmərtəbədəki insanların dəstələrə bölünməsi, Ağdam istiqamətinə getməsi planını cızdılar. Elə də etdik. Qarqarı keçib meşəyə girdik. Bizim dəstəyə Zamin bələdçilik edirdi. Qorxurdum. Bütün bədənim əsirdi. 8 yaşlı qardaşım Sadiq anamın yanında idi. Hərdən də mən ona kömək edirdim. Biz dəstənin önündə idik. Yolu keçmişdik ki, dəhşətli gülləbaran başladı. Ermənilər Xocalı sakinləri üçün «təhlükəsiz» qoyduqları yeganə yolda – ermənilər Xocalı sakinlərinin meşə ilə qaçıb buradan Ağdama pənah aparacaqlarını bilirdilər – əvvəlcədən quraşdırılmış istehkamlardan dinc əhalini pulemyot atəşinə tutdular. Asfalt yolu biz ilkin olaraq keçdiyimizdən arxadakı dəstə pərən-pərən düşdü. Yadımdadır, bir uşağı anasının belində vurmuşdular. Uşaq ölmüşdü. Qadına nə qədər edirdilər uşağı aç tulla, özün qaç, qadın dimdik gəlirdi. Deyəsən havalanmışdı.

Hadisədən 4-5 gün sonra Ağdam məscidinə meyitlər gətirmişdilər. Qulağı, ayağı, qolu kəsik meyitlər gördüm orada. Gözü çıxarılmış, baş dərisi soyulmuş meyitlər də vardı. 2 nəfəri arxa-arxaya bağlayıb yandırmışdılar. Onların meyidi bir-birinə yapışıb qurumuşdu. Nifrət edirəm ermənilərə!».

***…Nifrət! Bu Tanrıdan gələn səda deyil. Onu insanlar yaradırlar.***



Abışov Tural Bəhmən oğlu
indi Naftalan rayonu, Qarabağ
sanatoriyası, otaq 206-da
qalır. Xocalı şəhər polisində
serjantdır.
Tel: (+02-55)2 -27-04

# İNDİ DƏ ŞİMŞƏK ÇAXANDA, ELƏ BİLİRƏM HƏMİN DƏHŞƏT YENİDƏN BAŞ VERƏCƏK



**MƏMMƏDOV FƏRMAN QƏZƏNFƏR OĞLU**

Təvəllüdü: 2 oktyabr 1982-ci il
Doğulduğu yer: Xocalı

«Fevralın 25-dən 26-na keçən gecə bibimgilin alt evində idik. Oranı atəş tutmurdu. Bibim, qonşuları və bizim ailə səhər saat 6-da evdən çıxdıq. Beşmərtəbəyə getdik. Orada adam çox idi. Bizi gülləyə tuturdular. Qiyas dayının oğlu Elşadın meyidi beşmərtəbənin damında qaldı. Atası bilmədi ki, oğlu öldürülüb. Hava qaranlıqlayanda beşmərtəbədən qaçdıq Bozdağa tərəf. Meşədə ilk atışmada dəstə pərən-pərən düşdü. Bizim dəstədə 11 nəfər vardı. Anam, mən, bibim, əri Yelmar, oğlu Zahid, Məhluqə xala və 4 oğlu, bir də qonşumuz Mobil. Meşədə azmışdıq. Getdiyimiz yerə bir də gedirdik. Gecə yarısı bir kəndə yaxınlaşdıq. Acından ölürdük. Sevinirdim ki, indi çörək yeyəcəm. Kəndin girəcəyində bir evin qapısını döydük. Ev sahibi lampanı yandırdı. Sonra hay salmağa başladı ki, "törklər" gəlib. Başa düşdük ki, erməni qapısı döymüşük. Tez qaçdıq. Dəstəmizdən bir nəfər, deyəsən adı Mirzə idi – qorxudan şoka düşdü. Orada qaldı. Biz meşəyə qaçdıq.

Duman idi. Anamın əlindən yapışmışdım. Əlimi belə görmürdüm. Kol-kosa ilişə-ilişə gedirdik. Birdən duman çəkildi. Gördük ki, hər yan tank, erməni saqqallıları… Onlar bizim dumanda azdığımızı başa düşüb qəhqəhə çəkdilər. Anam Məhluqə xalanın oğlu İlqara dedi ki, bala, məni də, ananı da – dəstəmizdə elə 2 qadın vardı – öldür, qoy ermənilərə əsir düşməyək. İlqar əvvəl duruxdu. Sonra avtomatını qaldırdı ki, anasını və mənim anamı vursun. Bu dəm ermənilər atdı. İlqar karıxdı. Avtomat əlindən yerə düşdü. Ermənilər dəstəmizdəki Zahidin ayaqlarını pulemyot atəşinə tutdular. Qarın üstü qıpqırmızı oldu. Zahid öldürüldü. Bizi tutdular. Soyundurub üst-başımızı axtardılar. Ayağım şişmişdi. Ayaqqabılarım çıxmırdı. Zorla çıxarıb içinə baxdılar. Anamın bütün qızıllarını aldılar. Bizi

Əsgəran türməsinə apardılar. Türmə qadın, uşaqla dolu idi. Bəlkə də 200 nəfər olardı. Türmədə ağ gödəkçəli bir qız vardı. Onu ermənilər aparmaq istəyəndə getmədi. Ermənini itələdi. Saçından tutub sürüyüb apardılar… Onu aparanda mən ağladım. Anama deyirdim ki, gəl gedək buradan. Ağladığımı görən erməni məni döyməyə başladı. Dubinka ilə kürəyimdən vururdu. Qışqırırdım. Anam özünü üstümə atdı. Anamı da başladılar döyməyə. Bütün bədənimiz gömgöy oldu. O dubinkaların qaraltısı 5-6 ay bədənimizdə qaldı. Hələ də böyrəklərimdə dubinka ağrısı hiss edirəm. Bizə verilən qupquru çörəyin içində şüşə qırıntıları olub. Mədəm də sıradan çıxıb. Əsirlikdən qurtarandan bu günə kimi anam da, mən də müalicədəyik. Əsirlikdə neçə gün qaldığımı bilmirəm. Bizi bir erməni meyidi ilə dəyişdirdilər. Əsgəran türməsindən ilkin olaraq anam, mən, qonşumuz Kamil dayının 5 yaşlı oğlu Məhəmməd, bir də Fatma xalanın 2 uşağını çıxardılar. (Fatma xala və onun həyat yoldaşından indiyəcən xəbər yoxdu) Bizi Ağdama – Qaraağacı qəbirstanlığına gətirdilər. Dəyişildiyimizə inanmırdıq. Anam qaçmağa başladı. Milli Ordunun əsgərləri anamı tutub inandırdılar ki, o, əsirlikdən qurtarıb. Anam qışqırırdı:«Əsgəran türməsi qadın və uşaqla doludur». Bizimlə dəyişiləcək meyit erməni böyüklərindən birinin qardaşı idi. Allahverdi Bağırov dedi ki, Əsgəran türməsində bu qadının gördüyü bütün əsir qadın və uşaqlar gətirilməzsə, meyit verilməyəcək. Bütün gecə Ağdam xəstəxanasına əsirlər daşıdılar. Bizim çarpayımız pəncərənin qabağında idi. Anama dedim: «Keçək dibdəki çarpayıya. Ermənilər raket atar, pəncərədən üstümüzə düşər. Çox qorxurdum. İndi də şimşək çaxanda elə bilirəm, Xocalı faciəsi başlayır. Tez evə girirəm…»

***…Dəhşətli xatirə kabus kimidi, səni hər yerdə və hər an izləyir… Bunu xocalılardan yaxşı bilən yoxdu.***

---



Məmmədov Fərman Qəzənfər oğlu
indi Bakı şəhəri, Əzizbəyov rayonu,
Mərdəkan qəsəbəsi, Sülh düşərgəsi, ev
17-də qalır. İşsizdir.
Tel: 454-98-53

# ONUN AĞZINI QAPAYIRDIQ Kİ, AĞLAMASIN



**ABIŞOVA AYGÜN**
**EYVAZ QIZI**

Təvəllüdü: 21 may 1990-cı il
Doğulduğu yer: Xocalı

Təbii ki, heç nə xatırlamır. Anası Şəfiqə Aslanovanın dedikləri: «Xocalıdan üç körpə ilə çıxdım. Aliyə 11, Aynur 6, Aygün yaşyarım idi. Aygün qucağımda hey ağlayırdı. «Pəpə» istəyirdi. Qar verirdim, yemirdi. «Mənə pəpə ver» deyib qışqırırdı. Dəstəmiz Aygünün ağlamasından narahat olurdu. Özüm də qorxurdum. Ermənilər səs eşitsəydi, yerimizi biləcəkdi. Ağzını yumdum. Uşaq gömgöy göyərdi. Yoldaşımın dayısı oğlu Baxış gəlib uşağın ağzından əlimi çəkdi. Dedi: «Bir də uşağın ağzını yumsan, səni güllələyəcəm». Əynindəki pencəyi çıxarıb Aygünü bükdü. Aygünü kürəyimə şəllədim. Deyəsən, Aygünün yeri isti oldu. 3 gün meşə ilə yol getdik. Meşədə 6 yaşlı qızım Aynur azdı. Aynuru tapınca bir Allah bilir nə çəkdim. Duman idi. Getdiyimiz yolu bir də gedirdik. Naxçıvanik yaxınlığında bizdən əvvəlki dəstəni qırmışdılar. Hər yan meyit idi.

Ağdam camaatı meşədə xocalıların olduğunu bilirdi. Bizə köməyə gəldilər. Artıq Aliyə donmuşdu. Qaynım oğlu Niyaməddin onu qucağında gətirirdi. Onu İlham adlı bir oğlan Niyaməddindən alıb bizi öz evinə apardı. Uşaqlara çay içirtdi. Aliyəni peçin qırağında uzandırdı. İlham gedib-gəlib başını Aliyənin sinəsinə qoyur, sonra otaqda əlləri qoynunda var-gəl edirdi. Heç nə başa düşmürdüm. Keyimişdim. İlham yenə Aliyəyə yaxınlaşdı. Bu dəfə qışqırdı: «Nəfəs alır!». Sən demə isti vurub, Aliyənin donu açılıb…. Uşaqların 3-ü də uzun müddət müalicə aldı».

***...Bu xatirəyə bircə cümləlik də olsun şərh verməyə dəyərmi?***



Abışova Aygün Eyvaz qızı indi Naftalan rayonu, Qarabağ sanatoriyası, korpus 15, otaq 231-də qalır. Xocalı 1 saylı şəhər məktəbinin 11-ci sinfində təhsil alır.
Tel: (+02-55) 2-31-59 (ev)
(055) 625-97-91 (mob)

## ƏMZİYİ AĞZINDA ƏRİMİŞ QIZCIĞAZ



**ABDULLAYEVA XƏYALƏ İLHAM QIZI**

Təvəllüdü:1990-cı il 10 oktyabr
Doğulduğu yer:Xocalı

Təbii ki, heç nə xatırlamır. Anası Abdullayeva Sənəm deyir: «Xocalıdan 25 fevral saat 11-də çıxdıq. Xəyalə qucağımda yaşyarım, Vüsalənin də 5 yaşı vardı. Bilmirdim hansının səsini kəsim. Yoldaşım Xocalının müdafiəsində idi. Atamgilin dəstəsi ilə gedirdim. Atam Həsən, anam Göyçək, bacılarım Lətafət, Xədicə, bir də qardaşım oğlu 9 yaşlı Ruslan. Əynimiz yalın idi. Bütün Xocalı camaatı çayın qırağına toplaşmışdı. Meşədə azmışdıq. Dəstəmiz qoca, qadın, uşaqlardan ibarət idi. Ailəmiz dəstədən geri qaldı. Xalam Zabella, iki məshəti türkü də bizimlə idi. Gedə bilmirdik. Fevralın 26-sı axşam anamın ürəyi partladı… Gözlərini özüm yumdum… Gedirdik. 27-si fevral dumanlı hava idi. Yenə gedirdik. Bilmirdik hara. 27-si fevral günorta 16 yaşlı bacım Lətafət dondu. Onun da gözlərini özüm yumdum… Bunları danışdıqca həmin anları təzədən yaşayıram.

Xəyalə kürəyimə şəllənmişdi. İnanırsınızmı, bu uşaqdan meşədə olduğumuz o 3 gün ərzində bircə dəfə də olsun səs çıxmadı. Elə bilirdim ölüb. Tanrının möcuzəsidir bu. Yaşyarımlıq uşaq meşənin şaxta-boranına 3 gün dözsün. Gedirdik məlum olmayan istiqamətlərə. Artıq Xəyaləni belə daşımağa gücüm çatmırdı. 28 fevralda atam dondu. Onun da gözlərini özüm bağladım…

Fevralın 28-də Dəhraz ya da Pircamal kəndinin yaxınlığında əsir götürüldük. İri bir dama gətirdilər bizi. Xəyalənin ağzından əmziyi çıxara bilmirdim. Uşaq əmziyi o qədər sormuşdu ki, əmzik nazilib ağzında ərimişdi. Sonra dəyişildik. Xəyalə şişmişdi. Özüm, uşaqlarım düz 5 ay Bakıda müalicə aldıq. 3 ay da İranda müalicə olunduq. Bacım Xədicənin ayaqlarını kəsdilər. İndi Xəyalə 11-ci sinifdə oxuyur».

***…Hərdən adama elə gəlir ki, bu körpə doğmalarının gözlərini bir-bir yuman anasının sitəmini duyub…***

---



Abdullayeva Xəyalə İlham qızı
indi Bakı şəhəri, Əzizbəyov
rayonu, Mərdəkan qəsəbəsi, Günəş
sanatoriyası, otaq 26-da qalır.
Tel: 554-25-63

# MƏNƏ O GÜNLƏRDƏN SUAL VERMƏYİN!



**ABDULLAYEVA VÜSALƏ İLHAM QIZI**

Təvəllüdü: 8 noyabr 1987-ci il
Doğulduğu yer: Xocalı

«O günləri xatırlamaq istəmirəm» deyib gülbalası Cəlalı qucağına alıb otağı tərk etdi. Anası Sənəm deyir ki, o gecə 5 yaşlı Vüsaləni xalası Xədicə qucağında gətirirdi. Və xalasının ayaqları kəsildiyindən Xəyalə özünü günahkar bilib əzab çəkir.

**Vüsalə, günahkar sən deyilsən!**



Abdullayeva Vüsalə İlham qızı indi Bakı şəhəri, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsi, Günəş sanatoriyası, otaq 26-da qalır.
Tel: 554-25-63

# «ANASIZ QALDIĞIMI SONRA BİLDİM»



**QULİYEVA (ƏZİZOVA) RAHİDƏ İBRAHİM QIZI**

Təvəllüdü: 8 sentyabr 1982-ci il
Doğulduğu yer: Xocalı

«Evdə idik. Yığışıb qaçmağa başladıq. Bacım Vəsilə məni çaydan

keçirdi. Meşədə anam əlimdən tutmuşdu. Sonra o, öz anası – Əzizə nənəmi görəndən sonra məni bibim Nərgizə verib dedi: «Rahidəni o tərəfdə səndən alacam». Özü isə xalalarımla birgə qoca anasına kömək etməyə başladı.

Aidə xalanın uşaqları Aytəkin, İlqar da yanımızda idi. Bir az getmişdik ki, Afilə müəllimənin ərinin ürəyi partladı. Afilə müəllimə, uşaqları - Azər, Ceyhun, Niyaməddin qaldılar. Biz getdik. Sonra atışma düşdü. Bibimlə qaçırdıq. Yanımda Həsənbalanın arvadı Pərvanəyə bilmirəm güllə haradan dəydisə, ağzından qan fışqırdı. Ayaqqabısı əlində idi. Ayaqqabının içi qanla doldu. Qorxub ağlayırdım. Həm də anamı istəyirdim. Elə bilirdim anam yanımda olsa, ölməyəcəm.

Dayım oğlu Səxavəti vurmuşdular. Nuridə xalanın kürəyində idi. Su istəyirdi. Hələ də onun səsi qulağımdan getmir. Səxavət öləndə çox pis oldum. Həmişə bir oynayırdıq… Şelliyə çatanda camaat bizə kömək etdi. Mübariz adlı bir kişi məni öz evinə apardı. Onun 5 oğlu vardı. Elə bilmişdi ki, meşədə bütün ailəmiz qırılıb. Axı, mən anamgildən ayrı qaçmışdım. Dedi: «Sən bu gündən oğlanlarımın bacısısan». Bir neçə gündən sonra atamın bacısı gəlib məni tapdı. Ermənilərin anamı meşədə öldürdüyünü xeyli müddət mənə demədilər. Dayım qızı Zərifə o biri otaqda anama ağı deyib ağlayanda eşitdim… Anasız olduğumu bildim».

***…Rahidəni o tərəfdə səndən alacam, amma özü gələ bilmədi...***



Quliyeva (Əzizova) Rahidə İbrahim qızı indi Bakı şəhəri, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsi, Günəş sanatoriyası, otaq 15-də qalır. Bir övladı var.

## DONMUŞ QIZIN HEKAYƏSİ



**ABIŞOVA ALİYƏ
EYVAZ QIZI**

Təvəllüdü: 18 iyun 1981-ci il
Doğulduğu yer: Xocalı

«… Biz lap arxa evdə yatmışdıq. Çöldəki evdən xəbərsizdik. Əmim Vəzir də bizdə idi. Qonşumuz Yelmar dayı qapını döydü. Əmimə nəsə dedi. Əmim bizə «geyinin, gedirik» dedi. Geyinib zirzəmiyə düşdük. Atəş səsləri əvvəlkilərdən fərqli idi. Xocalını artıq toplardan atəşə tuturdular. Zirzəmidə bir az gözləyib meşəyə qaçmaq qərarına gəldik. Zirzəmidə 25-30-a yaxın adam var idi. Qonşumuz Məhluqə xala, uşaqları İlqar, İlham, Sədaqət, İntizam, Vəzir əmim, uşaqları Samirə, Ruhiyyə, Orxan, Oqtay, əmim yoldaşı Məmləkət, Qiyas əmim, oğlanları Niyaməddin, Elmar, qonşumuz Moruq xala uşaqları ilə, Şuxəddin dayı və Zərif xalanın da uşaqları zirzəmidə idi. Səhər saat 6-ya qədər zirzəmidə qaldıq. Meşəyə getmək istəyirdik. Mümkün olmadı. Ermənilər bizi atəşə tutdular. Beş mərtəbəli binaya doluşduq. Orada adam lap çox idi. Bizimkilər beşmərtəbənin damında mövqe tutmuşdular. Ermənilər binaya girib bizi qıra bilmirdi. Yanımda Elşad adlı oğlan öldürüldü. Bizimkilərin patronu qurtardı. Beşmərtəbənin həyətində «Villis» vardı. Sonra bildim ki, o, Milli Qəhrəman Tofiq Hüseynovun «Villis»idir. Özünü qrantamyotla partladıb ki, əsir düşməsin. Bizi müdafiə edən döyüşçü Natiq qaçıb «Villis»dən çoxlu patron gətirdi. Axşama yaxın ermənilər atmadı. Beşmərtbədən çıxdıq. Meşəyə sarı qaçırdıq. Balaca bacım Aygünü anam belinə sarımışdı. O, növbə ilə gah mənə, gah da 6 yaşlı bacım Aynura kömək edirdi. Aygün anamın kürəyində «pəpə» deyib ağlayırdı. Yemək istəyirdi. Anam ağzına qar qoyurdu. Ayaqlarımızda ayaqqabı, corab yox idi. Cırılıb ayağımızdan çıxmışdı. Anam baş şalını cırıb Aynur və mənim ayaqlarıma bağladı. Bir azdan şal da cırıldı. Ayaqlarım buz bağlamışdı. Hiss etmirdim. Ayağımın altına bərkimiş qar yapışmışdı.

Ağırlıq gətirirdi. Yerimək olmurdu. Meşədə yol boyu çoxlu pal-paltar, ayaqqabı, papaq görürdüm. Bir yerdə çoxlu meyitlər gördüm. Birinin başının dərisini soymuşdular. Bir körpə uşaq vardı. Onun gözlərini çıxarmışdılar. Döşü kəsilmiş bir neçə qadın meyidi gördüm. Meyitlər qurumuşdu. O qurumuş meyitlər heç yadımdan çıxmır.

Bir də 6 yaşlı bacım Aynurla 16 yaşlı əmim qızı Samirə meşədə azdılar. Elə duman idi ki, onları tapa bilmirdik. Anam ağlayırdı. Ucadan səsləyib çağıra da bilmirdik. Ermənilər yerimizi bilərdi. Dəstəmizdən olan bir kişi bir neçə saatdan sonra onları tapdı. Sonrakı hadisələri xatırlamıram. 3 gün meşə ilə yol gələndən sonra Naxçıvanik yaxınlığında donmuşam…

Ayılanda gördüm bir evdəyəm. Bakıda xəstəxanada uzun müddət müalicə aldım. Bir dəfə həkim iynəni ayaqlarıma batıranda dedi ki,

---

Abışova Aliyə Eyvaz qızı indi Naftalan rayonu,
Qarabağ sanatoriyası, 15-ci korpus, otaq 131-də qalır.
Xocalı 1 saylı şəhər məktəbində müəllimədir.
Tel: (+02-55) 2-10-05 (ev)
(050) 425-08-78 (mob)



*Toy günündə Xocalı soyqırımı abidəsi önündə and içmək Xocalı gənclərinin artıq ənənəsinə çevrilib.*

# SAÇINI GÜLLƏ SIĞALLAYAN OĞLAN



**HÜSEYNOV RAMİN KAMİL OĞLU**

Təvəllüdü: 27 sentyabr 1979-cu il
Doğulduğu yer: Xocalı

«Öz evimizdə idik. Tank uğultusu gəlirdi. Noraguh tərəfdən dəhşətli atəş açıldı. Atamın xalası Qumrugilə getdik. Alt mərtəbəyə dolmuşduq. Elbrus dayı gəldi ki, «Nə oturmusunuz, ermənilər şəhərə dolub». Evdən «pekarnı»nın yanına qaçdıq. Adam çox idi. Oradan meşəyə getmək qərara alındı. Anam Məlahət, bacılarım 7 yaşlı Maral, 8 yaşlı Gülnar, 9 yaşlı Səadəti yanına çəkmişdi. Çayı keçmişdik ki, atam bizi tapdı. Camaat çayı keçəndən sonra qərara alındı ki, kişilərin yarısı qadın və uşaqları meşədən keçirib Ağdama aparsın, yarısı da geriyə – Xocalının müdafiəsinə döyüşə qayıtsın. Atam döyüşə qayıtdı. Biz meşənin içərilərinə girdik. Meşədə atışma düşdü. Pərən-pərən olduq. Anam, bacılarım Maral və Gülnarla bir, mən isə Səadətlə ayrı düşdüm. Bir-birimizin əlini möhkəm tutmuşduq. Tanımadığımız bir qadın bizi öz yanına çağırdı. Tez-tez deyirdi: «Məndən ayrılmayın». Biz onun yanınca gedirdik. Kalonnanın ucu-bucağı yox idi. Xeyli getmişdik ki, əmim Aleksandr bizi tapdı.

Bir uşaq anasının qucağında ölmüşdü. Orada adamın üzünə baxırdın, tanımırdın. Habuki, əvvəllər onu tanıyırdım. Şaxtanın və aclığın əhdini kəsdiyi, üstəlik də göydən dolu kimi yağan güllənin dəhşətindən heç nə düşünmək olmurdu. Əvvəlki atışmaların birində bir qadınla qayadan aşağıya yuvarlanmışdım. Qar örtüyü o qədər qalın idi ki, ancaq dizim əzilmişdi. Həm də kollara ilşirdik deyə, dərənin dibinə getmədik. Bir 10 dəqiqədən sonra əmim oğlu Habil məni səsləməyə başladı. Bizi tapıb kömək etdi. Yenidən bir yerə yığıldıq. 3-4 qadın orada ölmüşdü. Bilmirəm, ürəkləri partlamışdı, yoxsa güllə dəymişdi. 26-sı səhər yenə atışmaya düşdük. Milli Ordunun əsgəri Aqil Quliyevi xərəkdə yaralı gətirirdilər. Həmin atışmada o da öldürüldü. Ölən öldü, Ağdama tərəf keçə bilən keçdi, qalanı yenidən meşəyə çəkildi. Ağdama düzgün istiqamət üstə mübahisə düşdü. Dəstə 2 yerə bölündü. Biri üzü aşağı Ağdama, biri üzü Əsgərana. Biz mühasirəyə düşdük. Qaraqaya deyilən

yerdə iki dağın arasına çatmışdıq ki, göydən güllə dolu kimi töküldü. Bir pulemyotu qayanın, birini isə maşının üstə quraşdırmışdılar. Maşın dağın ətəyi ilə hərəkət edirdi. Üstdən bizi biçirdilər. Qaçırdıq. Bayaq dediyim kimi, düşünmək belə mümkün deyildi. Gödəkçəmin düymələri açılmışdı. Hər iki tərəfə yellənən gödəkçəm deşik-deşik olmuşdu. Sağ qalmağım Tanrının möcüzəsidir. Gödəkçən yanlardan deşik-deşik olsun, saçını güllə yandırsın, qulağının dibində güllə vıyıldasın sən sağ qal.

Yaşadığım o günü xatırlayanda aldığım havaya da nifrət edirəm. Meyitlərin arası ilə sürünürdüm. Yaralananlar çox idi. Hələ ölməmişdilər. Zarıyıb yalvarırdılar ki, kömək et. Nə kömək?! Kim kimə kömək edə bilərdi ki? Əmim Aleksandr meyidi qaldırıb altına girdi. Ağdam tərəfdən bizə köməyə gəldilər. Əgər kömək olunmasa idi, bir nəfərimiz də sağ qalmayacaqdı. Sürünə-sürünə Şelliyə çatdıq. Ayaqlarımın altı tikandan deşik-deşik olmuşdu. Ağdam xəstəxanasında o qədər yaralı var idi ki, heç mənə sarı baxmadılar da. Mən yüngül xəstə sayıldım. Halbuki, ayaq barmaqlarımda bir dənə dırnaq qalmamışdı. Kol-kos, daş-qaya aparmışdı. Qəribədir, ağrı hiss etmirdim. Artıq qorxmurdum da. Atışmada yanımda beyni partlayan, başı iki yerə ayrılan adamdan elə qorxmuşdum ki, ondan qorxulu bir şey görməyəcəkdim ki?.

Bizi Bərdəyə babamgilə gətirdilər. 3 gündən sonra bildim ki, anam Məlahət ağır yaralıdır. Bakıya xəstəxanaya aparıblar. Əmim babama balaca qız – Maralın meşədə öldüyünü deyəndə eşitdim. 7 yaşlı bacımın meyidi meşədə qalmışdı. Atam Kamil 6 ay girov qaldı.

Bir də Xocalıdan çıxanda dağın başında çevrilib şəhərə baxmışdım. Xocalı alışıb yanırdı. Xocalının yanmağı gözümün qabağından getmir. Bu hadisələri danışanda çox pis oluram. Həmin gecə yaşadığım sarsıntıdan mən hərbi xidmətə yararsız hesab olundum».

***… Gödəkçəsi deşik-deşik, saçı güllə sığallı oğlan təkcə aldığı havaya nifrət edirmi?!***

---



Hüseynov Ramin Kamil oğlu
indi Bakı şəhəri, Əzizbəyov
rayonu, Mərdəkan qəsəbəsi,
Günəş sanatoriyası, otaq 26-da
qalır. Bir övladı var.
Tel:454-26-02

# HƏRDƏN AYAQQABI DA ADAMA YÜK OLUR



**HÜSEYNOV ANAR ƏLÖVSƏT OĞLU**

Təvəllüdü: 21 mart 1985-ci il
Doğulduğu yer: Xocalı

«… Atam həyətimizdə sığınacaq tikmişdi. Orada idik. Fevralın 25-i saatt 11 radələrində qonşumuz Ramiz gəldi ki, bəs ermənilər şəhərə girib. Fabrik tərəfdən bizi güclü atəşə tutmuşdular. Atam evə qaçıb, balış üzünün içərisinə bir-iki isti paltar, bir də bir çörək atıb gəldi. Ürəyim itimiz Kozbinin yanında qaldı. Biz evdən çıxanda az qala adam kimi yalvarırdı ki, onu da götürək. Atam onu açmadı ki, meşədə hürər, yerimizi bildirər. Qarqar çayına çatanda atam məni qucağına, 5 yaşlı bacım Rəvanə anamın belinə şəllənmiş şəkildə onu da kürəyinə alıb bizi çaydan keçirdi. Arada az qaldı yıxılsın. Çayın qırağında Ağdama düzgün istiqamət üstündə fikirlər parçalandı. Bizim dəstəyə atam, bir də Hümbət dayı başçılıq edirdi. Onlar meşədə ov etdiklərindən meşəni yaxşı tanıyırdılar. Digər dəstə isə səhv olaraq Xankəndi istiqamətinə getdi. O dəstədə gedənlərin çoxundan xəbər çıxmadı.

Ayaqqabıma qar dolmuşdu. İçi cumcuma su idi. Ağırlaşmışdı. Yeriyə bilmirdim. Ayaqqabılarımı çıxardım. Atam götürdüyümüz paltarlardan cırıb ayaqlarımı sarıdı. Atam o bir çörəyi də çox xırda-xırda kəsib mənə və dəstədə olan uşaqlara payladı. Həm də hamıya tapşırırdı: «Çörəyi yeməyin, ağzınızda sorun». Xocalı faciəsindən 1-2 gün qabaq boğazımın artıq ətini çıxarmışdılar. Evdə ancaq süd içirdim. Anam dönə-dönə tapşırdı ki, birdən qar yeməyəsən ha. Oğrun-oğrun qar yeyirdim. Susuz idim. Dözə bilmirdim. Gecə keçdi. 26-sı fevral bütün günü yol getdik. Axşama yaxın dedilər ki, ocaq qalıyın, isinək. Donurduq. Əvvəl istəmədilər. Sonra ocaq yandırdılar. Ocağın qırağında başımı atamın dizinin üstünə qoyub isinəndə birdən yuxu tutub ocağa yıxılmışam. Yanan paltarlarımı tez qarla söndürdülər. Bir az dincəlib yolumuza davam etdik. Dağın

təpəsinə qalxıb hamar yerə çıxdıq. Atam lap qabaqda gedirdi. Mən də yanında idim. Qarşıda 4 nəfər silahlı erməni gördük. Atam tez əli ilə arxadakılara işarə etdi ki, geriyə - dərəyə tökülün! Dəstə geri qaçdı. Atamla Hümbət dayı hərəsi bir ağacın altında gizləndi. Anam Naidə dəstə ilə qaçmadı. Atama sarı gedəndə Hümbət dayının 19-20 yaşlı oğlu Eldar anamı aşağı itələdi. Anama nişan alınmış güllə Eldarı tutdu. Yerindəcə qaldı. Bu zaman atam ağacın arxasından çıxmaq istəyəndə Hümbət dayı çox sakitcə işarə etdi ki, tərpənmə! Özü də heç qımıldanmadı. O zaman bu soyuqluqdan dəhşətə gəlmişdim. Sən demə, yaşamaq eşqi çox güclü imiş. Hümbət dayı 10-15 gündən sonra gedib oğlunun meyitini gətirdi.

Bizdən əvvəl gedən anam ağaca ilişmişdi. Meşə ağacının iti tirəsinin bir tərəfində anam, o biri tərəfində bacım Rəvanə şələkli qalmışdı. Nə qədər etdim, aça bilmədim. Əllərimə tikan batırdı. Həm də donurdum. Atam gəlib açdı. Yavaş-yavaş dərəyə enirdik. Birdən anam bacım Rəvanəni belindən açıb şələ qarışıq yerə tulladı. Dedi: «Daha aparmıram, qoy qalsın! Taqətim yoxdur!» Məni ağlamaq tutdu. Tez qaçdım bacımın yanına «Bəs mənim bacım kim olacaq?» dedim. Atam gülə-gülə mənə baxıb Rəvanəyə yaxınlaşdı. Dedi: «Qorxma, bacını mən aparacağam». O, Rəvanəni belinə şəllədi. Əlində də xeyli yük vardı. Sonralar atamın o zaman mənə gülə-gülə baxmağını heç cürə unuda bilmədim. O gülüşü ha təhlil edirəm, bir şey başa düşmürəm. Gedirdik. Artıq anam da yeriyə bilmirdi. Tez-tez atamdan soruşurdum: «Çatmırıq?» Deyirdi: «Bu dağı aşaq, çatacağıq». Amma çatmırdıq. Mən dübarə soruşanda, o da o biri dağları bir də göstərirdi.

Dəstəmiz artıq Abdalgülablıya çatmışdı. Ön hissə kəndin girəcəyində idi. Atam, anam da kəndin girəcəyində idilər. Mən onlardan bir az arxada gedirdim. Bir xırda təpə vardı. Elə onun üstünə çıxmışdım ki, güllə yağışı başladı. Çaşıb təpənin üstə ora-bura qaçmağa başladım. Atam qaça-qaça geri gəlib, məni vurub təpənin yanındakı xəndəyə saldı. Hümbət dayı da arvadı ilə orada gizlənmişdi. Atam da yanımıza yuvarlandı. Xəndəyi atəş tutmurdu. Bir də baxdıq başımızın üstə ermənilər. Bizi əsir götürdülər. Bilmirəm toy evi idi, nə idi. İçəridə peç də vardı. Amma peç yanmırdı. Oturacaq stulları yox idi. Ev əsir götürülənlərlə dolu idi. Orada cavanları, indi mən

yaşda olanları, bir də ondan böyükləri seçib apardılar. Milli Ordu paltarında olanlardan bir nəfər də yox idi. Anamın qulağından sırqalarını açmaları elə bil bu saat baş verib. Bir çini vedrəyə camaatın qızıl, pullarını yığırdılar. Qızılları yığan erməni anamın sırqalarını şalvarının qabaq cibinə qoydu. İki gündən sonra dedilər ki, sizi buraxırıq. İnanmadıq. O damdan çıxanda 2 cərgəyə düzüldük. Birində qadın, uşaq, ikincidə kişilər. Atam 3 yaşlı bacım Rəvanəni qucağında tutmuşdu. Zülfü dayı vardı. O da məni tez qucağına aldı ki, bəs oğlumdur. Anası meşədə ölüb. Mən də başladım ki, hə anam meşədə ölüb. Yalan danışdığımı bilirdim. Amma yalan danışırdım ki, Zülfü dayını aparıb öldürməsinlər.

Biz Abdalgülablıya gəldik. Bir kişi «Villis» maşınının içinə çoxlu çörək, kolbasa yığmışdı. Əsirlərə paylayırdı. Mən də yedim. Sonra bizi xəstəxanaya apardılar».

***...Hərdən sağ qalmaq üçün yalan həqiqətdən üstün olur. Ancaq bu, müqəddəs yalandır.***

---



Hüseynov Anar Əlövsət oğlu
indi Naftalan rayonu, Qarabağ
sanatoriyası, korpus 14, otaq 19-da
qalır. Tələbədir.
Tel: (+02-55) 2-18-02 (ev)
(050) 451-24-51 (mob)

# ERMƏNİLƏR İNSAN OVUNA ÇIXMIŞDILAR



**QASIMOV SALMAN MƏHƏMMƏD OĞLU**

Təvəllüdü: 6 avqust 1977-ci il
Doğulduğu yer: Xocalı

«Çoxdan bəri həyəcanlı günlər yaşayırdıq. Xocalıda son döyüş olacağına inanmaq istəmirdik. Xocalını noyabrdan bəri başlanmış mühasirəsinin yarılacağına çox inam bəsləyirdik. Hər şey anidən oldu. Dörd tərəfdən əsas hədəflər müxtəlif çaplı silahlardan güclü atəşə tutuldu. Sonra ağır texnika şəhərə yeridildi. Evimizin qabağında müdafiə postu qurulmuşdu. Birinci istehkamlar vuruldu. Evdən qaçdıq. Dəmir yolunun altında su kanalı vardı. Təbii istehkam idi. Orada atəşdən qorunduq. Xeyli qalası olduq. 2-3 saat deyə bilmərəm. Ağır texnikanın uğultusu bizi şəhərin sıldırım qayalıqlarına tərəf çəkilməyə məcbur etdi. Çıxmaq istəmirdik. Elə bilirdik, təyyarə ilə köməyimizə gələcəklər. Heç nədən ümid axtarırdıq. Həftələr idi paltar soyunub, yatmaq söhbəti yox idi. 2-3 şalvarı üst-üstə geyinirdik. Əsas evdə yatmırdıq. Zirzəmidə yaşayırdıq. Dözdüyümüz zülm hədər getdi. Xocalını tərk etdik. Birdən fikirləşdim ki, bizi uzun bir yol gözləyir. Nazimgilin evinin yanından keçəndə girib çörək götürdüm. Qapı açıq idi. Onsuz da Xocalıda bütün qapılar açıq idi. Dəmir yolu körpüsünün altından meşəyə girdik. Çayı keçəndə ayağım islanmışdı. Sulu çəkmə ayağımı incidirdi. Gendərəyə sarı gedirdik. Kətik meşəsinin ən sıldırım qayalığıdır. Başqa vaxt qadınları məcbur etsən, o sıldırıma qalxmazdı. Elə qalxırdılar ki. Sən demə, yaşamaq eşqi insana güc gəlir. Gendərənin başına çatanda ermənilərin atəşinə tuş olduq. Hümbət kişinin oğlu orada öldürüldü. Meyidi qaldı. Meyidin üstünü ağac şaxları ilə örtdü ki, sonra gəlib meyidi aparsın. Özlüyümüzdə Gülablı istiqamətinə getməyə başladıq. Bircə dərdimiz vardı - qadınlar əsir düşməsin.

Gülablıya çataçatda erməni mövqelərindən güclü atəşə tutulduq.

Ermənilər gəldiyimizi bilib, qabaq dəstədən 20-30 nəfəri buraxıb dəstənin tən ortasını nişan alırdılar. Bizimlə bir məshəti türkü vardı. Abdulla. Ailəsindən ayrı düşdüyündən yaman narahat idi. Öldürüldü. Mərkəz yaralı-yaralı yarıoturaq ağaca söykənmişdi. Kömək istəyirdi. Amma susurdu… Çünki bilirdi ki, kömək mümkün deyil. Atışmada anamdan, qardaşlarımdan ayrı düşdüm. Sonra tapışdıq. Atəşdən canını qurtaranlar geriyə - meşənin içinə çəkilirdi. Təxminən 300-dən çox adam olardı. Abdalgülablının hansı istiqamətdə olması barədə fikirlər haçalandı. Dəstə 2-3 yerə bölündü. Hər dəstə özlüyündə doğru yol seçdiyini güman edirdi. Allaha pənah deyib yola düşdük. Bir yerdə yenə atışmaya düşdük. Atam bizdən ayrıldı. Elə bildik atamız ölüb. Xalam yoldaşı Malik yaralandı. Meşənin ortalarına çəkildik. Artıq sayımız 50 nəfərə enmişdi. Ermənilər tula ilə bizi axtarırdılar. Elə bil ova çıxmışdılar. İnsan ovuna.

Bizdə silah az idi. Silahlıların da patronu qurtarmaq üzrə idi. Elə adam vardı daima əli tətikdə idi ki, birdən əsir götürüləndə dərhal özünü vursun. Qəribə bir məqamı yadımdan çıxara bilmirəm. Meşədə bir erməni anidən pulemyotu bizə tuşladı. Pulemyot açılmadı. İkinci dəfə doldurmaq istəyəndə dəstəmizdəki Süleyman onun ayaqlarının altına qrantamyot atdı. Qrantamyot da partlamadı. Bu zaman böyük qardaşım Bayram boş tüfəngi erməninin üstünə çəkib dedi: «Görürsən ki, pulemyot açılmadı, qrantamyot partlamadı. Burada əksəriyyət qadındır. Səni öldürmürəm, çıx get!». Erməni getdi. Bir azdan çoxlu yaraqlı ilə gəldi. Biz artıq yerimizi dəyişib gizlənmişdik. Axşam toran düşəndə 50 nəfərlik dəstə də parçalandı. Qaryağdı dayı qardaşı Tahirlə, Samson da bacısı uşaqları ilə birgə dəstədən ayrıldı.

Qaldıq 11 nəfər.

Bilmədiyimiz istiqamətlərə hərəkət edirdik. Bəlkə, bir tərəfə çıxaq. Dəstəmizdə Rafiq, Tofiq adlı 2 qardaş vardı. Xocalıdan bəri analarını çiyinlərində gətirirdilər. O, yeriyə bilmirdi. Onu Gendərə qayasının başına da 2 qardaş çıxarmışdı. Yolda anaları dondu… Yerə qoydular. Bilmirdilər neyləsinlər. Analarını meşədə qoyub qurd-quşa yem etmək istəmirdilər. Dörd bir tərəfdə çaqqal, canavar ulaşırdı. Biz o tərəfə gedən saatı meyidi parçalayacaqdılar. Basdırmaq da mümkün deyildi. Yer şaxta, vaxt yox. Qardaşlar seçim qarşısında qalmışdılar. Nəhayət, dəstə onları başa sala bildi ki, meyidi qoyub getməliyik.

Rafiq paltosunu çıxarıb anasının meyidinin üstünə atdı.

10 nəfər qaldıq.

Meşəni dolaşırdıq. Birinci atışmada yaralanmış Malik dayının ayaqlarından qan axırdı. O, dünyasını dəyişdi. Üstünü ağac şaxları ilə örtdük. Hələ yaralı ikən, mənə demişdi: «Salman, elə eləyin Həbib - oğlum yetim olduğunu hiss etməsin». Bu söhbətimizi indiyəcən heç kimə deməmişəm. O, öləcəyini bilirdi.

Artıq 9 nəfər idik. Yolumuza davam edirdik. Neçənci gündür bilmirdik. Aclıq hiss etmirdim. Görünür alışmışdım. Ancaq susuzdum. Gedirdik. Gedir-gedir, hərlənib fırlanıb Malik dayının meyidini qoyduğumuz yerə gəlib çıxırdıq. Bu hadisə 2-3 dəfə təkrar olundu. Sanki meyit «məni qoyub getməyin» deyirdi. Bu dəfə tamam başqa istiqaməti seçdik. Gecələr yol gedir, gündüzlər gizlənirdik. Bir dağın başına çatanda bir dəstə Xocalı sakininin girov götürülüb aparıldığını gördük. Dəstənin ucu-bucağı yox idi. Gecələrin birində erməni kəndinin yaxınlığında idik. Böyük qardaşım Bayram, bir də meşədə anası ölən Rafiq kəşfiyyata getdilər ki, buradan necə keçək, girov düşməyək. Onlar gedəndən bir az sonra kənddə qışqırıq düşdü. Elə bildik, onları əsir götürdülər. Tez yerimizi dəyişdik. Bayramgil Ağdamın yolunu dəqiqləşdirib geri dönəndə bizi tapmayıblar. Gözləməyin mənasız olduğunu görüb Ağdamın Muğanlı kəndinə keçiblər.

Biz 7 nəfər qaldıq

Mirvari xala ilə qardaşı bizdən ayrıldı. Çünki biz yerimizi dəyişsək də, qardaşım Bayramgili gözləmək qərarında idik. Sübh tezdənə kimi gözlədik. Gəlmədilər. Qeyri-müəyyən istiqamətdə yolumuza davam etdik.

Artıq 5 nəfər idik

5-ci ya 6-cı gün idi. Gecələrin birində uzaqdan hansısa kəndin yanan işıqlarını gördük. Qardaşım Ənvər, bir də Tofiq kəşfiyyata getmək istədi. Dedilər: «Qayıtmasaq, buradan uzaqlaşın!». Sona xalam hay-küy salıb qoymadı. Meşənin içərilərinə doğru çəkildik. Bu minvalla Xocalının şərqindən çıxıb, dağ-dərə ilə başına fırlanıb şimalına gəlib çıxdıq. Bozdağa çıxanda tanıdıq. Kəndlərdə yanan azərbaycanlı evlərinin tüstüsü hələ çəkilməmişdi. Artıq bezmişdim. Oturdum. Dedim getmirəm. Anam Həcər də yanımda oturdu. Məni

qoyub gedə bilmirdi. Qardaşım Ənvər 5-10 metr gedib geri qayıtdı. Dedi: «Salman, qalx gedək!». Dedim: «Getmirəm!». O mənim başıma bir qapaz vurdu. Dedim: «Əgər bir də vursan, çığıracam!». Ənvər çarəsiz qalıb razılaşdı. Bir az dincəldik. Bir dəfə Bozdağın başında hiss etdik ki, ətrafımıza canavar yığışır. Anam çəkməsinin boğazını kəsib yandırdı ki, canavar oddan qorxub qaçsın. Bozdağın başında başqa bir məqam da yadımdan çıxmır. Qardaşım Ənvər yerdən bir fındıq tapıb qırıb tez ağzına qoydu. Birdən mənim məzlum-məzlum ona baxdığımı görüb fındığın yarısını ağzından çıxarıb «Qaqa, al, bu da sənin» dedi. Susuzluğumuzun həddini təsəvvür etmək mümkün deyil. Nə qədər qar yesək də susuzluğumuz keçmirdi. Nə vaxtsa maşın keçən yerdən təkərlərin iz yerinə yığışan suyu içdik. Elə bil cənnətdə idik. Gedirdik. Sonralar biləcəkdim ki, bu, 12-ci gündür. Ağdamın Qarağacı qəbirstanlığına çatdıq. Artıq gedə bilmirdik. Novruz bayramı ərəfəsi idi. Bəzi məzarların üstə səməni vardı. Adətən bu zaman  məzarların üstə səməni ilə yanaşı şirniyyat da aparardılar. Başladım məzarların üstünü axtarmağa, bəlkə yeməyə bir şey tapam. Heç nə tapmadım. Hirsləndim ki, «Niyə bura bir şey qoymayıblar. Bilmirdilər ki, biz gəlcəyik?.

Gecə qəbirtsanlıqda qaldıq. Yatmışıq. Səhər açılanda qalxmaq istədik. Üstümüzə əl qalınlığında qar yağmışdı. Qalxa bilmədik. Təkcə Tofiq ayağa qalxa bildi. O, yaxınlıqdakı kəndə gedib xəbər verməli idi. Onu anda verdik ki, əgər erməni kəndi olsa, yerimizi deməsin. Qoy, burada ölək. O getdi. Bir azdan üstümüzü silahlı adamlar kəsdi. Qatır Məmmədin dəstəsindən idilər. İnanmırdıq. Bizi Qatır Məmmədin qərargahına gətirdilər. Onun gözləri böyüdü. Qışqırırdı: «Baxın, baxın görün ermənilər bizim uşaqları nə günə qoyub? Sizin ananızı ağladacayıq», deyə ermənilərin ünvanına söyüş söydü. Hamımız şişmişdik. Paltarları, ayaqqabılarımızı əynimizdən kəsib çıxardılar. Ağdam xəstəxanasına gətirildik. O zaman hər bir Xocalı sakini xəstəxana, meyitxana, məscidlərdə öz doğmalarını axtarırdı. Qardaşım Hüseyn xəstəxanada çarpayımın yanına çatanda sevindim. Üzümə baxa-baxa keçdi. Məni tanımamışdı. Tanınmaz idim. Heyim də yox idi ki, onu çağırım.

Bizi təyyarə ilə təcili Bakıya – Musa Nağıyev adına xəstəxanaya köçürdülər. Anam Həcər, xalam Sona, qardaşım Ənvər, qonşumuz

Tofiq və mən düz 4 ay müalicə aldıq. Hamımızın ayağını dizdən aşağı kəsmək istəyirdilər. Orada bir cavan həkim vardı – Nuru Bayramov. O, bizim həyatımızı xilas etdi».

***.....Ölümdən o tərəfki dünyanı yaşamış bu oğlanın xatirələrindən qan iyi gəlir!...***



Qasımov Salman Məhəmməd oğlu indi
Naftalan rayonu, Goran sanatoriyası,
korpus 7, otaq 7-də qalır.
Tel: (050) 677 - 19-77

## ANAMA YAZIĞIM GƏLİRDİ



**ABIŞOV SADİQ
BƏHMƏN OĞLU**

Təvəllüdü: 17 noyabr 1979-cu il
Doğulduğu yer: Xocalı

«Həmin gecə evdə idim. Atışmanın şiddətləndiyini görüb Rəhim dayıgilin zirzəmisinə qaçdıq. Orada xeyli gözlədik. Uğultudan şəhərə atılan raketlərin səsindən adamın qulağı tutulurdu. Hamı həyəcanlı idi. Çünki bu dəfəki atışma həmişəki atışmaya bənzəmirdi. Zirzəmidə 1-2 saat qaldıqdan sonra əvvəl meşəyə getmək istədik. Meşə istiqamətindəki yolda gülllədən dəbərmək olmurdu. Yaxınlıqdakı beşmərtəbəli binaya doluşduq. Fevralın 26-sı axşama kimi orada qaldıq. Sonra qərara alındı ki, Kətik meşəsinə girib Ağdama səmt qaçaq. Anamın əllərindən tutmuşdum. Anam ayaqyalın idi. Evdən çıxanda ayaqqabı geyinməmişdi. Ona yazığım gəlirdi. Yer də dizəcən

qar idi. Biz dəstənin qabağında idik. Şumluq deyilən yerdə atışmaya düşdük. Yadımdadır, bir qadının uşağı kürəyində ölmüşdü. O, oğlunu kürəyinə bağlamışdı. Sinif yoldaşım Elnarəyə kömək etməyimi də xatırlayıram. Onun qardaşı Zahid şəhid olmuşdu. Anası da yox idi. Elnarə yıxıldı. Onu durğuzdum. Bizimlə qaçırdı. Bizi Qaraqaya deyilən yerdə atəşə tutmuşdular. Orada ölənlər çox oldu. Uşaq idim. Çoxunu tanımırdım. Ancaq Əlif Hacıyevi tanıyırdım. O da həmin atışmada öldürüldü. Bir də Natiq yadımdadır. O, beşmərtəbədən döyüşə-döyüşə bizi çıxarmışdı. Qaraqayada yaralandı. Yaralı qaldı… ».

***…Dirilər olmasa, ölənləri heç kim xatırlamaz. Vəhşicəsinə öldürülənləri xatırlamaq üçün mütləq yaşamaq, özü də uzun yaşamaq lazımdır.***

---



Abışov Sadiq Bəhmən oğlu indi Naftalan rayonu, Qarabağ sanatoriyası, 10-cu korpus, otaq 217-də qalır.
Tel: (+02-55) 2-27-04 (ev)
(055) 764-74-79 (mob)

## DANIŞA BİLMƏYƏN ADAM



**ƏHMƏDOV TURAL**
**ARİF OĞLU**

Təvəllüdü: 24 avqust 1982-ci il
Doğulduğu yer: Xocalı

Danışmaq istəmədi. Hadisələrdən çox sarsılmışdır.



Əhmədov Tural Arif oğlu indi Naftalan rayonu, 10-cu korpus, ev 327-də qalır. İki övladı var.
Tel: (+02-55) 2-11-28

## YAŞYARIMLIQ ŞAHİD



**SƏLİMOV İLQAR**
**ARAZ OĞLU**

Təvəllüdü: 30 iyun 1989-ci il
Doğulduğu yer: Xocalı

Təbii heç nə xatırlamır. Anası Ələkbərova Aidə: «İlqar yaşyarımlığında idi. Qucağımda idi. 5 yaşlı Aygünlə, 6 yaşlı Aytəkin də yanımda. Yoldaşım Xocalının müdafiəsində idi. Heç bilmirdim nə edim. İlqarı kürəyimə şəllədim. Elə aparmaq daha rahat idi.

Ağlayanda da kiridə bilmirdim. Xeyli getmişdik. Səhərə yaxın atışma düşdü. Bacım Zərifə yanımda öldürüldü. Gözüm böyüdü. Bacımın qızı Vəsilə, anam özlərini meyidin üzərinə atdılar. Mən də meyitdən ayrıla bilmirdim. Bizi bacımın meyidindən Rəhimov Vidadi araladı. Çünki atışma getdikcə şiddətlənirdi. Xəndəyə girdik. Xəndəkdə meyit çox idi. Aslanov Qulunu xəndəkdə yaralı gördüm. Sonra ondan xəbər olmadı. Biz xəndəyin içi ilə geri – meşəyə sarı qaçdıq. 26-sı fevral təxminən saat 12-dən axşam saat 5-ə kimi Kətik meşəsində kolluğun altında gizləndik. Tərpənmirdik. Qarın üstə həm də həyəcandan pal-paltarımız tamam su idi. Qarqarı keçəndə də islanmışdıq. Ağdamdan Milli Ordunun əsgərləri köməyimizə gəlməsəydi, yəqin ki, oradaca donacaqdıq. Əsgərlərin köməyi ilə Şelliyə gəldik. Orada 5 yaşlı qızım Aygünü itirdim. 4-5 gün meyitxanaları gəzdim. Deyirdim ki, Aygünün ölüm xəbərini gətirəni qucaqlayıb öpəcəm. Ana da belə şey deyərmi? Fikirləşirdim ki, körpəm meşədə tək-tənhadır, havalanırdım. Ölmüş olsaydı, axı qorxmazdı. Bu əzabları ermənilər yaşatdı bizə. Bir həftədən sonra Aygün bibisigillə girovluqdan azad olunanda bildim ki, o sağmış. İlqarı, Aygünü, Aytəkini bir neçə ay müalicə elətdirdim. Möhkəm soyuqlamışdılar».

***...Sən Azərbaycanın Milli Qəhrəmanının oğlusan, İlqar! Yaddaşına hər şeyi həkk elə!***

---

Səlimov İlqar Araz oğlu indi
Naftalan rayonu, Şirvan
sanatoriyası, mənzil 463-də qalır.
Xocalı şəhər 1 saylı orta məktəbin
11-ci sinfində oxuyur.
Tel: (+02-55) 2-25-53



## AL QAN İÇİNDƏ OLAN BİBİM YADIMDAN ÇIXMIR



**SƏLİMOVA AYTƏKİN**
**ARAZ QIZI**

Təvəllüdü: 22 yanvar 1986-cı il
Doğulduğu yer: Xocalı

«Yadıma çox az şey gəlir. Çayı keçəndə ayaqqabılarım suya düşdü. Meşədə xalam öldü. Nənəm, anam ağlayırdı. Bir də ən çox o yadımdadır ki, kolun dibində gizlənmişdik. Bizi Azərbaycan dilində çağırdılar ki, gəlin, biz azərbaycanlılarıq, sizə köməyə gəlmişik. Sevindik. Qabaqda Xumar bibimgil getdi. Ermənilər onlara qrantamyot atdılar. Orada ölənlər oldu. Amma xatırlamıram kimlərdir. Xumar bibimin al qana boyanması gözümün qabağından getmir. Sonra bacım itmişdi. Hey axtardıq. Ağdama getməyimiz də yadımdadır. Məni bir oğlan qucağına alıb evlərinə apardı. Paltom tamam su idi. Onların evində mənə ayrı paltar geyindirdilər».

***…İslanmış paltarı dəyişmək olur, amma sınmış ürək düzəlmir!***



Səlimova Aytəkin Araz qızı indi Naftalan rayonu, Şirvan sanatoriyası, mənzil 464-də qalır.
Tel: (+02-55) 2-21-21

# KİŞİLƏRİ SEÇİB APARDILAR



**ƏHMƏDOV XƏYAL ARİF OĞLU**

Təvəllüdü: 25 avqust 1985-ci il
Doğulduğu yer: Xocalı

«Gecə evdən qaçdıq. Bacım Arifəni anam götürmüşdü. Mən özüm gedirdim. Hər yan qar idi. Adam çox idi. Gecə meşədə qaldıq. Bir kəndə yaxınlaşanda atışma düşdü. Yadımda, orada Zəhra xalanı öldürdülər. Sonra da Mehdini. Qonşuluğumuzda bir məhsəti türkü var idi, üzdən tanıyırdım, adını bilmirdim, onu öldürdülər. Biz əsir düşdük. Sonra bildim ki, həmin kənd Dəhraz kəndi olub. Bizi iri bir dama doldurdular. Milli Ordu paltarı geymiş kişiləri seçib apardılar. Məni orada döyən olmadı. Bizə buğda verirdilər. Çiy kartof da verirdilər. Bir dəfə bir erməni arvadı mənə peçenye də gətirmişdi. Anamın, bütün qadınların qızıllarını yekə bir vedrəyə yığmaqları da yadımdadır. Sonra bizi dəyişdirdilər. İki sıraya düzüldük. Orada yenə kişiləri seçib apardılar. Bizi Ağdama gətirəndə çoxlu camaat qarşıladı».

***…Ölümdən qurtulanları qarşılamaq də bir dərddi, qardaşım!***



Əhmədov Xəyal Arif oğlu
indi Naftalan rayonu,
Qarabağ sanatoriyası, 10-cu
korpus, ev 317-də qalır.
Tel: (+02-55) 2-11-28

# BÖYÜYƏ BİLMƏYƏN COCUQ…

**ABIŞOV MƏHƏMMƏD KAMİL OĞLU**

Təvəllüdü: 4 iyul 1986-cı il
Doğulduğu yer: Xocalı



«… Bizi tutdular… Bizi döydülər… Bizi saxladılar…» Və 20 yaşlı Məhəmməd əlləri ilə üzünü qapayıb hönkür-hönkür ağlamağa başladı. Ona acı yaşatdığıma görə yaşadığım sarsıntını heç kimə arzulamıram. Məhəmmədin analığı ilə söhbət etmək məcburiyyətində qalıram. Məhəmmədin anası – Xəzangülü Kətik meşəsində ermənilər öldürüb. 6 ay əsirlikdə olan atası Kamil isə artıq bir neçə ildir ki, dünyasını dəyişib. Məlum olur ki, 6 yaşlı Məhəmməd Xocalı faciəsindən sonra uzun müddət psixi durumuna görə müalicə götürüb.

Məhəmmədin atalı-analı, bəxtəvər günlərinin çəkdirdiyi şəklinə baxıram. Xocalıda çəkdirib bu şəkli. Siz də yaxşı-yaxşı baxın. Oyuncaq motosiklinə minmiş bu şipşirin körpənin günahı nə?! Məhəmmədə cavab tapa bildinizmi?

Mən dünyamı dəyişəndən sonra bu dünyada tək-tənha qalmış

Məhəmməd necə olacaq? – deyir Məhəmmədin analığı Rəfiqə xanım…

***…Böyüyə bilməyən cocuğün hönkürtüsünü eşidirsinizmi?***



Abışov Məhəmməd Kamil oğlu
indi Bakı, Əzizbəyov rayonu,
Mərdəkan qəsəbəsi, Məşəl
düşərgəsi, ev 20 – də qalır.
Tel: 454-60-13